*Ömrüm keçdi şimalda,*
*Gözüm qaldı vüsalda...*
*Gəzsəm də hər mahalda,*
*Dedim Cənubam, qardaş!*

*Mən ki, oddum-atəşdim,*
*Bir ağlar yox, güləşdim,*
*Dünən doğan Günəşdim,*
*Sabah qürubam, qardaş!*

*Bəli! Ulu sənətdə,*
*Karvan yolu sənətdə,*
*Naxış dolu sənətdə*
*Nadir üslubam, qardaş!*



ƏLİ TUDƏ

# TƏBRİZ YOLU

"AZƏRBAYCAN" NƏŞRİYYATI

BAKI - 2017

T13(17)

*O taylı-bu taylı Azərbaycanımızın görkəmli şairi Əli Tudənin çapı nəzərdə tutulmuş 20-cildliyinin 10-cu cildi olan "Təbriz yolu" kitabında "Təbriz həsrəti" ilə yanan sənətkar ömrünün ağrılı-acılı, hicranlı, vüsallı poetik ayları, illəri toplanıb. "Azadlıq arzusu" bitməyən 50 illik bir mühacir ömrünün "Söz dəmətləri", ağ saçlı şairin ayrılıq illərinin dumanları arasından "Qərib axşamlar"da gah Savalana, gah Səhəndə, gah da Arazın o tayında qoyub gəldiyi doğma yerlərə boylanaraq "Dördlüklər"də qələmə aldıqlarının "Təzadlı duyğular"la "Səkkizliklər"ə belə sığmadığından "Poemalar"da öz əksini tapmasının şahidi oluruq.*

**Əli Tudə**
T13(17) Təbriz yolu. X cild. – Bakı, "Azərbaycan" nəşriyyatı, 2017. – 336 s.

**T** $\frac{\textbf{4804000000–013(2017)}}{\textbf{M 670(07)–2017}}$ **Sifarişlə**

©"Azərbaycan" nəşriyyatı, 2017.

]]

# ƏLİ TUDƏ

Əslən Ərdəbilin Çanaxbulaq kəndindən olan ataAsı Qulu və anası Şahbəyim Şimali Azərbaycana köçmüş və Əli 1924-cü il yanvarın 31-də Bakıda anadan olmuşdur. Atası Qulu neft mədənində fəhləlik etmiş, sonra isə buruq ustası vəzifəsinədək yüksəlmişdir. Əli 1 yaşında olarkən atası, 5 yaşında isə anası dünyasını dəyişmişdir. O, nənəsi Qəribin himayəsində böyümüşdür. 150 saylı orta məktəbdə oxumuşdur. Bu dövrdə Bakı Pionerlər Sarayının nəzdində Osman Sarıvəllinin rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin fəal üzvü olmuşdur. Artıq 13 yaşında ikən Əlinin ilk şeirləri Heydər Rzazadə imzası ilə "Kommunist", "Yeni yol" qəzetlərində çap olunub, radioda səslənib. 1938-ci ildə həmin ədəbiyyat dərnəyinin nəşr etdiyi almanaxda da şeirləri dərc edilib. 1938-ci il repressiya dövründə 7-ci sinifdə oxuyarkən o, Cənubi Azərbaycan mənşəli olduğundan nənəsi ilə birlikdə İrana sürgün edilir. Təhsili yarımçıq qalır. İranda təsərrüfat işləri və fəhləliklə məşğul olaraq ağır həyat tərzi keçirir. Lakin şəxsi mütaliəsi, ədəbiyyata güclü meyli onda yazıb-yaratmaq həvəsini söndürmür. 50 ildən artıq bir müddət ərzində bircə gün belə olsun qələmini yerə qoymayan Əli Tudə dərəli-təpəli bir həyat və yaradıclıq yolu keçmişdir. 1940-cı illərdə Cənubi Azərbaycanda

başlanan azadlıq hərəkatına qoşulub silahı və qələmi ilə mübarizə aparır. Milli ruhlu şeirləri ilə xalqı istiqlala çağırır. 1944-cü ildə "Vətən yolunda" qəzetində Əli Tudə imzası ilə şeirləri çap olunur. 1944–1946-cı illərdə Ərdəbildə çıxan "Ziddi-faşist", "Cövdət" qəzetlərində, ədəbi almanaxlarda, Təbrizdə çıxan "Vətən yolunda", "Azərbaycan" qəzetlərində, "Şəfəq", "Azərbaycan" məcmuələrində, "Şairlər məclisi" almanaxlarında şeirləri müntəzəm çap olunmuşdur. O, "Hizbitudeyi-İran" partiyasının üzvü olur (1944). Bir ildən sonra, 1945-ci il sentyabrın 3-də Təbrizdə yaranan Azərbaycan Demokrat Firqəsi sıralarına qoşulur. İran xalq partiyası Ərdəbil vilayət komitəsində təbliğatçı (1944–1945), Milli hökumət yarandıqdan sonra Təbrizdə Maarif Nazirliyində tədris şöbəsinin müdiri (1945–1946) işləyir. "Ana dili" kitabının tərtibi və çap olunmasında xüsusi rol oynayır. Sonra isə İran tarixində ilk dəfə olaraq Təbrizdə Milli filarmoniya yaradır, onun ilk və son müdiri olur. Mahal-mahal, kəndbəkənd gəzərək istedadları bu böyük mədəniyyət ocağına cəlb edir. Əli Tudə Cənubi Azərbaycan Demokratik ədəbiyyatının yaradıcılarından biridir. İctimai-siyasi fəaliyyəti ilə bərabər şair öz qələminin qüdrətindən inqilabın nailiyyətlərinin qorunub saxlanılması üçün ustalıqla istifadə edir. Yaradıcılığını, yüksək əqidəsini, mütərəqqi fikirlərini mübarizə yollarında məşələ çevirən Əliyə Təbrizin “Şairlər məclisi”ndə müdriklər tərəfindən Tudə, yəni Xalq təxəllüsü verilir. Milli hökumət onu ali mükafat "21 Azər" medalıyla təltif edir. O vaxt şairin cəmi 22 yaşı var idi və ilk şeirlər kitabı da çap ərəfəsində idi.



Lakin tale burda da öz qəddar hökmünü verdi. Bu xoş günlər, azadlıq və səadət uzun çəkmədi. Min bir əzabla, qanlar bahasına qurulmuş Milli hökuməti İran dövləti beşikdəcə boğdu. Şairin üsyankar ruhlu şeirlər kitabı mətbəədəcə yandırıldı. Tutulduğu anda məhkəməsiz-filansız qətlə yetirilməsi barədə şahın fərmanı verildi. Şair mübarizəni davam etdirmək və qayıtmaq məqsədilə öz məsləkdaşları ilə bir daha Vətəndən Vətənə mühacirət etmək məcburiyyətində qaldı. 1946-cı il dekabrın 12-də sərhəddə yazdığı "Mən nə gətirdim" şeiri Cənubi Azərbaycan mühacir ədəbiyyatının ilk nümunəsi oldu. O taydan gələn qardaş-bacılarımızın manifestinə, həyat məramına dönən bu şeir tez bir zamanda dillər əzbərinə çevrildi.

Milli demokratik hökumət irtica qüvvələri tərəfindən boğulduqdan sonra Bakıya mühacirət zamanı "Ədəbiyyat qəzeti" redaksiyasında ədəbi işçi vəzifəsində işləyir. Ona ali təhsil almaq imkanı yaranır. BDU-nun filologiya fakultəsini fərqlənmə diplomu ilə bitirir (1947–1952). 1958-ci ildən Azərbaycan və SSRİ Yazıçılar İttifaqının üzvü. Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Ali Partiya Məktəbində müdavim, "Azərbaycan" qəzetində (Azərbaycan demokratik firqəsinin orqanı) ədəbi-şöbə müdiri olur (1952–1962). Sonra bütün həyatını bədii yaradıcılığa həsr edir. Ümumittifaq tədbirlərində, Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə, Tbilisidə SSRİ Yazıçılar İttifaqının plenumunda və s. iştirak etmişdir. "21 Azər" (1946), "Əməkdə fərqlənməyə görə" (1959) medalları ilə mükafatlandırılmışdır. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri

Fərmanı ilə təltif olunmuşdur (1984). Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü seçilmişdir (1960-cı ildən). Əmək veteranı (1986), Əməkdar incəsənət xadimi (1987). 50 poemanın, 40-a yaxın kitabın müəllifidir. Əsərləri özbək, qırğız, hind, ukrayna, rus, ingilis və s. dillərə tərcümə olunmuşdur. Əli Tudə ömrü boyu siyasi mühacir olaraq qaldı. Sovet pasportu daşımadı. Bir çox yüksək titul və mükafatlardan məhrum oldu.

1996-cı il fevralın 26-da Bakıda vəfat etmişdir. Fəxri Xiyabanda dəfn olunmuşdur.



## *TƏBRİZ HƏSRƏTİ*

Əlli illik nisgilli mühacir həyatı görkəmli, mübariz bir şairi, təmiz, mərd bir insanı çox sevdiyi bu həyatdan qopardı. Əli Tudə ömrü hər ömrə bənzəməyən, bulaq suyu kimi saf və büllur, ləkəsiz bir ömür idi.

**Mən öz qardaşıma mehman gələndə**
**Bir qələm, bir dəftər, bir can gətirdim.**
**Dağların döşünü toplar dələndə**
**Ləkəsiz, boyasız vicdan gətirdim.**

Bəli, belə gəldi, belə yaşadı Əli Tudə! Şöhrət dalınca qaçmadı, şöhrət özü onu tapdı. Vaxtında öz layiqli qiymətini almasa da onu xalqın məhəbbəti yaşatdı. Kövrək, qeyrətli, təpərli, müdrik bir şair idi Əli Tudə! Adətən insanı həyatdan gedəndən sonra çox tərifləyirlər! Xoşbəxtlikdən mən bu sözləri onun özünə demişdim. Son vaxtlar ədəbiyyatda, sənətdə saf adam çox az qalmışdı. Mən onu belə tanıdım! Yaddaşımda belə qaldı. Əli Tudənin bir sözü, bir üzü, bir sifəti var idi. Başqa cür də ola bilməzdi. Onun şeirlərində yalan yox idi, nə idisə həyat idi, həyatın özü idi!

Əli Tudənin həyata baxışlarında bir kəskinlik, bir etiraz, bir üsyan var idi. Çünki həyat başdan-başa haqsızlıqlarla, qeyri-bərabərliklərlə dolu idi. O, haqsızlığa dözə bilmirdi. Telefon söhbətlərimizdə bunun şahidi olurdum. O da az danışan idi, mən də! Lakin həyati söhbətlərimiz tükənməzdi. Onun bircə həsrəti var idi: Təbriz həsrəti! Düşündükcə təəccüb dalğası adamı bürüyür. Əli Tudəni Təbrizə buraxmadılar. Nə üçün? Axı müsəlman müsəlmanın qardaşıdır! Əli Tudə həyatı məcazi mənada acı keçdi! Lakin şərəfli kişi ömrü yaşadı!

İnsan dünyaya bir dəfə gəlir. Bunu hamı deyir, ancaq bir neçə adam bu sözə əməl edir. Çünki başqaları, görünür bir neçə dəfə gəlir, sağlığında bir neçə dəfə ölüb dirilir!

Əli Tudənin həyatı öz şeirlərindədir, titrək, kövrək, eyni zamanda coşğun və üsyankar!

"Təbriz yolu" kitabı Əli Tudənin getmək istədiyi yoldur. O bu yolu gedir və gedəcək. Heç bir yarımçıq münasibət bu yolu yarıda qoya bilməz. Kitabları ilə, şeirlərilə, nəhayət qayğıkeş, qədirbilən övladları ilə Əli Tudə Təbriz yolunu gedəcək. Onun ruhu Araz qırağında, Savalanda, Urmiyyədə, Şiblidə, Göy məsciddə, Çanaxbulaqda, görmədiyimiz, bilmədiyimiz neçə-neçə obalarda-oylaqlarda qərar tutacaq. Çünki bu həsrət bir şairin deyil, həm də bir xalqın həsrətidir.

Əli Tudədə Azərbaycan torpağına, onun xalqına böyük bir məhəbbət var idi. Hər azərbaycanlıda belə hisslər olmur. Gözümüz görür, ağlımız kəsir. Öz torpağının qədrini hər adam bilmir. Torpaq, Vətən eşqilə yanan bir şairi Azərbaycan torpağı öz ağuşuna aldı. Gözü heç kəsin səadətində, xoşbəxtliyində olmadı. Öz dünyası özünə bəs elədi Əli Tudənin. Çörəyini halal kəsdi, süfrəsi də halal oldu, ocağı da! Bu mələk xasiyyətli insana Allah tərəfindən verilmiş bir bakirlik idi. Belə insanlar dünyada az-az olur. Bu azlardan biri Əli Tudə idi. Mən onun vəfatına "Can karvanı" adlı bir qəsidə yazdım. Fikrimi o qəsidənin iki beyti ilə bitirirəm:

**Vətən həsrətli dərd ilə köçüb getdi Əli Tudə,**
**Xəyali bir çəməngah üstədir sanki, gəlir yadə!**

**...Əlli il Bisütun yardı, toxunduqca külüng daşa**
**Şirin oldu Vətən dərdi, bu dərdlə döndü Fərhadə!**

**Müzəffər Şükür Məchul**
**26 may 1996.**





## TƏBRİZ YADIMA DÜŞDÜ

Yenə əzəmətilə
Təbriz yadıma düşdü.
Yenə təravətilə
Təbriz yadıma düşdü.

Gəncliyimi aradım,
Hüsnündən söz yaradım...
Xəyalımı daradım,
Təbriz yadıma düşdü.

Qış səngərə qarladı,
Milli himnim gurladı...
Sanki şimşək parladı,
Təbriz yadıma düşdü.

Azadlıq bir il tamam
Sevindi səhər-axşam...
Varaqlandı o əyyam,
Təbriz yadıma düşdü.

Vətən yumruq düyəndə,
Əsarəti döyəndə,
– Paytaxtım var! – deyəndə
Təbriz yadıma düşdü.

İstiqlalımı andım,
Generalımı andım,
İstehsalımı andım,
Təbriz yadıma düşdü.



Köhnə söz gözü yordu,
Təzə söz demək zordu,
Şairlər məclis qurdu,
Təbriz yadıma düşdü.

Fədailər oxudu,
Günəş çələng toxudu...
Yer-göy ətir qoxudu,
Təbriz yadıma düşdü.

Mən qurdum yurd növrağı –
Bir musiqi ocağı.
Tarixləşdi sorağı,
Təbriz yadıma düşdü.

İlk görüşə çıxdığım,
Son döyüşə çıxdığım,
Bir itmişə çıxdığım
Təbriz yadıma düşdü.

Tarix əlvan geyindi,
Yox! Yox! Qurban geyindi,
Zaman-zaman geyindi,
Təbriz yadıma düşdü.

Masa dalında təkdim,
"Ərk qalası"nı çəkdim,
Önündə güllər əkdim,
Təbriz yadıma düşdü.

"Əmir bazarı" yenə,
Qaynayıb-daşdı... Mənə
– Gəl! – dedi dönə-dönə,
Təbriz yadıma düşdü.

Novruz xonça bəzədi,
Gördüm hər şey təzədi,
Xatirələr məzədi,
Təbriz yadıma düşdü.

Ağ paltar geydi badam,
Gəlindi, nəydi badam?
Divarı döydü badam,
Təbriz yadıma düşdü.

Günəş taxtdan enəndə,
"Qaragilə" dinəndə,
Kəhkəşana dönəndə
Təbriz yadıma düşdü.

Andım Eynal-Zeynalı,
Yandı lalə tonqalı...
Bir ölkənin cəlalı
Təbriz yadıma düşdü.

Acı çay axdı keçdi,
Üzümə baxdı keçdi,
Könlümü yaxdı keçdi,
Təbriz yadıma düşdü.

Gəzdim aranı-dağı,
Dedim ömrün qış çağı
Hanı Gülüstan bağı?
Təbriz yadıma düşdü.

Dedim hanı Yanıq dağ,
Gah məğrur, gah yazıq dağ?
Zirvələndi sınıq dağ,
Təbriz yadıma düşdü.



Ağ bulud ağ bərəkət,
Göy məscid göy qüdsiyyət...
Dedim hanı ibadət?
Təbriz yadıma düşdü.

Bağmeşə yaşıl dəniz,
Gözəlləri gülbəniz...
Yanında dindi kəhriz,
Təbriz yadıma düşdü.

Mavi gözlər yananda,
Məni məhrəm sananda,
Yollarıma qonanda
Təbriz yadıma düşdü.

Bir əlvan xalı gördüm,
Hikmətlə dolu gördüm,
Sənətkar yolu gördüm,
Təbriz yadıma düşdü.

Harada toya baxdım,
O tay, bu taya baxdım,
Həsrətdə laya baxdım,
Təbriz yadıma düşdü.

Susdum not sellənəndə,
Başımız yellənəndə,
"Humayun" dillənəndə
Təbriz yadıma düşdü.

Bir qaşıq çilov yedim,
Yox! Sanki alov yedim,
Su yoxdu, qırov yedim,
Təbriz yadıma düşdü.

Gül bitər qayada da,
Dür parlar dəryada da,
Yatanda röyada da
Təbriz yadıma düşdü.

Ümidlə ayaqlaşdım,
Həsrətdən uzaqlaşdım,
Gəncəylə qucaqlaşdım,
Təbriz yadıma düşdü.

Təbrizdən bir ərmağan
Su gətirdi Nəriman.*
İçdim... Suyu çıraqban
Təbriz yadıma düşdü.

Ekranda gördüm onu,
Nə füsunkardır donu!
Arzumun ilki-sonu
Təbriz yadıma düşdü.

Bəli! Hünər dastanlı,
Qətiyyətli, gümanlı,
İki milyon ünvanlı
Təbriz yadıma düşdü...

***1989.***

* Şair Nəriman Həsənzadə



## TƏBRİZİN DƏRBƏNDLƏRİ

İnqilab mirasıdır
Təbrizin dərbəndləri.
Bayatı misrasıdır
Təbrizin dərbəndləri.

Səttarxan nəfəslidir,
Bağırxan nəfəslidir,
Heydərxan nəfəslidir
Təbrizin dərbəndləri.

Sakinlər xətirlidir,
Çinarlar çətirlidir,
Qızılgül ətirlidir
Təbrizin dərbəndləri.

Bir-birinə hay verər,
Qəribə də pay verər...
Su yerinə çay verər
Təbrizin dərbəndləri.

Dolaşıb addım-addım,
Mən də ətrini uddum...
Nə oldu gül qanadım?
Təbrizin dərbəndləri.

Lal ətir gur səs oldu,
Mərd ömrümə bəs oldu,
Mənə doğma kəs oldu
Təbrizin dərbəndləri.

Uludan da uludur,
Qeyrət ilə doludur...
Cəsur fəhlə qoludur
Təbrizin dərbəndləri.

Göy yarpaqlar yüz əldir,
Zümrüd çadır düzəldir...
Gözəllərlə gözəldir
Təbrizin dərbəndləri.

Nə zaman şər qarışar,
Çıraq-çıraq alışar...
Pıçıltıyla danışar
Təbrizin dərbəndləri.

Qüdsiyyət ünvanlıdır,
Məhəbbət dastanlıdır,
Sabaha gümanlıdır
Təbrizin dərbəndləri.

Keçsə də odlu çağlar,
Günəşlə ülfət bağlar...
Ayaq izimi saxlar
Təbrizin dərbəndləri.

Gecələr birər-birər
Şirin yuxuma girər...
Görüş ümidi verər
Təbrizin dərbəndləri.

***1986.***



## TƏBRİZ GECƏLƏRİNDƏ

Mən sanki hallanardım
Təbriz gecələrində.
Görüşə yollanardım
Təbriz gecələrində.

Nə zaman Ay doğardı,
Yer də göyü sağardı...
Mehribanlıq yağardı
Təbriz gecələrində.

Yalqızlar sevişərdi,
Xofsuzlar sevişərdi,
Ulduzlar sevişərdi
Təbriz gecələrində.

Sanki hər od, hər ocaq
Almasa da bir soraq,
Qonaq gözlərdi, qonaq
Təbriz gecələrində.

Səhənd çəndən çıxardı,
Bir qədər də qalxardı.
Məmnun-məmnun baxardı
Təbriz gecələrində.

Eynal-Zeynal qələ tək,
Qızarardı lalə tək,
Yox! Yanardı şölə tək
Təbriz gecələrində.

Ərk qalası dik sinə,
Meydan istərdi dinə...
Keşik çəkərdi yenə
Təbriz gecələrində.

Göy məscid bir növraqdı,
Qaranlıqdan uzaqdı.
Göy işıqlı çıraqdı
Təbriz gecələrində.

Yarpaqlar səs salardı,
Yox! Bir nəğmə çalardı,
İnsan fikrə dalardı
Təbriz gecələrində.

Yananda qəlb ocağı,
Mehin sərin dodağı,
Öpərdi hər yanağı
Təbriz gecələrində.

Sular arxa dolardı,
Gümüş qılınc olardı.
Xəzəlləri talardı
Təbriz gecələrində.

Dükanlar nadir daşı,
Gizlətməzdi... Daş-qaşı
Parlardı addımbaşı
Təbriz gecələrində.

Gül gülü çağırardı,
Əl əli çağırardı!
Dil dili çağırardı
Təbriz gecələrində.



Təbrizin öz ləhcəsi,
Dinərdi söz ləhcəsi,
Həm qaş, həm göz ləhcəsi
Təbriz gecələrində.

Zarafat dil açardı,
İxtilat dil açardı,
Hissiyyat dil açardı
Təbriz gecələrində.

Ünsiyyət dolaşardı,
Nəzakət dolaşardı,
Sədaqət dolaşardı
Təbriz gecələrində.

Sevgilim Ay olardı,
Yox! Nadir pay olardı,
Günəşə tay olardı
Təbriz gecələrində.

Arzularını mənə,
Deyərdi dönə-dönə.
Eh, tükənməzdi yenə
Təbriz gecələrində.

Gözləri can alardı,
Təbəssümlə dolardı,
Yola işıq salardı
Təbriz gecələrində.

Ömür yaşıllaşardı,
Tale qızıllaşardı,
Sevgi nağıllaşardı
Təbriz gecələrində.

Bir bayatı dinərdi,
Körpə quşa dönərdi,
Gah qalxıb, gah enərdi
Təbriz gecələrində.

Önü kəsməmiş xəta,
Gülə dönməmiş buta,
Kim istəyərdi yata
Təbriz gecələrində?

Ətirlə dolu şəhər,
Yanardı ülkər-ülkər...
Səhər doğardı, səhər
Təbriz gecələrində.

Ömrüm qüruba çatır,
Sanma günəşi batır.
Neçə xatirəm yatır
Təbriz gecələrində.

***1991.***

## TƏBRİZ YOLU

O ağara-ağara
Təbrizə gedən nədir?
Yoldursa, niyə mehdə
O titrək-titrək gedir?
Yolları, körpüləri
Dağıtdığı zamanda,
Yerdən qopara bilmir
Ağaranı tufan da.



O yol deyil! Başımdan
Yerə enən saçımdır.
O həsrətdən ağarıb
Yola dönən saçımdır.
Bəli! Həsrət kəsdikcə
Qarşısını səd kimi,
Zülmətin içində də
O ağarmış süd kimi.
Görən sanmış dönsəm də
Ağ dalğalı selə mən,
Ağ saçımla gəlmişəm
Bu dünyaya elə mən.
Yox! Yox! Qara saçıma
Zəmanə qar ələmiş.
Ağ saçımsa Təbrizə
Əlvan bahar diləmiş.
Təbrizə çatmayınca
Bir gün o da özüm tək,
Ağaracaq, qarası
Qürub etmiş gözüm tək...

***1988.***

## İKİ DÜŞÜNCƏ

Biz yatırıq, biz dururuq, zaman axır,
Qardaş! Ancaq görürəm ki, yaman axır.
Sifətimi qələmiylə yazır xət-xət...
O yaradır başqa insan, başqa surət!
Məndə nə o göz qalmışdır, nə də o qaş,
Duyuram ki, qocalıram yavaş-yavaş...
Elə sanma bədənimi düşünürəm,
Qocaldıqca vətənimi düşünürəm!

Taleyə bax! Sanki məni səhər-axşam
Yalnız həsrət çəkmək üçün doğmuş anam.
Həsrət uzun, zaman iti, ömür qısa,
Ürək buna necə dözə, necə susa?
Yox! Ürək də daha üzə durur indi,
Ürəyi də boş vədələr yorur indi.
Duyuram ki, sevgilim də, uşaqlar da,
Evimizə gəlib-gedən qonaqlar da
Mənə baxıb təəssüflü görünürlər.
Onlar məni, yalnız məni düşünürlər.
Qəribədir. Qınamasın kimsə məni,
Onlar məni düşünürlər, mən Vətəni!

***1965.***

## TƏBRİZ NİSGİLİ

Qocalıq nədir? Ömrün
Ağ çiçəkli gülşəni!
Bir məktəbə döndərər
Əyləşdiyi guşəni.
Əfsus! Ağ çiçəklərin
Yerinə qara torpaq,
Yaşıl donlu illəri
Girov istəyər ancaq.
Qara torpaq məni də
Udası olsa əgər,
Səngimiş bir alovun
Dudası olsa əgər,
Önündə nə mərhəmət,
Nə də aman dilərəm.
Yox! Ülvi qürurumu
Hər şeydən baş bilərəm!



Bəs ürəyim? Odamı
Mənimlə ölmək istər?
Dünyadan getsə, bir də
Dünyaya gəlmək istər!
Niyə? Yenə Təbrizin
Köksündə vursun deyə.
Mübariz şəhərinin
Halını sorsun deyə...
Şükürnemət yaranmış
Ürəyim də özüm tək.
O nəsə axtarsa da
Günəş dolu gözüm tək,
Bu görüşdə möcüzə
Çıxsa da qabağına,
O heyran-heyran baxar
Təbrizin növrağına.
Bircə bənövşə ömrü
Diləyər taleyindən.
Talelərə sədaqət
Ələyər taleyindən...

***1991.***

## DÜŞDÜM

Könlümdə azadlıq dedi bir atəş,
Fəqət vətən boyda zindana düşdüm.
Mən günəş axtardım dünyada, günəş,
Bəs niyə, bəs niyə dumana düşdüm?

Təzə bir gəmiydim çıxıb səfərə,
Sürətlə gedirdim aydın səhərə.
Ah, əlim çatmamış qəti zəfərə,
Yollar ayrıcında tufana düşdüm.

Yeraltı dağları çaparam deyə,
Qiymətli incilər taparam deyə,
Suların əlindən qaparam deyə
Nə qədər dalğalı ümmana düşdüm.

Yox! Nə fəryad çəkdim, nə də nalə mən,
Yandım – Vətən! – deyə şölə-şölə mən,
Zülmətə qarışdım gilə-gilə mən,
Sanki alovlanan vulkana düşdüm.

Kiçik çeşmələrdən böyük çay olar,
Axar, təlatümlü nəhrə tay olar,
Hicran uzaqbaşı üç-dörd ay olar,
Mən isə ömürlük hicrana düşdüm.

Fəqət döyüşçüyəm dünyada mən də,
Başımı əymərəm cəllada mən də,
Gün gələr, çataram murada mən də,
Deyərəm nə gözəl zamana düşdüm.

***1974.***

## TƏBRİZ SUYU

*Şair qardaşım*
*Nəriman Həsənzadəyə*

Mənə gətirdiyin Təbriz suyunu,
Göz yaşından təmiz kəhriz suyunu
Qurtum-qurtum içdim, birnəfəsə yox,
Sanma ki gəlmədim mən həvəsə, yox.



Qədimdən bir nəcib adətimiz var,
Hansı dəyərlənmiş nemətimiz var,
Az-az işlədirik təbərrik kimi,
Sandım ki bir dəstə üzərrik kimi
Sən məni Təbrizə aparmasan da,
Sinəmdən nisgili qoparmasan da,
Təbrizi gətirdin mənim yanıma,
O su yayıldıqca quru canıma,
Təzədən dirçəlib cavanlaşdım mən,
Yenidən tanınıb ünvanlaşdım mən.
Səhra ürəyimdə solan diləklər,
Ləçəyə tamarzı qalan çiçəklər
Ömrün payızında çətirləndilər,
Baharın ətriylə ətirləndilər...
Sən də bilirsən ki qırx dörd il tamam
Təbriz! – deyib yandım hər səhər-axşam.
Dilimə dəymədi Təbrizin suyu,
Dünyada əzizdən əzizin suyu.
Sənin o bayraqlar salan şəhərdən,
Odlu cavanlığım qalan şəhərdən
Qoruya-qoruya gətirdiyin su,
Doğmadan doğmaya gətirdiyin su,
Ən böyük, ən əziz töhfədir mənə,
Qardaşım! Təşəkkür edirəm sənə.
Nə qəmli ev olsun, nə dalğın qonşu!
Atalar deyiblər bir yaxın qonşu
Min uzaq qohumdan daha əfzəldir.
Arzu şirinsə də, əməl gözəldir!
Sən mənə qonşu yox, sirdaş olubsan,
Fikir yollarında yoldaş olubsan.
Deyirlər savabdır su yer üzündə,
Su yox, həyatdır o təşnə gözündə.

Mən isə vüsalın öz təşnəsiyəm,
Bir təsəlli dolu söz təşnəsiyəm.
Təbrizin suyunu bir daha içdim,
Sanki bulaq dolu Səhənddən keçdim.
Tarixin gözləri yol çəkə-çəkə
Bundan böyük savab görməmiş bəlkə.
Su həm də aydınlıq sayılır, qardaş!
Yatmışlar suyla da ayılır, qardaş!
Gün o gün olsun ki, yollarda yatan,
Küləkli illərin tozuna batan
Vüsal da ayılsın su avazıyla,
Yurdumuz barışsın öz Arazıyla...
Bu taydan o taya gedən yollara,
Tozu əlçim-əlçim didən yollara
Bakı da su səpsin, Təbriz də, qardaş,
Ayrılıq qərq olsun dənizdə, qardaş!..

***1991.***

## ƏZİZ SOVQAT

*Təbrizdən Bakıya*
*bir dəstə gül göndərilmişdi.*

Bir ürəyim vardır, boşalar-dolar,
Vətən! O da həsrət gülünə qurban!
Yox, yox, hər gülünə desəm az olar,
Hər gözəl ətirli telinə qurban!

Ah, hicran köynəkli çiçək bitirən,
Çiçək yox, bəlkə də ürək bitirən,
Fəqət kövrəkdən də kövrək bitirən
Torpağına qurban, gilinə qurban!



Baharda bir sevinc gələr üzünə,
Yağış narın-narın çilər üzünə...
Gəlin təbiətin gülər üzünə,
Güllərdən hördüyün tülünə qurban!

Yanar bir ürəksən alovlu-qorlu...
Şahnazlı, Segahlı, Mahurlu, Şurlu...
Dodağı nəğməli, sinəsi nurlu,
Səhənddən tökülən selinə qurban!

Susma, zaman-zaman mahnınla gurla,
Qatı dumanların altda da parla!
Təhdidlə, qəzəblə, tənəylə, zorla
Sönən ocağının külünə qurban!

Amandır, axmasın gözünün yaşı,
Bir acizlik sanar yoxsa hər naşı.
Mahnı oxuyanda hər misra başı
"Qara gilə" deyən dilinə qurban!

Qalandı qəlbinə qəm qalaq-qalaq,
Yolun yoxuş oldu, mənzilin uzaq...
Dağdan ağır olan yük altda ancaq
Dizi əyilməyən elinə qurban!

Bilirəm qolunu zəncirlər kəsib,
Pərişan saçın da taledən küsüb...
Qarlı Savalanın başından əsib
Saçını darayan yelinə qurban!

Sən ki, çox döyüşdün, büsatın hanı?
Fədai nəfəsli həyatın hanı?
De, neçə didərgin övladın hanı?
İntizarla keçən ilinə qurban!

Getdin, istəmədən tufana sarı,
Ara döndərmədin insana sarı.
Günəşi görünən dövrana sarı
Uzanılı qalan əlinə qurban!

*1972.*

## QARAGİLƏ

Bir zaman Təbrizin küçələrində
Gəzərdim bəxtiyar adamlar kimi.
Yazın şairanə gecələrində
O nəğmə yanardı ilhamlar kimi...

Bəli! Otaqların pəncərəsindən
Yola səpilərdi “Qaragilə”lər.
Doymazdı şəhərin mənzərəsindən
Təbəssümlə dolu qara gilələr.

Fəqət ayırmazdım o nəğməni mən
Neçə təranədən, neçə mahnıdan.
Mən nə biləydim ki, o gözəl, o şən
Nəğmə olacaqdır məni tanıdan?

Yox! “Qaragilə”ni eşitsəm haçaq,
Heyrətim doğmazdı Təbrizdə mənim.
Döyüş misralarım dinirdi ancaq,
Zəfər orkestrli dənizdə mənim.

Şeirə qarışıbmış başım bəlkə də
Vaqif olmamışam o nəğməyə mən.
Hücum gözlənirdi doğma ölkədə
Cavab verməliydim hər gəlməyə mən!



İndisə Təbrizli nəğməkar deyil,
O mətni bakılı Şövkət oxuyur.
Elə bil oxuyan sənətkar deyil,
Sinəmdə daşlaşan həsrət oxuyur.

Şövkət oxuduqca çay, bulaq, kəhriz
“Vüsal!” – deyə axır “Qaragilə”də...
Dözümlü olsa da kövrəlir Təbriz,
Ağ incilər donur qara gilədə.

Vaxt vardı, tükümü ürpətməzdi o,
Sanma ki, dənizdən qətrədir indi.
Vaxt vardı, könlümü tərpətməzdi o,
Bütün varlığımı titrədir indi.

Sən demə Təbrizin döyüş illəri
O doğma nəğmənin sətrində imiş.
Sən demə Təbrizin qızılgülləri
O doğma nəğmənin ətrində imiş.

O Təbriz ünvanlı, Təbriz nəfəsli,
Təbriz təravətli nəğməmdir mənim.
O Təbriz diləkli, Təbriz həvəsli,
Təbriz məhəbbətli nəğməmdir mənim!

*1974.*

## YUXULAR

Təbrizdəydim bir zaman,
Səttarxan diyarında.
Dəmətlər bağlayırdım
Ömrümün baharında.

Nə gileyim, nə qorxum,
Nə kədərim var idi.
Yox, mənim öz günəşim,
Öz səhərim var idi.
Yalnız suları lilli
Araza baxan zaman,
Könlümü gizli-gizli
Ağrıdardı bir hicran.
Yuxuda görərdim ki,
Bəzənib ana torpaq...
Mən o taydan bu taya
Qonaq gəlmişəm, qonaq!
Fəqət doğma evindən
Gedən didərgin deyil,
Ürəyi intizarlı,
Baxışı qəmgin deyil,
Müzəffər bir ölkənin
Bəxtiyar oğlu kimi,
Könlü də, gözləri də
Şeirlə dolu kimi,
Bakılı qardaşımı
Basıram öz qoynuma.
O da öz qollarını
Salır mənim boynuma.
Fəqət ayılan zaman
Görərdim Təbrizdəyəm.
Hicranlı, intizarlı,
Dərin bir dənizdəyəm.
İndi Bakıdayam mən,
Buruqlar meşəsində...
Müqəddəs vətənimin
Dilbər bir guşəsində...



Yenə də dərdim mənim
Hicran dərdidir ancaq.
Hicrandan gecə-gündüz
Yazıram qalaq-qalaq...
Ah, hər gecə yuxuda
O taya gedirəm mən.
Vətəni qarış-qarış
Ziyarət edirəm mən.
Savalana qalxıram,
Bibimlə görüşürəm.
Əmimlə danışıram,
Dayımla öpüşürəm.
Hələ hicran əsiri
Mənim sevimli xalam
Gəlir, qarşıma gəlir.
Soruşur hanı balam?
O, üzümü, gözümü
Yaladıqca duz təki,
Gözündən odlu yaşlar
Tökülür ulduz təki...
Soruşuram bir zaman
Gördüyüm uşaqları,
Bu an əziz xalamın
Qımışır dodaqları.
Çal saçlı kişiləri
Göstərir xalam mənə.
Deyir çəkdiyin hicran
Uzun gəlmirmi sənə?
Yuxudan ayılıram,
Nə Təbriz var, nə xalam.
Hicranın dənizində
Az qalıram məhv olam.

Bəli! O tayda əlim
Çatmayırdı bu taya,
Bu tayda da nəfəsim
Yetişməyir o taya...
Bir vətən bir ölçüdə
Ürəyimdə yerləşmir.
Elə parçalanıb ki,
Yuxuda da birləşmir...

***1969.***

## EVİMDƏ BİR XALÇA VAR...

Evimdə bir xalça var,
Gülləri dəstə-dəstə...
Lalələr qızarışır
Sanki döşəmə üstə...
O yadigar xalçanın
Üstündə gəzəndə mən,
Dəstələnmiş gülləri
Hörmətlə süzəndə mən,
Sanıram ki, yenə də
Təbrizdə gəzirəm mən.
Toxunma deyil, canlı
Gülləri süzürəm mən...
Sanma o güllərin tək
Rəngləri işıldayır.
Yox! Yox! O güllər mənə
Nə isə pıçıldayır...



Axı hər təbrizli qız
Hər gülü toxuyanda,
Öz mahnısını yalnız
Könlündə oxuyanda,
Bu naxışlı xalçaya
Ürəyini köçürmüş,
Duyğusunu calamış,
Diləyini köçürmüş...
Kimi Vətən nəğməsi,
Kimi qürbət nəğməsi,
Kimi sevgi nəğməsi,
Kimi həsrət nəğməsi
Yazıbdır o xalçada
Mahir sənətkar kimi.
Bəli! Xalça yaranmış
Təzadlı bahar kimi.
Burda hər gül, hər buta
Bir muradın nişanı...
Burda hər sap, hər ilmə
Bir ömürün ünvanı..
Ürəkdə gül açmayan
Neçə arzu, neçə kam,
Ancaq o xalça üstə
Gül açmış səhər-axşam.
O sanki bir yamacın,
Bir çəmənin köksüdür.
Yox! Yox! Yanıldım deyən,
Təbrizin öz əksidir.
Evimizdəki hər şeydən
Qiymətlidir o mənə.
Güllər az qalır yana,
Güllər az qalır dinə...

Nəyə gərək dünyanın
Min xalısı, xalçası?
Mənim otağımdadır
Təbrizin bir parçası!
O yaşayır gözümün
Ağında, qarasında...
Hər ömrün axırı var
Ömürlər arasında.
Ailəm dözməsə də
Ayrılığa, nisgilə,
Məni o xalça üstə
Aparın son mənzilə...

***1970.***



## TƏZƏ SƏRHƏD

Mənim ürəyimi ömürlük hicran
Ürək yox, bir ələk elədi, dostlar!
Vətən dərdlərini o, zaman-zaman
Mənim bədənimə elədi, dostlar!

Araz çağlasa da dərin yaramda
Daha dəbdən düşüb köhnəlmiş sədd tək.
İndi Vətənimlə mənim aramda
Gözlərimin çayı axır sərhəd tək...

Döyüş bayrağını qaldırıb göyə,
Tufanla çarpışır cəsur Vətənim.
Mən sağ ola-ola bilmirəm niyə
Meydanda tək qalıb məğrur Vətənim?

***1989.***

## GECİKMİŞ QİSMƏT

Ağacın susuzluğu
Yarpağından duyular.
Adamın susuzluğu
Dodağından duyular.
Mən susuz olmasam da
Təşnəyəm yenə, təşnə!
Deyə bilərsiniz ki,
Bəs nə gərəkdir sənə?
Qarşımda çağlasa da
Çayım da, bulağım da,
Niyə bir həsrət dolu
Yanğı var dodağımda?



Güllər yaşıl tənəkdə
Büllur salxım kimidir.
Dilək ürəyə düşən
Seçmə toxum kimidir.
O ürəkdə çağlayan
İlhama batmalıdır,
Tək yazda yox, qışda da
Qol-budaq atmalıdır.
Mən də diləyirəm ki,
Döyüşən Vətənimdə,
Havası gündən-günə
Dəyişən Vətənimdə
Hər nemətdən ləzzətli
Azadlıq novbar olsun!
Dünənimin şöhrəti
Gizli yox, aşkar olsun!
Dünyada azad dillər
Çağlayanda sel kimi,
Mənim doğma dilim də
Pardaxlansın gül kimi.
Dilimin səsi gəlsin
Dünyanın hər yerindən.
Günəş hərarət alsın
Azərbaycan şeirindən!...
Həyatda şad xəbərin
Ayağı yüngül olur.
Bəd xəbərin nəfəsi
Sanki qurşunla dolur.
Mən də istəyirəm ki
Keçəm hicran selindən,
Şad xəbərlər eşidəm
Vətənimin dilindən...

Demirəm ki, ömrümün
Payızı da yaz olsun,
Deyirəm ki, ağ saçlı
Tarixlərdə az olsun –
Diləyimin müddəti
Ömrümün müddətindən.
Bəlkə yazam taleyin
Gecikmiş qismətindən.
Bəlkə nədir? Mən mütləq
Yazacağam o günü!
Neçə-neçə mənzilə
Düşəcək odlu ünü!
Ürəyimdə söz ordum
Hər hücuma yarayar!
Məni vaxtsız ölümdən
Atəşilə qoruyar!

***1987.***

## DİLİM

Alovlu günəş qədər
Hərarətlidir dilim!
Müqəddəs atəş qədər
Ünsiyyətlidir dilim!

Bəzən kəsilmiş yolu,
Gah qar döymüş, gah dolu...
Faciələrlə dolu
Hekayətlidir dilim!

O nədir? Mərd qəhrəman!
Hər anı bir imtahan...
Həm Babək, həm Səttarxan
Təbiətlidir dilim!



Dünya söz seçə-seçə,
Füzulini hər gecə
Oxusun, görsün necə
Əzəmətlidir dilim!

O əzizdir çörək tək,
O şirindir dilək tək,
Məhəbbətli ürək tək
Məhəbbətlidir dilim!

Gileylənsə əyyamdan,
Qayğı ummaz adamdan.
Nə sözdən, nə ilhamdan
Xəcalətlidir dilim!

O başdır sənətdə də,
O mərddir qeyrətdə də,
Adicə söhbətdə də
Şeiriyyətlidir dilim!

Söz ustaları əgər,
Yazsa da milyard əsər,
Qızıl ulduzlar qədər
Bərəkətlidir dilim!

Təranəyə dönsə də,
Dürdanəyə dönsə də,
Əfsanəyə dönsə də,
Həqiqətlidir dilim!

Çaxıb-yanar şimşək tək,
Dada çatar kömək tək.
Əyilməyən dirək tək
Dəyanətlidir dilim!

Yıxılsa üzü üstə,
Buz donsa gözü üstə,
Dayanar sözü üstə,
Qətiyyətlidir dilim!

Fırtınaya dönsə də,
Dalğa-dalğa dinsə də,
Düşmənləri yensə də,
Nəzakətlidir dilim!

İnciməsin bahar da,
Neçə-neçə novbar da,
Hər zaman hər diyarda
Təravətlidir dilim!

Hər səngərə sinməyə,
Hər qanuna dönməyə,
BMT-də dinməyə
Ləyaqətlidir dilim!

***1989.***

## NƏ YAXŞI Kİ...

Ana Vətən! Dünəninin
Sabahına sözüyəm mən!
Bayraqları dalğalanan
İnqilabın özüyəm mən!
De! Saçlarım ağlarında
Keçmişini daşımırmı?
Gözlərimin işığında
Gələcəyin yaşamırmı?



Öz əlimlə ucaltdığım
Bu günümə təməl olan,
Tarixin daş yaddaşında
Ötəri yox, daim qalan,
Dünənimi öz şeirimdə
Zirvə-zirvə qaldırmasam,
Qalibiyyət nəğməsini
Pərdə-pərdə çaldırmasam,
Sabahımın zirvəsindən
Məni görə bilməz dünya.
Salamıma təbəssümlə
Ölkə-ölkə gəlməz dünya.
Mən şairəm! Mərdliyimdə
Səmimidən səmimiyəm!
Həyanının həyanıyam,
Qəniminin qənimiyəm!
Könlümdəki hörmətimi,
Nifrətimi himnində yaz!
Sevinirəm, nə yaxşı ki,
Dostun çoxdur, düşmənin az...
Nə yaxşı ki, döyüş vardır,
Nə yaxşı ki, bayraq vardır!
Nə yaxşı ki, qələm vardır,
Nə yaxşı ki, varaq vardır!
Döyüşlərsiz, bayraqlarsız
Nə Vətən var, nə səadət.
Qələmlərsiz, varaqlarsız
Nə sənət var, nə şeiriyyət...

***1989.***

## MƏNİM QOLLARIM

Mən qollarımın üstdə
Bir sənət böyütmüşəm.
Ancaq deməmişəm ki,
Mən necə igidmişəm.
Neçə dost qollarını
Qoyanda öz qoynuna,
Mən məhrəm qollarımı
Dolamışam boynuna...
Köməyim dəyməyincə
Mən rahat olmamışam.
Dəydimi? Köməyimi
Ağzıma almamışam.
Körpüsüz döyüşlərdə
Gurlayanda tufanlar,
Qollarımın üstündən
Gəlib-keçib insanlar...
Ömrümün payızında
Vüsətli qollarımla,
Bir vüsal sevincinə
Həsrətli qollarımla
Qucaqlamaq istədim
Füsunkar dünyanı mən,
Gözlərimdə ucalan
Ecazkar dünyanı mən.
Qollarımı doladım
Boynuna dolaqlar tək.
Palıdın zirvəsindən
Sürüşən budaqlar tək,
Öz ana Vətənini
Soraqladı qollarım,
Doğma Azərbaycanı
Qucaqladı qollarım...

***1987.***



## GÜC

Bir Vətənim vardı... Ecazkar hüsnü
Nə şeirimə sığdı, nə də sözümə.
O boyda Vətəni ayrılıq günü
Yolda addım-addım yığdım gözümə...

Yığdım ki, gözümdən kirpiklərimlə
Köçürüm həsrətli kitablarıma.
Vətən, ünvanına dediklərimlə
Dönsün vətəndaşlıq rübablarıma.

Arazdan keçəndə məni bu taya
Göyərçin dalğalar salanda yola,
Xəbər versin deyə məndən o taya
Özləri yenə də qayıtdı dala.

Şeirimdə doğacaq bir ülkər üçün
Günəş ürəyimi mən şam elədim.
Özümə narahat bir səhər üçün
Min rahat gecəmi haram elədim.

Qardaş torpağında ürəyi açan
Gözəldən, dənizdən, çəməndən yazdım.
Özüm də bilmədim arada haçan
Mövzunu dəyişib Vətəndən yazdım.

Yer də, göz də, söz də hüsnə dolanda
Sandım ki, bir vətən üç Vətən oldu.
Özümü intizar gücdən salanda
Şair ürəyimə güc Vətən oldu!..

***1981.***

## KİMİNDİR VƏTƏN?

Vətən al-əlvan bağdır,
Gülləri insanlardır!
Vətən zəngin tarixdir,
İlləri insanlardır!
Sən də Vətən deyirsən,
Mən də Vətən deyirəm.
Mənə düşmən deyirsən,
Sənə düşmən deyirəm.
Qəribədir, bəs onda
Kimindir Vətən, kimin?
Axı danışan tarda
Öz yeri var hər simin!
Sən ki, Vətən deyəndə
Özünü düşünürsən.
Bir də hakim nəfəsli
Sözünü düşünürsən.
Sən Vətənin çiynində
Ucalmaq istəyirsən.
Gələcək günlərdən də
Bac almaq istəyirsən.
Bəli! Sən kef çəkməyə
Gəldin dünyaya ancaq.
Mənsə laqeyd həyatda
Gah dərd çəkdim, gah fəraq.
İlhamımla ovudub
Öz yaralı bağrımı,
Kimsəyə bildirmədim
Öz göynəkli ağrımı.



Yaşa doldum, mənimlə
Yaşa doldu dərdim də.
Mənə bir əziyyət yox,
Min dərs oldu dərdim də.
Döyüşlərə gedəndə
Vətənin dərd karvanı,
Ümidli sənətimlə
Mən oldum mərd sarbanı!
Bəli! Vətən yolunda
Mən bir ömür qoymuşam.
Kiçik arzusunu da
Gözlərindən duymuşam.
Mən hər Vətən deyəndə
Vətəni düşünürəm.
Ayaqların altında
Gedəni düşünürəm...
Səhər ay, axşam günəş
Dağ dalında batsa da,
Zaman tək-tək illəri
Bir-birinə qatsa da,
Vətəni gəzdirirəm
Xəyallı beynimdə mən.
İstəyirəm Vətəni
Qaldıram çiynimdə mən.
Xalqımın taleyinin
Günəşinə dönsün o.
Yansın! Əbədi yansın!
Nə solsun, nə sönsün o!
Demək ana Vətənə
Mən doğmayam, sən yadsan.
Yalnız öz ocağını
Alışdıran bir odsan.

İnqilab elə vaxtdır,
Əvvəli var, sonu yox.
Baharda da, qışda da
Axışı var, donu yox!
İndi inqilablaşır
Adət də, ənənə də.
Sonuncu qalibindir
Zəfər də, təntənə də!
Hələlik bir yarpaq da
Açmayıbsa diləyim,
Saf büllurdan yoğrulmuş
Bir qədəhdir ürəyim.
Ancaq o zaman-zaman
Tanınsa da bu adla,
Həyatda meylə deyil,
Odla doludur, odla!
Gözləyirəm mən onu
Sevinclə də dolduram.
Vətənin ağ gününün
Şərəfinə qaldıram!

***1990.***

## MƏNƏM

Gecə mışıl-mışıl yatanda dünya,
Masa arxasında çalışan mənəm!
Yuxunu yuxuya qatanda dünya,
Günəş doğanadək alışan mənəm!

Arzum qönçələnən yaşıl bahar tək...
Haçan pardaxlanar şirin nobar tək?
Görüş həsrətlisi məhrəm səyyar tək
Vətən torpağında dolaşan mənəm!



Yollar, tanış yollar torpaqlı-daşlı,
Səhəndin çalması bəyaz daş-qaşlı...
Dilləri nəğməli, gözləri yaşlı
Güllərin ətrinə bulaşan mənəm!

Dolaşıram, nə quş, nə insan yatır,
Nə istək, nə tələb, nə həycan yatır,
Ancaq hər ürəkdə bir tufan yatır,
Sabahkı döyüşlə calaşan mənəm!

Sənətkar düşünər sual üstündə,
Həqiqət yaranan xəyal üstündə...
Hardasa yubanan vüsal üstündə
Arabir taleylə dalaşan mənəm!

Vüsal! Özü şirin, yolu xətərli,
İnsan! Andı möhkəm, özü hünərli...
Sabah bağçasına vüsal xəbərli
Yorğun qaranquşlar doluşan mənəm!

***1989.***

## MƏŞHUR

Bulağam! Yolumu tutanda dövran,
Çağlayıb daha da mən gur olmuşam!
O boyda günəşi udanda dövran,
Mən qara gözlərdə ağ nur olmuşam!

Hakimlər hökmünü deyib üzümə,
Məni yaradanı söyüb üzümə,
O qədər daş-çınqıl dəyib üzümə,
Yollarda az qala çopur olmuşam!

Sadiq əsgəriyəm döyüşən yurdun,
Gözünün odunu almışam odun,
Andımla o tayda igid Firidun,
Bu tayda qəhrəman Qafur olmuşam!

Mən öyünməmişəm yazılarımla,
Qələmimdən çıxan ruzularımla...
Əzəmətlə dolu arzularımla
Arzu zirvəsində qürur olmuşam!

Ağ tüklər artdıqca başımda, dostlar,
Ağ günlər ağarır qarşımda, dostlar,
Sanmayın bu kamil yaşımda, dostlar,
Daha sadə deyil, məğrur olmuşam!

Vətənim danışır doğma dilimlə,
Dastanlar yaradır qadir əlimlə...
Bir zaman dalğalı qara telimlə,
İndi ağ saçımla məşhur olmuşam!

***1985.***

## BU YAŞDA

Böyük məclislərdə xoşbəxtdir deyə
Həmişə görsən də sən başda məni,
Baxtım güldürmədi bilmirəm niyə
Dünyada nə yazda, nə qışda məni.

Zaman çalxandıqca insan dəyişdi,
İmkan fərqləndikcə güman dəyişdi,
Hicranın qarıyla yaman dəyişdi
Həyatda ağ saç da, ağ qaş da məni...



Məni qınamasın deyirəm yetən,
Səngimiş ocaqdır gəncliyi itən...
Ömrün yaz çağında çıxdığım Vətən
Qəbul eyləyərmi bu yaşda məni?

***1989.***

## GÖYƏRTMƏK İSTƏRƏM

Bu nadinc dünyada nə şıltaqlığım,
Nə də yamanlığım olubdur mənim!
Fəqət istəyimcə nə uşaqlığım,
Nə də cavanlığım olubdur mənim.

Yolda cavanlıqdan dilək ummamış
O mənzil başına tez çatmış oldu.
Bəli! Gözlərimi açıb-yummamış
Saçlar ağ, qaşlar çal, yaş altmış oldu.

İndi qocalığa tutub üzümü
Yaşa dola-dola yol gedirəm mən.
– Uşaqlıq! Cavanlıq! – deyə özümü
Gah uşaq, gah cavan hiss edirəm mən.

Övladam! Bəs ana kəndimin nədən
Doğma havasından uda bilmirəm.
Büllur Neştərinin çağlayıb gedən
Nəğməli suyundan dada bilmirəm.

Ah! Ana kəndimi yada salınca
Ürəyim ağlayar bir uşaq kimi.
Solan arzusunun düşüb dalınca
Göyərtmək istəyər bir yarpaq kimi.

Kim bilir, bəlkə də səni bu fəraq
Xəyaldan xəyala salacaq, şair!
Görüş də, vüsal da, sevinc də ancaq
Neçə kitabında qalacaq, şair!

Hardasa taledən şikayətçi tək
Uğurlu bəxtlərə danışacaq o.
Hardasa talesiz səyahətçi tək
Uğursuz bəxtlərə qarışacaq o.

Yox! Sənət ayrılmaz ənənəsindən,
Əzəldən düşmənəm ələmlə özüm.
Sabah öz arzumun təntənəsindən
Özüm yazacağam qələmlə, özüm!

***1984.***





## ƏBƏDİ SIĞINACAQ

Sanma ayağımız altında torpaq
Sakit sərilmişdir iri köynək tək.
Yox! Qardaş, sən elə düşünmə nahaq,
Torpaq da döyünür böyük ürək tək.

Bəli! Ürəyidir torpaq dünyanın,
Yollar, uzun yollar damarlarıdır.
Ətirli küləklər ancaq dünyanın
Nəvazişlə dolu tumarlarıdır.

Torpaq döyünməsə yaşayar məgər,
Həyat nəğməsini kim, nədə çalar?
O nemət eşqiylə dolmasa əgər,
Dünya da ehtiyac içində qalar.

Biz haçan güvəndik ulu torpağa,
O bizə pay verdi ərmağan kimi.
Sonra da ətəyi dolu torpağa
İnandıq günəşə inanan kimi.

Bahar təravətli Vətənimizi
Kim deyə bilər ki, ayaqla ölçdük.
Nadir təbiətli Vətənimizi
Bu boyda dünyada torpaqla ölçdük.

Düzdür, ən sevimli adamımızı
Əlimizdən alır torpaq dünyada.
Yenə itirmirik inamımızı,
Ona sığınırıq ancaq dünyada.

***1989.***



## BU DÜNYA

Od-alovlu yollarında
Zərinə bax bu dünyanın!
Hüsnünə yox, qollarında
Girinə bax bu dünyanın!

Ömür yaydır, günlər oxdur,
Dərdli, yoxsa dərdsiz çoxdur?
Biri acdır, biri toxdur,
Sirrinə bax bu dünyanın!

Ot çəməndə, quş bərədə
İnciməsin bir kərə də!
Qar zirvədə, gül dərədə,
Yerinə bax bu dünyanın!

Tale ordu, insan yalqız,
Utanır bu dünya yalnız...
Sifətində ulduz-ulduz
Tərinə bax bu dünyanın!

Dincəlməyir axı nədən
Yorğun ürək, yorğun bədən?
Dərd karvanı çəkib gedən
Nərinə bax bu dünyanın!

Səhra odlu, çeşmə sulu...
Kim keçəcək uzun yolu?
Hər misrası ümid dolu
Şeirinə bax bu dünyanın!

***1988.***

## GEDİR

Dünya məclis ünvanıdır,
Səadətdən söhbət gedir.
Dünya döyüş meydanıdır,
Vuruşlara millət gedir.

Öz zərbindən sınsa qılınc,
Öz odunda yansa qılınc,
Öz qınına qonsa qılınc,
Sanma əldən fürsət gedir.

Baxanda min göz əlinə,
Yapışsa da köz əlinə,
Qələm alıb öz əlinə
Döyüşlərə sənət gedir.

Qatlaşırsan min zəhmətə,
Yetişəsən bir niyyətə...
Bir arzudan bir möhlətə
Neçə-neçə minnət gedir.

Sənət ömür kitabıdır,
Şeir könül rübabıdır,
Həyat açıq bir qapıdır,
Şöhrət gəlir, səhhət gedir.

Sən ömürü saxlasan da,
Bu dünyaya bağlasan da,
Hər gününü yoxlasan da,
Ömür səndən xəlvət gedir.



Getsən özgə torpağına,
Qayıtsan öz oylağına,
Dönüb pambıq yumağına
Ağ saçında qürbət gedir.

Hamı sənə baxıb keçir,
Dönə-dönə baxıb keçir,
Dinə-dinə baxıb keçir,
Gözlərində heyrət gedir!..

***1989.***

## HƏYAT HAQQINDA

Kim sevinməz, kim, deyin,
Hünər himmət olanda?
Qarşısında baş əyin
Əməl nemət olanda!

Məğrur yaşayır insan,
Sınaq meydanı – cahan...
Boğazdan keçməz, inan,
Çörək minnət olanda.

Şəhər gecə dincələr,
Küçə-küçə dincələr.
Ürək necə dincələr
Dildə qeybət olanda?

Gül gülə uyğunlaşar,
Yoxsa ki, solğunlaşar.
Qərarı qanunlaşar
Millət vəhdət olanda.

Azadlıq bayraq olar,
Döyüşə növraq olar,
Bir xalqa dayaq olar
Dağ da qeyrət olanda.

Yumruğunu bərk sıxar,
Bütün sədləri yıxar.
Alovdan diri çıxar
Qürur cürət olanda.

Yolları döysə sazaq,
Soyusa yaxın-uzaq,
Nəyə gərək od-ocaq
İsti ülfət olanda?

Kimi dindirsən əgər,
Hörmətdən dastan deyər.
Bir xəzinəyə dəyər
Qayğı hörmət olanda.

Dodaq da zinətlənər,
Varaq da zinətlənər,
Otaq da zinətlənər
Kəlam hikmət olanda.

Sənətkar ürəklənər,
Ocağı ətəklənər,
Arzusu çiçəklənər
Əsər şöhrət olanda.

Vətənə xidmət olar,
Millətə sərvət olar,
Tarixə şöhrət olar
Sənət heyrət olanda.



Meh öpəndə üzünü,
Yerə dikər gözünü,
Asta deyər sözünü
Qızda ismət olanda.

Təbəssüm yaşa dönər,
Çırpınan quşa dönər!
Yalqız yox, qoşa dönər
Gözdə həsrət olanda.

İnsan bayatılaşar,
Dövran bayatılaşar,
Ünvan bayatılaşar
Vətən qürbət olanda.

***1990.***

## QÜRBƏT BAYATILARI

*Qərbi Avropada yaşayan*
*Cənubi azərbaycanlıların dilindən.*

Həsrətə salma məni,
Xiffətə salma məni,
Salsan da zindana sal,
Qürbətə salma məni!

Mənsiz də qalar Vətən,
Yaşa da dolar Vətən,
Qürbət notlu tarında
Sarı sim olar Vətən.

Sanma ki, naşıyam mən,
Zirvənin başıyam mən!
Kim qürbətdə ağlasa,
Gözünün yaşıyam mən.

Bayramdır nemətli gün,
Sazlı gün, söhbətli gün...
Vətəndəki bir günə
Dəyməz min qürbətli gün.

Yolu sərhəd qısaldar,
Səbri həsrət qısaldar,
Nə qədər uzun olsa,
Dili qürbət qısaldar.

Qovaram məlalı da,
Gözlərəm vüsalı da!
Həsrətin möhürüdür
Qürbətin medalı da.

Ömrü dallayar qərib,
Vaxtsız çallayar qərib.
Vətənə durnalarla
Salam yollayar qərib.

Vətən dindirər məni,
Oda döndərər məni.
Yanar günəş olsam da,
Qürbət söndürər məni.

Girsə də oda Vətən,
Getməsin bada Vətən!
Qürbət yaxşı olsaydı
Düşməzdi yada Vətən.



Yol uzun, hava sazaq,
Vətən alışan ocaq...
Qəribi qürbətdə də
Vətən isidər ancaq.

Qəfəs filə qürbətdir,
Güldan gülə qürbətdir,
Dil açıb can desə də
Qürbət elə qürbətdir.

Ünvanlar varaqlanar,
Qəriblər soraqlanar...
Qürbətdə ölənlərin
Qəbri də ayaqlanar.

***1988.***

## BAYATILAR

Yandırır dağı-daşı
Haçandır bayatılar.
Mini keçsə də yaşı
Cavandır bayatılar.

Duyğulardan yoğrulmuş,
Ürəklərdə doğulmuş,
Sınaqlarda doğrulmuş
Peymandır bayatılar.

Əlvan fəsillər görən,
Doğma nəsillər görən,
Sonsuz mənzillər görən
Karvandır bayatılar.

Yollarda daşa dönən,
Gözlərdə yaşa dönən,
Yalqız yox, qoşa dönən
Hicrandır bayatılar.

Çağlayır bulaq-bulaq,
Göyərir yarpaq-yarpaq...
Həm yaxın, həm də uzaq
Ünvandır bayatılar.

Qürbətə düşənlərə,
Həsrətə düşənlərə,
Xiffətə düşənlərə
Mehmandır bayatılar.

Zirvələrə qısılan,
Şimşəklərlə yazılan,
Xəyallardan asılan
Dumandır bayatılar.

Mərddən daha da mərddir,
Gah məlhəm, gah da dərddir.
Sanma tək bircə bənddir,
Dastandır bayatılar.

Sanma gəmi büdrədən
Ümman olmaz qətrədən.
Zirvələri titrədən
Tufandır bayatılar.

Özü tarixdən ulu,
Yolu hikmətin yolu...
Ürəyi sözlə dolu
Ozandır bayatılar.



Köməyi talanlara,
Munissiz qalanlara,
Boşalıb-dolanlara
Həyandır bayatılar.

Gah susan, gah çağlayan,
Gah gülən, gah ağlayan,
Gah açan, gah bağlayan
İnsandır bayatılar.

***1987.***

## EY SÖZ!

Sanki söz də bir insandır,
Öz dili, öz ürəyi var.
Sanki söz də bir bağbandır,
Öz bağı, öz çiçəyi var.

Söz var, atdan saldırar da,
Söz var, ata mindirər də.
Söz var, dağa qaldırar da,
Söz var, dağdan endirər də.

Ey söz! Sənə harda, haçan
Ustadlarım dürr deyibdir?
Hikmət yayan, işıq saçan
Söz kəşfinə sirr deyibdir.

Tarix deyir mənim ulu
Babalarım mətin olub...
Bəs nədəndir mənə dolu
Bir söz tapmaq çətin olub?

Düzdür, yenə insan dürrü
Tərdə tapır zəhmətilə.
Fəqət Ayda yatan sirri
Oyandırır cürətilə.

Gərək sənin ixtiyarın
Özündə yox, məndə ola.
Vay o gündən sənətkarın
İxtiyarı səndə ola.

Yox! Yox! Gərək arxamda sən
Dayananda cərgə-cərgə,
Mən aparam yollarda, mən,
Qatarını çəkə-çəkə...

*1988.*

## QƏLƏM HEYKƏLİ

Qələm! Mənim ömrümü
Zaman yonduqca yondu.
Əvəzində saçıma
Dənlər qonduqca qondu.
Ancaq məndən bir dəfə
Üzr istəmədi zaman.
Beləcə keçib getdi
Günlərim karvan-karvan...
Səninsə miz dalında
Ömrünü mən yondum, mən.
Sən məğrur dayandıqca
Heyrətimdən dondum mən.



Qələm, sən bircə dəfə
İnciməsən də məndən,
Mən min dəfə qarşında
Üzr istəyirəm səndən.
Yox! Üzr azdır, mən səni
Dərindən duymalıyam.
Sənə odlu ilhamdan
Heykəl də qoymalıyam.
Dünyada mən coşğun çay,
Sən məhrəm dalğam oldun.
Azmanlar arasında
Möhtəşəm arxam oldun.
Bəzən sevgilimə də
Demədiyim bir sözü,
Mən alışa-alışa
Tək sənə dedim, düzü!
Bilinmir öz şöhrətim
Qalacaq-qalmayacaq?
Hardasa bir heykəlim
Olacaq-olmayacaq?
Sənin heykəlinisə
Mən indi qoymalıyam.
Döyüş nəğmələrini
Dünyaya yaymalıyam.
Axı mən döyüşəndə
Doğma torpaqlar üstdə,
Sən də döyüşə girdin
Bəyaz varaqlar üstdə.
Sənin uğurlarını
Bir də sayacağam mən.

Heykəlini varaqlar
Üstdə qoyacağam mən.
Mərd döyüşçüyə bir yox,
Min heykəl də halaldır.
O hələ neçə-neçə
Nəsilə də timsaldır.
Bəli! Mərd döyüşçüsü
Olmayan məmləkətdə,
Yalnız bir rəvayətə
Bənzəyir səadət də...

***1991.***

## AĞ RƏNG

Mən də qara saçlara
Söz qoşan nəğməkaram.
Ancaq saçıma qonan
Ağ rəngə minnətdaram.
O işıq çələngidir
Mənim məğrur başımda.
Halələri haçandır
Parıldayır qaşımda.
Ağ deyilmi fikrimi
Şeirə döndərən varaq?
Həkim iş otağında
Ağ xalat geyir ancaq.
Bəlkə dağ dalğalarla
Axıb gedən həyatda,
Fərəhi qəm, qəmisə
Fərəh edən həyatda,



O dünyaya da təmiz
Getsin deyə həyanı,
İnsan qaraya deyil,
Ağa bükür insanı.
Qara ömürlülər də
Ağa bükülür, ağa!
Gözlər də dan yerində
Ağa dikilir, ağa!
Tək bir mənada ağı
Bağışlaya bilmirəm.
Xətri əziz olsa da
Alqışlaya bilmirəm.
O nədir? Bir bayraqda
Təslim rəngi olması.
Sınıq qanadlarını
Asta-asta çalması.
Ağ rəng qarlı zirvədir,
Aciz qalmasın gərək!
Bəli! Qara geysə də,
Təslim olmasın gərək!

***1988.***

## GECİKƏNDƏ

Elə qızarar ki, sanki köz olar
Yazın sərgisinə gül gecikəndə.
Yaylaq intizarla dolu göz olar
Dağlara köçməyə el gecikəndə.

Ulduzlar qalsalar bulud içində,
Yanarlar sabahkı umud içində...
Tarix də darıxar sükut içində
Zamanın yolunda il gecikəndə.

Haçan boz buludlar tülləşər, inan,
Zirvə də şimşəklə əlləşər, inan.
Aran da, dəniz də gölləşər, inan,
Dağlardan atlanan sel gecikəndə.

Sənətdə nə möhlət, nə qılıq, nə naz,
Gərək məqamında dinsin telli saz!
Aşıq şən olsa da, tutular bir az
Sözünü deməyə tel gecikəndə.

Necə qurulmuşdur simi kamanın?
Fərəhindən çoxdur qəmi kamanın.
Bir alova dönər bəmi kamanın,
Deyər fəryad mənəm zil gecikəndə.

Həyansız qalanda təklənər ürək,
Kiçik hənirtidən şəklənər ürək.
Sevda nisgiliylə yüklənər ürək
Eşqini açmağa dil gecikəndə.

İlhamsız nə şeir, nə nəğmə olar,
Boz çınqıl ilhamla ağ düymə olar.
Bəlkə hər damlası bir çeşmə olar
Gözləri silməyə əl gecikəndə.



İnsan yetim qalan uşağa dönər,
Özü yumrulanıb yumağa dönər,
Ürəyi köksündə ocağa dönər
Vətənindən əsən yel gecikəndə.

*1990.*

## NEYLƏSİN?

Ocaq, sönmüş ocaq ətəklənmirsə,
Odun yanmağına güman neyləsin?
Arzu zəfərdə də çiçəklənmirsə,
Uğrunda baş qoyan qurban neyləsin?

Elə dəhşətlidir təklik təlaşı,
Dağlar da yanaşı durur, yanaşı.
Mehriban ülfətli iki sirdaşı
İnsan ayırırsa, hicran neyləsin?

Möhkəm qala sanar pələng qayanı,
Torpağın başında çələng qayanı.
Beş addımlıq yerdən nəhəng qayanı
Göz görə bilmirsə, duman neyləsin?

Zaman bircə-bircə doğur fərmanı,
Tarix varaq-varaq yığır fərmanı,
Tale haqqındakı ağır fərmanı
Hökmdar verirsə, yazan neyləsin?

Mənzildən-mənzilə keçən karvanın,
Hər bulaq suyundan içən karvanın,
Tufandan yapıncı biçən karvanın
Yolu yoxuşdursa, sarban neyləsin?

Üzünə dəydikcə payız sazağı,
Yavaş-yavaş solur gülün yanağı.
Ağaca qısılan sarı yarpağı
Vədə qoparırsa, xəzan neyləsin?

İtən şey yandırır, qiymətlidirsə,
Uçan quş vurulmaz, sürətlidirsə,
Ovçu, zalım ovçu hiddətlidirsə,
Dalbadal vaz atan ceyran neyləsin?

Vətən başdan-başa ünsiyyətdirsə,
Yazı da, qışı da təravətdirsə,
Elə özü boyda səadətdirsə,
Məsud-məsud baxan heyran neyləsin?

*1988.*

## ÜRƏKDİR!

Yazırsan şairə yaş gərək deyil,
Saçı ağarsa da, əsas ürəkdir!
Zənnimcə dediyin hər ürək deyil,
Mübariz, xeyirxah, həssas ürəkdir!

Tale daxma-daxma ayaqlananda,
Torpaq səngər-səngər varaqlananda,
Qələm də, dəftər də yaraqlananda,
İnqilab, təlatüm, qisas ürəkdir!

Coşğun çay qılıncı deyil fərağın,
Altında paslana qarın, sazağın.
Yox! Yox! Vüsal deyə qədim torpağın
Köksündə çırpınan Araz ürəkdir!



Bəli! Ayrılıqdan qorx da, üşün də,
Qardaş görüşünü duy da, düşün də!
Ana yurdumuzun doğma döşündə
Bakı, Təbriz, Gəncə, Salmas ürəkdir!

Suyun aynasını qırsa da qollar,
Mirvari ünvanı sorsa da qollar,
Dağ boyda dalğalar yarsa da qollar,
Ümmanda ən mahir qəvvas ürəkdir!

Özünü paltarla öysə də adam,
Əyninə bez köynək geysə də adam,
Gözə min görkəmdə dəysə də adam,
İpək, tirmə, xara, atlas ürəkdir!

Mavi göy nə qədər əngin olsa da,
Şimşək əsəbləri gərgin olsa da,
Qızıl ulduzlarla zəngin olsa da,
Yer kürəsi boyda almas ürəkdir!

Tarixin daşlaşan sənələrində,
Aranın-yaylağın binələrində,
Odlu qoşmaların sinələrində
Qurbani, Ələsgər, Abbas ürəkdir!

Sənətin növrağı, ömrün büsatı,
Oxşama, şikəstə, layla, bayatı,
"Çahargah", "Humayun", "Dilkəş", "Heyratı",
"Rahab", "Mənsuriyyə", "Şahnaz" ürəkdir!

Dağları-daşları dilə gətirən,
Bülbülü tardakı telə gətirən,
Soyuq duyğulara şölə gətirən
Hünər, ilham, sənət, təmas ürəkdir!

Sadiqəm kəsdiyim çörəyə-duza,
Muğamatlı tara, qoşmalı saza,
Atadan oğula, anadan qıza
Dünyada ən əziz miras ürəkdir!

Saflığa, düzlüyə, qüdsiyyətə də,
Dostluğa, mərdliyə, dəyanətə də,
Sevgiyə, qayğıya, sədaqətə də
Doğru yol göstərən kompas ürəkdir!

***1979.***

## XATİRƏLƏR

Xatirələr arxada
Qaynadıqca bulaq tək,
Xatirələr yanına
Qayıdıram uşaq tək.
Xatirələr içində
Dayaz da var, dərin də.
Qısa da var, uzun da,
Acı da var, şirin də!
Bir-birinə qısılmış
Bacı xatirələr də!
Haçansa unudulmuş
Acı xatirələr də –



Nədənsə şirinləşib
Sən məni də yaz deyir.
Kövrək dodaqlarında
Payıza da yaz deyir.
Sən də yazırsan... İndi
Ürək daha kövrəkdir.
Acı xatirələr də
Canlı həyat deməkdir.
Dünyada xatirələr
Munisdən munis olur,
Doğmadan doğma olur,
Əzizdən əziz olur.
Demə həyatla dolu
Xatirə yaxşı şeydir.
O bəzən ilhamlı tar,
Bəzən yanıqlı neydir.
Ancaq cığırı otlu
Xatirə ünvanında,
Gözlərində yaş donan
Xatirə dumanında,
Günəş yerinə yansan,
Elə yan ki, sönmə sən!
Xatirə yaza-yaza
Xatirəyə dönmə sən!
Mən ki, xatirələri
Varaqlayıb dastan tək,
Qayğıyla saxlayıram
Güllə dolu güldan tək!
O gül dolu güldandan
Bircə gül düşsə əgər,
Ömrümün bir baharı
Tarixdə itməz məgər?

Xatirələr doğduqca
Döyüş alovlu çəndə,
Təzədən yaşayıram
Xatirələrlə mən də!
İnsan, dəyərli insan
Dünyada qalmayanda,
Yolunu neçə-neçə
Ünvana salmayanda,
Dərin hörmətlə dolu
Xatirələr ülfətdir.
Ancaq sağ ola-ola
Unudulmaq dəhşətdir.

*1994.*

## YANMAQ DA VAR, YANMAQ DA...

Yanan şamın başına çox dolandı pərvanə,
Odu sarı çətirli çiçək sandı pərvanə.
O çiçəklə oynamaq istədi otaqda da,
Axı, çox oynamışdı çiçəklə yaylaqda da.
Birdən ərimiş mumun caynağına düşdü o,
Sonra odun içində yana-yana bişdi o.
Dedi, sən nə zalımsan asta-asta yanan şam,
Günəş təbəssümüylə mürüvvəti danan şam!
Bu ağır ittihamdan bir ev riqqətə gəldi.
Şam necə? Vaysındımı? Yaman dəhşətə gəldi.
Dedi pərvanə, sən ki yuma-yuma gözünü,
Bir anlıq nəşə üçün kül elədin özünü.



Mən aydın baxışlara zülmət çökməsin deyə,
Qadir insan işıqdan korluq çəkməsin deyə,
Dünyanın əzabını çəkə-çəkə yanıram,
Göz yaşımı yaxama tökə-tökə yanıram.
Şölələrim qalxdıqca bir boyda, bir biçimdə,
Mən öz gileyimi də əridirəm içimdə...
Unutma ki, dünyada yanmaq da var, yanmaq da,
Yanmağı cəfakeşlik sanmaq da var, sanmaq da...

*1989.*

## "YANIQ KƏRƏMİ"

Kim deyir döyüşə yollansan sabah,
Simləri zağlama, "Yanıq Kərəmi"?
Bəs dinclikdə necə? Günahdı vallah,
Ürəyi dağlama, "Yanıq Kərəmi"!

Özüm də, sözüm də sənə sadağa,
Dönüb sinə üstdə yanan ocağa,
Xəstə bir tərəfə, başdan-ayağa
Od vurma sağlama, "Yanıq Kərəmi"!

Məni çox ağlatmış onsuz da zaman,
Örtüklü dolanır donsuz da zaman,
Sonlu da zamandır, sonsuz da zaman,
Sus! Sən də ağlama, "Yanıq Kərəmi"!

Hanı rübabının şənlik cəh-cəhi?
Qəm qəmi gətirər, fərəh fərəhi,
Fərəh üstdə dolur sağlıq qədəhi,
Qəm üstdə çağlama, "Yanıq Kərəmi"!

Şimşəkli bir bulud ola-ola sən,
Boşala-boşala, dola-dola sən,
Bəşəri qəmlərə sala-sala sən,
Özün də dığlama, "Yanıq Kərəmi"!

Cəsarət qatsa da qorxaq sözünə,
Nahaq baxa bilməz haqqın gözünə.
Sən uğurla gələn günün üzünə
Qapını bağlama, "Yanıq Kərəmi"!

***1989.***

## "YETİM SEGAH"IM

Sən elə gurla ki, sən elə çax ki,
Şimşək yalan olsun, "Yetim segah"ım!
Sən elə yandır ki, sən elə yax ki,
Mən də alovunda itim, segahım!

Nədən yoğrulubsan sən yoğrulanda?
Bəlkə sən dinibsən mən doğulanda?
Gözümün yaşında Ay boğulanda
Mən körpə bir ulduz idim, segahım!

Bilmədim qayğısız cavanlıq nədir,
Yerlərə, göylərə heyranlıq nədir,
Duydum yaxşılıq nə, yamanlıq nədir,
Mən daim yaxşılıq dedim, segahım!

Hələ bir mənzildə axşamlamamış,
Dinclik təranəmi tamamlamamış,
Yolumdakı güllər vağamlamamış,
Döyüşdən-döyüşə getdim, segahım!



Sən də sızıldama nalələr kimi,
Göz yaşını qurut jalələr kimi...
Mən günəşlə dolu lalələr kimi
Səhəndin döşündə bitim, segahım!

Mən Təbrizə dikib yorğun gözümü,
Yanğılı həsrətlə deyim sözümü,
Sən həzin-həzin din! Mən də üzümü
Vətənin üzünə sürtüm, segahım!

***1988.***

## ŞƏXSİYYƏT

Şəxsiyyət kimdir? Adi
Adamlardan seçilən,
Ünvanına hörmətlə
Müqəddəs and içilən
Bir adamdır! Nəfəsi
Dəyən yer abadlaşar,
Məhəbbət şirinləşər,
Qətiyyət poladlaşar.
Şəxsiyyətin baxışı
Hikmət dolu ovsundur.
Ağzından çıxan sözlər
Yazılmamış qanundur.
Şəxsiyyət heyrət dolu
Həyatda bir dühadır.
Şəxsiyyət vüsətiylə
Dünyada bir dünyadır.

Şəxsiyyət məmləkətdə
Vətəndaşlıq postudur.
Yarımçığın düşməni,
Bütövlüyün dostudur.
Şəxsiyyət bir ölkənin
Mənəvi sərvətidir.
Şəxsiyyət bir millətin
Vicdanı, qeyrətidir.
Şəxsiyyət kimdir? Dövrün
Hünəri, iradəsi!
Təpədən-dırnağadək
Ləyaqət abidəsi!
Şəxsiyyət zirvələrə
Daim öndə gedəndə,
Başının üzərində
Bayraqlaşır Vətən də...

***1990.***





## QƏRİB AXŞAMLAR

Ulduzlar yananda göyün üzündə
Almasla bəzənib qərib axşamlar.
Yox! Sanki yer qalıb, ərşin özündə
Xatirə gülləri sərib axşamlar.

Güllər həsrətlərin çətirləridir,
Yanğı dolu dastan sətirləridir,
İyləri məhəbbət ətirləridir,
Sevənlər sinəmdən dərib axşamlar.

Güllər itirdiyim torpaqlar üstdə,
Qayalar, çəmənlər, bulaqlar üstdə,
Süd qoxusu gələn qundaqlar üstdə
Məhrəm qanadını gərib axşamlar.

Xatirələr susub şəkillər kimi,
Sakit, əlvan, zəngin əklillər kimi,
Yox! Səlahiyyətli vəkillər kimi
Sözü o güllərə verib axşamlar.

Güllərin dililə dinən günlərim,
Zirvədən ətəyə enən günlərim,
Tamam parlamamış sönən günlərim
Narahat yuxuma girib axşamlar.

Ancaq yuxuda da təskinim olub,
İradəm, dözümüm, təmkinim olub,
Dünyada zəngindən zənginim olub
Mənim müdrik nənəm Qərib, axşamlar. ***1987.***



## MƏNİM MÜDRİK NƏNƏM

*Mənim müdrik nənəm! Ünsiyyət tacı!*
*İndi ki, açıram söhbəti səndən,*
*Dilimin gah şirin, gah da ki, acı*
*Sözü məndən olsun, hikməti səndən.*

Nənəmin dirriyi saz olanda da
Sanki yük tutardı dili duadan.
Nənəmin ruzisi az olanda da
Deyərdi allahın evi abadan!

Kənd nəydi? Nemətlə dolu bir aləm,
Nənəmsə nə çolaq, nə kor deyildi.
Mənim müdrik nənəm, zəhmətkeş nənəm
Şükürnemət idi, nankor deyildi.

O tanınmasa da söz dünyasında,
Zəhməti yerdəki allah sanardı.
Bəli! Tənbəlliyi öz dünyasında
Hər günahdan böyük günah sanardı.

Axı mərd insanlar möcüzəni də
Zəhmətlə yaradır allahlar kimi.
Keçib neçə-neçə əndazəni də
Yenə nəsə gəzir səyyahlar kimi.

Nə zaman işimi dövran əyərdi
Bütün müşküllərə dözərdim naçar.
Nənəmsə darıxma bala, deyərdi
Bir yandan bağlayan, bir yandan açar.

Həssaslar ovçunun gözü kimidir,
Həm qarşıya baxar, həm də geriyə.
Laqeydlər erməni bezi kimidir,
Nə ölüyə yarar, nə də diriyə.

İnsanın belini nə əyir əysin,
Taleyin şələsi əyməsin ancaq.
İnsanın başına nə dəyir dəysin,
Həyatın çanağı dəyməsin ancaq.

Eh, həyatın ağır qapazı təki
Alçalda bilməmiş heç nə insanı.
Yox! Yox! Ən müqəddəs murazı təki
Həyat əzizləsin yenə insanı.

Uğur laqeydliklə uzanılarsa
Qismət yoxa çıxan macal sayılmaz.
Uğur sırtıqlıqla qazanılarsa
Məğrurlar içində halal sayılmaz.

Həyat məktəbindən keçməyən insan
Müdrikləşə bilməz imam olsa da.
Kiçik arzuya da o çatmaz, inan,
Təpədən-dırnağa inam olsa da.

Həyat ünsiyyətdir! Dilsiz heyvanlar
İyləşə-iyləşə məhrəmləşirlər.
Ürəyi sözlərlə dolu insanlar
Dilləşə-dilləşə məhrəmləşirlər.

Mən də gur dənizə axan çay kimi
Təkliyin qınından çıxmaq istədim.
Buludu laybalay yaran Ay kimi
Dünyaya yüksəkdən baxmaq istədim.



Həyatı ikicə gözümə yığıb
Nənəmlə nə keçdim? Zəhmət məktəbi!
Hikməti tükənməz sözümə yığıb
Qələmlə nə keçdim? Sənət məktəbi!

Sonra öz hisslərim, öz sözlərimlə
Nə qədər dost tapdım, nə qədər tanış!
Bəli! Oxlardan da düz sözlərimlə
Evdə əsər oldum, salonda alqış.

***1987.***

## NƏNƏMİN NAĞILI

Arxası Savalanlı
Kəndimizdə uşaqdım.
Döyüşdən, qələbədən,
Ayrılıqdan uzaqdım.
Mən görərdim gözəldir
Qarlı dağ, güllü çəmən.
Bilməzdim nə deməkdir
Ana yurd, doğma Vətən...
Gecələr yer-göy susar,
Aysa mürgü döyərdi.
Nənəm, mehriban nənəm
Mənə nağıl deyərdi.
Bir gecə də bir quşdan
Söhbət açdı o mənə.
İllər keçmiş, yadımdan
Çıxmamışdır o yenə.

Dedi: bir dəfə ovçu
Bir quşu tora saldı.
Ovçunun evində o
Qızıl qəfəsdə qaldı.
Quşun yaşamağıyçın
Hər tədbir gördü ovçu.
Dənini-suyunu da
Vaxtında verdi ovçu.
Ancaq quş nə su içdi,
Nə də ki, dən dənlədi.
O – Vətən! – deyə-deyə
Səhər-axşam inlədi...
Ovçu gözlədi... Quşsa
Oxumadı bir ağız.
Qızıl qəfəs içində
Susdu, çırpındı yalnız.
Zaman keçdi...
          Ovçunun
Səbri tükəndi tamam.
Vətən sözü eşitdi
O quşdan səhər-axşam.
Ovçu gördü çəkdiyi
Zəhmət daha hədərdir.
Düşündü görən quşun
Vətəni nə təhərdir?
Bir səhər azad etdi
Quşu qızıl qəfəsdən.
Heyrət dolu ürəyi
Düşməmişdi həvəsdən.



Ovçu baxdıqca baxdı
Azad quşun dalınca.
O buludsuz havada
Nöqtə qədər qalınca.
Quşsa uçdu...
          Özünü
Ora-bura toxudu.
Sonra da yana-yana
Bircə ağız oxudu.
O elə oxudu ki,
Qayalar silkələndi.
Ovçuya elə gəldi
Dəryalar silkələndi.
Günəş al bayrağını
Dağlar üstə saxladı.
Sular həyat nəğməsi
Deyə-deyə çağladı...
Dağlarda, dərələrdə
Güllər şehlə yuyuldu.
Yaz nəfəsli havadan
Vətən ətri duyuldu.
Gözlərinin yaşını
Sanki qurutdu çəmən.
Üfüqdən üfüqədək
Vətən canlandı, Vətən!
Quş neçə dövrə vurdu
Kəsdi öz nəğməsini.
Sonra kola toxudu
Yanıqlı sinəsini.

Axan qanı qızartdı
Qaratikan kolunu.
Quş sanki öz qanıyla
İşıqlatdı yolunu...
O təngiyə-təngiyə
– Vətən! – deyib yıxıldı,
Nəhayət öldü...
Başı
Sinəsinə sıxıldı.
Mən böyüdüm. Andıqca
Uşaqlıq müddətini,
Dərk elədim nənəmin
Quş haqda söhbətini.
Alnıma düşdükcə xət,
Saçıma qonduqca dən,
Daha möhkəm bağlandım
Doğma Vətənimə mən.
Bir quş kola vuranda
Özünü – Vətən! – deyə,
Mən öz gözəl yurdumu
Niyə sevməyim, niyə?
O böyük, o mehriban...
Mən isə ona aşiq!
Gərək olsa, yolunda
Mən o quşdan da artıq,
Döyüşlərin alovlu
Sularından içərəm,
Təkcə arzumdan deyil,
Canımdan da keçərəm...

***1987.***



## NƏNƏM NƏ DEYƏRDİ

*Nənəm Qəribin xatirəsinə*

Əgər nənə özü şirin olmasa
Əziz nəvəsinə noğul deyərmi?
Kamal dünyasında yaşa dolmasa
Hikmətdən yoğrulmuş nağıl deyərmi?

Ürək iddia yox, məna diləyər,
Min lovğa alimə dəyərdi nənəm.
Adam öz-özünü gülünc eləyər,
Yoxsa xalq eləməz, deyərdi nənəm.

Nənəm nə deyərdi? Bir qışın suyu,
Bir də qurban payı sinir canıma.
Onlar dolaşdıqca mənzillər boyu,
Sanki arxayınlıq hopur qanıma.

Bilirəm hamının suyu sərindir,
Hamı ət yeyəcək öz mənzilində.
Axı yaxşı keçən an da şirindir,
Gül kolunda gülər, üz mənzilində.

Sazında not dolu tellər dinməyən
Aşıq, mahir aşıq bomboş çanaqdır.
Üstünə ağaran izlər enməyən
Bulaq, büllur bulaq bədbəxt bulaqdır.

Ağ saçlı adama peyğəmbər təki
Demə düşübdür o, qocalıbdır o.
Bəlkə də qanadlı səməndər təki
Ömrün zirvəsinə ucalıbdır o.

Nənəm nə deyərdi? Açıq qalsa da,
Qapını döyməmiş otağa keçmə!
Nə qədər təcili işin olsa da,
Axsayan adamdan qabağa keçmə!

Qaşları çatılan çopur adamın
Yanında şirmayı üzdən danışma!
Gözləri tutulan məğrur adamın
Yanında alıcı gözdən danışma!

Baxışı kölgəli bir dustağın da
Günahını demə! Xəcalət çəkər.
Taleyin yazdığı bir varağın da
Mir ağır yükünü şəxsiyyət çəkər.

Kimdir azadlığın carçısı insan?
Bütün yer üzünün mərd vətəndaşı!
Bəs niyə önünü kəsir hər zaman
Bir sərhəd dirəyi, bir sərhəd daşı?

Kim bilir dünyada nə qədər karvan
Səfərə çıxmışdır zillət içində.
Dolaşıq yollarda ən müdrik sarban
Həqiqət olmuşdur xilqət içində.

Bəli! Tək bu gün yox, hələ sabah da
Nələr baş verəcək? Həqiqət deyib.
Yaxında, uzaqda, elə sabah da
Karvan nə görəcək? Həqiqət deyib.



Heyrandım savadsız bir "müəllim"in
Nəzakətlə dolu qətiyyətinə!
Gözləri durbinsiz bir "münəccim"in
Duyğular kəşf edən məharətinə.

İndi seyrəkləşən nəzakətlər də
Keçmişdən qalıbdır qənimət kimi.
Dünyaya sığmayan qətiyyətlər də
Yaman cılızlaşıb təbiət kimi.

Yaxşı ki, nənəmin nəsihətləri
Müqəddəs and olub dodaqlarımda.
İrili-xırdalı məsləhətləri
Hələ də səslənir qulaqlarımda...

***1988.***

## AĞBİRÇƏK MƏSLƏHƏTİ

Dildən söhbət düşəndə
Nənəm deyərdi mənə:
– "Qulaq as, ürəyimin
Sözünü deyim sənə.
Adam var ki, həyatda
Ömrü boyu bal yeyir.
Bəs danışıqda necə?
Can deyənə çor deyir.
O özü bal yesə də
Dili zəhərə dönür.
Şirin adəti isə
Acı şakərə dönür.

Yox! Gərək dil də şirin
Ünsiyyətdən doğula.
Mehriban təbiətli
Məhəbbətdən doğula.
Adicə bir sözü də
Ecazkar şərbət ola!
O insana həm zinət,
Həm də ki, sərvət ola!
Sanma şirin dil yalnız
Təbrik üçün gərəkdir.
Darda çırpınana da
Təsəllidir, köməkdir.
Çalış, sən də həmişə
Şirin elə dilini.
Ətirli gülə döndər
Gülə-gülə dilini...”
Bu təzadlı dünyadan
Nənəm köçüb haçandır.
Sinəm xatirələrlə
Zənginləşən dastandır.
Ancaq mənim ülfətə
Yaxşı olsa da meylim,
Dilim bir o qədər də
Şirin olmayıb, neylim?
İslanmaq istəməyib
Yaltaqlıq yağışında.
Səmimiyyət axtarıb
Ülfətin baxışında.
Mənim dilimin sözü
Düz olub özü kimi.
Bəli! Buyruq gözləyən
Qulluqçu üzü kimi



Ağzımda dönməyibdir
O yana, bu yana o.
Həqiqəti deyibdir
Daim yana-yana o.

***1988.***

## ALMA PAYI

Nənəm mənə deyərdi
Hansı qapıdan girsən,
Ziyafət süfrəsində
Yalnız on alma görsən,
Böyüklərin içində
Kiçiyini götür sən.
Böyüyünü böyüyün
Qabağına ötür sən.
Qürur da, nəzakət də
Babalardan qalmadır.
Bir də nə böyük, kiçik,
Alma elə almadır.
Bəli! Kiçik böyükdən
Seçilməz ləzzətilə.
Böyük hörmət gətirər
Sənə öz siqlətiylə.
Doğrudur, göz daşın da
Böyüyünü istəyər.
Ağacın şüyünü yox,
Kötüyünü istəyər.

Ancaq göz özünə də
Nəzarət etməlidir.
Arzu dolu ürəyə
Güzəştə getməlidir.

*1986.*

## OCAQ BAŞINDA

Nənəm qışda deyirdi,
Yay nə zaman olacaq?
Hardasa düşüb qalan
Daş da ünvan olacaq.
Bəli! Bir daş dibi də
Ev olacaq, damsız ev.
Ayın ziyasıyla da
İşıqlanır şamsız ev.
Nənəm məgər bilmirdi
O tək daşdan nə ünvan?
Neçə məşhur ünvanla
Bəzənmiş neçə dalan.
Dörd fəsilli həyatda
Nə tapmaca, nə sirdi,
Kimin günü xoş keçir
Ona qışla yay birdi.
Yox! Yox! Nənəm bilirdi,
Savalan ətəyində,
Yoxsulların dərdini
Çəkirdi ürəyində...



Haçan çörək tikəsi
Boğazında qalırdı,
Gözləri dolan nənəm
Dərin fikrə dalırdı.
O daha nə su içib,
Nə də çörək yeyirdi.
Harasa baxa-baxa
Kimsə acdır deyirdi.
Elə ki qonşusunun
Aclığını bilirdi,
Nənəm süfrə başında
Sanki rəhmə gəlirdi.
O qalxıb qonşusuna
Qabda pay aparırdı.
Qayıdıb gələndəsə
Sinəsi qabarırdı.
Nənəm qızırqanmırdı
Nə pula, nə də mala.
Deyirdi dünya malı
Bir şey deyildir, bala!
Üzünün biri ağsa,
Biri qaradır ancaq.
İnsanlar arasında
Hörmət yaradır ancaq.
Deyirlər düşmən elə
Ocağın başındadır.
Tez-tez dəyişən fikri
Gözündə-qaşındadır...
Nənəmin təmasından
Heyrətə gəlirdim mən.
Siqlətini duyduqca
Riqqətə gəlirdim mən.

O boyda Çanaxbulaq
Evmizə sığışırdı.
Nənəmin ocağının
Başına yığışırdı.
Nənəmin şəfqətindən
Hamıya pay düşəndə,
Elə ocaq başında
Dost olurdu düşmən də...

***1987.***

## O İSTƏRDİ...

Nənəm deyərdi ki, ölüm də haqdır,
Dünyada doğulan köçəcək hökmən.
Ancaq qadir insan nə qədər sağdır
Gah təzə bağ salır, gah yeni çəmən.

Sanki o həyandı ana Vətənə,
Düşmürdü ümidli sözlər dilindən.
Kömək niyyətilə biri dinəndə
Yaxşılıq gəlirdi yalnız əlindən.

Şaxtalı çillədə üşünəndə o,
Yaman narahatdır könlüm deyirdi.
Ömrünün sonunu düşünəndə o
Günəşli baharda – Ölüm! – deyirdi.

Bəli! O istərdi imkan içində
Diz çöksün, əlvida desin bahara.
Lakin istəməzdi tufan içində
Çiyinlərdə getsin soyuq məzara.



Nə qədər uşaqdım, duymazdım düzü
O dərin hikməti, qapalı sirri.
Böyüdüm... O düyün açıldı özü,
Həyatda göründü nənəmin yeri.

Bildim ki, nənəmin nəymiş inamı,
O, yaxına-yada xeyirxah imiş.
Tufanlı havada neçə adamı
İncitmək özü də bir günah imiş!

İndi çalışıram bəlkə heç kəsi
Özümdən bir dəfə incitməyim mən.
- Yaxşılıq gərəkdir! - deyən bir səsi
Heç yerdə, heç zaman kiçiltməyim mən.

Fəqət xatirimə dəysə bir nəfər
Yanaram, ocaqda od yanan kimi.
Varam yamanlıqla axıra qədər
Yolundan dönməyən mərd insan kimi.

Mehriban nənəmin qadın ürəyi
Xınalı saçından yumşaq olubdur.
Döyüş meydanının çaxan şimşəyi
Sakit daxmasından uzaq olubdur.

Mənisə bərkidib döyüş meydanı,
Namərd dahiləşsə alqışlamaram.
Bu gün həqiqəti danan insanı
Sabah haqq naminə bağışlamaram.

***1988.***

## HARAY

Nənəm, müqəddəs nənəm
Allahdı mənim üçün.
Özünə dünəndisə,
Sabahdı mənim üçün.
Mən sanardım nənəm də
Əbədidir allah tək.
Nəsillər böyüdəcək
Gümrahdan da gümrah tək.
Ancaq fani dünyadan
Köçüb getdi pənahım.
Xəyalımdasa daim
Yaşayacaq allahım.
İnsan, mübariz insan
Sahilsiz bir dənizdir.
Ancaq Vətəndə qadir,
Qürbətdəsə acizdir.
Nənəm deyərdi insan
Qul olsa da, insandır.
Unutma, qonaqsız ev
Müştərisiz dükandır.
Sonralar mən hörmətlə
Qarşılardım qonağı.
Bolluq büstü olardı
Süfrəmizin növrağı.
İndi qonaq getməyə
Utanır insanlar da.
Almağa adi bir şey
Tapılmır dükanlarda.



Tamahlar böyüdükcə
Dünyamız cılızlaşır.
Saxta təbəssüm dolu
Dodaqlar arsızlaşır.
Təpədən-dırnağadək
Dövran qəddar olanda,
Bir anlıq da qınama
İnsan qəddar olanda.
Axı mərd insanı da
Qəddar edən dövrandı.
Bəli! Hökmünü verib,
Sonra gedən dövrandı.
Dövranda ölçü yoxdur
İnsaflı mizan kimi.
Yox! Dövran qarışıbdır
Qaynayan qazan kimi.
Mən dünyada heç şeyin
Yiyəsi olmasam da,
Nadirləşən nemətlər
Yiyəsi olmasam da,
Öz sözümün həmişə
Yiyəsiyəm, yiyəsi!
Ürəyimdən gələni
Deyəsiyəm, deyəsi!
Kim ki, öz ayranına
Turş demək istəməyir,
Sanma doşab yerinə
Bal yemək istəməyir.
Ədalətsiz insanlar
Basdayıb bir-birini,
Zorla əlindən alır
Ədalətin yerini.

Sonra kök atmasa da
Dərində zaman-zaman,
Sevinir ədalətin
Yerində zaman-zaman.
Ədalətə bir güclü
Təkan verməsən əgər,
Neçə il keçsə də o
Yerinə düşər məgər?
Arxasız həqiqəti
Arxalı yalan yıxır.
Arxalı yalanısa
Sabahı olan yıxır.
Ancaq gərək o daim
Əssə də tufan kimi,
Döyüşlərdə qabıqdan
Çıxmasın ilan kimi.
Yoxsa ki, qabıqlar da
Təpə-təpə qabarar.
Şair susanda dərhal
Qələm haray qoparar.
Haray! Böyük dünyamız
Balaca qarpız olur.
Təzə sakinləri də
Nəhəng yox, cılız olur.

***1991.***

## MİRAS

Sanma mən bu dünyada
Adi bir qonaq oldum.
Öz alovu özünü
Yandıran ocaq oldum.



Yox! Yox! Mən milyonların
Ürəyini isitdim.
Minnətdarlıqla dolu
"Sağ ol"unu eşitdim.

Neçə-neçə ağrının
Hovunu zaman alır.
Alov ağrısı hələ
Mənim canımda qalır.

Haçan bərk ağrılardan
Qamətini əyərdi,
Məğrur nənəm "az ağrı,
Asan ölüm" deyərdi.

Sən demə həssaslaşan
Bir kəndistan qadını,
Dönə-dönə duyubmuş
Ağrıların "dad"ını.

Mənsə kişiyəm... Neçə
Ağrıya dözürəm mən.
Ürəyimdə ağrılar
Karvanı düzürəm mən.

Müdrik nənəm bir kəndə
Yaxşılıq etdi ancaq.
Mən bir xalqın yolunda
Nə oldum? Yanan ocaq!

Bəli! Mərdlik nənədən
Miras qaldı nəvəyə.
Nənəmin yaxşılığı
Məndə çatdı zirvəyə.

***1990.***

## NƏNƏM DƏ YANILARMIŞ

Nənəmin dedikləri
Nə dastan, nə nağıldı.
Yox! Başdan-ayağadək
Sətir-sətir qızıldı.
Bir gün də mənə dedi:
"Calansa da yol yola,
Yolun uzunluğundan
Heç zaman qorxma, bala!
Yalnız gəzən ayağa
Daş dəyər bu dünyada.
Yəni, insan gəzməklə
Çatar neçə murada."
Yadigar köynək biçib
Mənə həyadan nənəm,
Özüsə üzüsulu
Getdi dünyadan nənəm.
Mənsə daşlı yollarda
Dolaşdım səhər-axşam.
Həvəsdən düşməsəm də,
Ayaqdan düşdüm tamam.
Bəli! Dinclik imkanı
İtdi ayaqlarımda.
Daşa dönmüş qabarlar
Bitdi ayaqlarımda.
Mən yenə addımladım,
Baxdım ayaqlarıma.
Nə qədər təzə daşlar
Dəydi barmaqlarıma!



Nəhayət qabağıma
Çıxdı murad ağacım,
Dedim qismət gəzirəm,
Sənə qalıb əlacım.
Əllərimi uzatdım
Bəlkə bir nobar dərəm.
Yollarıma döşənmiş
Daşlardan kənar dərəm.
Eh... Birdən başıma da
Daşlar dəydi yollarda.
Mənim şax vüqarımı
Bir az əydi yollarda.
Dönüb baxdım... Başıma
Daş yağdıran baxtımdı.
Hələ yetkinləşməmiş
Müdrikləşən vaxtımdı.
Mənzilimə qayıtdım
Pərişan adam kimi.
Yox! Şölə çəkə-çəkə
Sozaran ilham kimi.
Mən nənəmin şəklinə
Baxdım giley içində.
Bəli! Nənəm şəkildi
Kiçik muzey içində...
Sanki həssas nənəmin
Dodaqları titrədi.
Tellərimi darayan
Barmaqları titrədi.
Dedi mən yanılmışam,
Bağışla, əziz bala!
Yadımdan çıxarmışam
Bir şeyi təmiz, bala!

Axı biz başqa-başqa
Dövranların nəsliyik.
Hələ gerçəklənməmiş
Gümanların nəsliyik.
Nənəm daha dinmədi,
Sükut isə uzandı.
Nəyinsə əvəzinə
Sanki nənəm utandı.

***1986.***

## MƏNİM DARÜLFÜNUNUM

Nənə! Bir hikmətə dönsə hər sözüm
Mən ilhama deyil, sənə borcluyam!
Nənələr nənəsi dünyada özüm
Bir baba olsam da yenə borcluyam!

Dühalar yetirən aqil cahanda
Nə oxumaq bildin, sən nə də yazmaq.
Böyük məktəb oldu kamil cahanda
Sənə həm sığınmaq, həm qulaq asmaq...

Sən adi insandın ey incə xilqət,
Könlün nə kəhrizdi, nə də ki, bulaq.
Balaca sinəndə çağlayan hikmət
Böyük kəndimizə sığmırdı ancaq.

Gündüz neçə-neçə alim dinlədim,
Gecə neçə-neçə kitab oxudum.
Yoruldum... Sənisə daim dinlədim,
Əlvan sözlərindən çələng toxudum.



Sən qövsi-quzehli naxışlarınla
Həyatda yaşamaq əlifbam oldun!
Dərin düşüncəli baxışlarınla
Bu böyük dünyada öz dünyam oldun!

Sən bir orkestrdin, sinənin üstə
Ud da, saz da, tar da, kaman da vardı.
Yanıqlı tellərdə çağlayan səsdə
Nisgil də, giley də, güman da vardı.

Qurumuş sinəndə hər səhər-axşam
Dərd dərd üstə axıb bir yığva oldu.
Dərd nədir? Tellərdən qopan səs müdam
Daşları əridən bir lava oldu.

Anamı incələn bir rübab kimi
Qopardı yanıqlı dilimdən zaman.
Səni sanballaşan bir kitab kimi
Çıxara bilmədi əlimdən zaman.

Ağır işlər üstə basıb səbrini
Pullar toplayardın düz yollarla sən.
Bəlkə gənc anamın uçuq qəbrini
Təmir etdirəsən o pullarla sən.

Eh! Mənə xərcləyib pullarını sən
Neçə ehtiyacı ödərdin, nənə!
Hünərlə çırmayıb qollarını sən
Təmiri tək özün edərdin, nənə!

Demə ağ saçları yelkən nənəyə
Nəvə məhəbbəti dəniz olarmış!
Qızsız təklik dərdi çəkən nənəyə
Nəvəsi qızından əziz olarmış!

Nənə! Yadımdadır səksən yaşında
Sən yalnız əməklə təskin tapardın.
Üz-gözünü qarsan təndir başında
Arıq əllərinlə çörək yapardın.

Sən yolları yormuş ayaqlarınla
Doğma kəndimizdən dağa qalxardın.
İlləri çevirmiş barmaqlarınla
Sən inək sağardın, nehrə çalxardın.

Alnında qırışlar – qarlı havada
Kəsdiyin əriştə qədərdi, nənə!
Əlində qabarlar – bumbuz tavada
Ovduğun umaca bənzərdi, nənə!

Yox! Yox! Misra-misra artan qırışlar
Ömür dastanının qitələriydi.
Qabarlar deyilən yumru naxışlar
Dərin misraların nöqtələriydi.

Kim bilir, bəlkə də şimşək ömrünlə
Ömrümə od-alov çiləyən sənsən!
Narahat, mübariz, kövrək ömrünlə
Məni də zəhmətkeş eləyən sənsən!

Mən dustaq xalqıma inamla dolu
Nicat axtaranda əsərlərimdə,
Cürətlə, hünərlə, inamla dolu
Zəhmətdən yoğruldu zəfərlərim də.

Nənə! Timsal nənə! Haçan zəhmətin
Ağır əzabından usanıram mən,
Tez yadıma düşür sənin qeyrətin,
Öz kişiliyimdən utanıram mən.



Qışda qapımızı qar döyən zaman
Ocaq qırağında üşünərdin sən.
– Yaman ağır keçir qış – deyən zaman
Evsiz-eşiksizi düşünərdin sən.

Deyərdin günəşli bahar gəlsəydi
Soyuq ürəklər də odla dolardı!
Bir durna sarbanlı qatar gəlsəydi
Hər daşın dibi də bir ev olardı!

Mənsə bir mənzilə yetişim deyə,
Neçə yad ünvanlı mənzildən keçdim.
Əbədi müşkülsüz ötüşüm deyə
Neçə sərt düyünlü müşküldən keçdim.

İndi səyyar könlüm qürurla desin
Bu mehriban torpaq öz Vətənimdir!
Mənim nəğmə dolu evim hər kəsin,
Fəqət hər kəsin də evi mənimdir!

Sən necə böyükdün, necə qüdrətli,
Mənim arif nənəm, mehriban nənəm!
Sən necə zirəkdin, necə şəfqətli,
Yaxası ulduzsuz qəhrəman nənəm!

Səndən eşitdiyim qızıl sözlərdə
İnsanın ağlı var, torpağın ətri,
Yazda da, qışda da yaşıl sözlərdə
Sünbülün rəngi var, yarpağın ətri...

Elə ki, həyatda mən dara düşdüm,
Sinəm dalğa-dalğa alışdı mənim!
Mən harda yaşadım, mən hara düşdüm
O sözlər qolumdan yapışdı mənim!

Sənətdə cığırlar salmazdım bəlkə
Sənin sözlərini eşitməsəydim.
Alovlu bir şair olmazdım bəlkə
Şeirimi səsinlə isitməsəydim.

Dünən yaşadımsa məsləhətinlə
Özüm də babayam bu gün, ay nənə!
Sən bu gün ağıllı qənaətinlə
Dünəndən də artıq gərəksən mənə!

Babalıq çətindir! Axı boynumda
Müdrik bir ağsaqqal vəzifəsi var!
Yox! Yox! Çətin deyil, isti qoynumda
Hələ öz nənəmin od nəfəsi var!

O odlu nəfəsin hərarətilə
Dünyanın özünü qızdıraram mən!
Nənənin adını ülviyyətilə
Günəşlə yanaşı yazdıraram mən!

Sənin becərdiyin gülşəndə heyhat
Nəvən pardaxlandı, sən soldun ancaq.
Kiminə zəmanə, kiminə həyat,
Mənə darülfünun sən oldun ancaq!

Əlim yetişsəydi uzaq qəbrinə
Sənin baş daşını öpərdim, nənə!
Tər güllər yerinə torpaq qəbrinə
Əlvan sözlərimi səpərdim, nənə!

***1984.***



## QƏRİBLİK

Nənə! Sən dünyaya gəldiyin zaman
De, niyə adını Qərib qoydular?
Qərib nə deməkdir? Həsrətli insan!
Bunu nə bildilər, nə də duydular.

Sən Qərib olsan da bir sakin kimi
Öz doğma, öz məhrəm torpağındaydın.
Dustaq taleyinə bir zamin kimi
Öz odlu-alovlu ocağındaydın.

Demə yaşamağın duyub dadını
Mən fərəhlə dolu büsata gəldim.
Yox! Yox! Sanki sənin Qərib adını
Mən doğruldum deyə həyata gəldim.

İnansınlar deyə insanlar mənə
Həm məhrəm, həm sadiq, həm nəcib oldum.
Vətəni bir gözdə görsəm də nənə,
Yenə Vətəndaş yox, mən qərib oldum.

Yadımdan çıxdıqca o boyda torpaq,
Nə qədər təranə düşdü dilimdən.
Nələr itirmədim? Qəriblik ancaq
Bütün həyatımı aldı əlimdən.

Bilər, mənə bir yol gözlərin baxsa
Qərib necə olur dünyada, nənə!
Yaxşı ki, həyatda deyilsən, yoxsa
Fəryada gələrdin, fəryada, nənə!

***1994.***

## QƏRİB

Ehtiyacın dalğasında
Qürbət yerə gələr qərib.
Səhər-axşam arxasında
Öz yurdunu bilər qərib.

Hicran yüklü taleyinə,
Fəğan yüklü taleyinə,
Güman yüklü taleyinə
Acı-acı gülər qərib.

Xiffət dolu gözlərindən,
Möhnət dolu gözlərindən,
Həsrət dolu gözlərindən
Yaş yox, həsrət ələr qərib.

Qəti nə var, yazı kimi?
Şirin nə var, arzu kimi?
– Vətən! – deyə quzu kimi
Gizli-gizli mələr qərib.

Əzab qəddar, insan məsum,
Boğazında şişsə qurum,
Vətəninin bircə udum
Havasını dilər qərib.

Önə keçib çeviklərdən,
Aşar qarlı gədiklərdən...
Eh, özündən əskiklərdən
Nələr çəkməz, nələr qərib?



Vətən şərəf, namus, ardır,
Desələr ki, imkan dardır,
Sərhədlərdə qaya vardır,
Qayanı da dələr qərib.

O, baxmayıb çox yaşına,
Dağ da yarar tək başına...
Vətəninin bir daşına
Baş söykəyib ölər qərib.

*1994.*

## QƏRİBİN QƏBRİ

Yazıq qərib ümidlə
Neçə qapını döydü.
Gah ağı, gah sarını,
Gah da abını döydü.
O bir giley dolu yük
Çatsa da hər sözünə,
Qapı açan olmadı
Yad adamın üzünə.
O çəkilib qəbrinin
Gen açılmış gözünə,
Qapısını bağladı
Bu dünyanın üzünə.
İndi qəbrinin üstdə
Soyuq külək oxuyur.
Ancaq şaqraq-şaqraq yox,
Kövrək-kövrək oxuyur:

Qəbristana bax! Yatır,
Həm sol, həm də sağ yatır.
Bu daşı yadda saxla,
Altında bir dağ yatır.

Artsa hicrin cəbri də,
Dözməz filin səbri də,
Qürbətdə ölənlərin
Tapdalanar qəbri də.

Torpaqlar varaqlanar,
Lalələr çıraqlanar...
Qürbətdə qəriblərin
Qəbri də soraqlanar...

Soyuq külək hər sətri
Aram-aram oxuyur.
Nə yorulur, nə susur,
Səhər-axşam oxuyur...

*1994.*





## FİKİR

Sanma yer üzünün ən ağır yükü
Daş, beton, qurğuşun, dəmir yüküdür.
Yox! Yox! Yerə-göyə tən ağır yükü
Beynində qalanan fikir yüküdür.

## NARAHATLIQ

Fikirdən qaçıram. O, təzə şeirə
Dönmək istəyəndə duyğularımda,
Soyunub girsəm də mən yumşaq yerə,
Daş üstə yatıram yuxularımda.

## SÖZ

Atalar-babalar hamıdan qabaq
Qonağa yer vermiş gözünün üstə.
Xeyrindən könüllü keçsə də, ancaq
Mərdliklə dayanmış sözünün üstə...

## KİŞİLİK

Kişilik dünyada ömrün zirvəsi!
Hanı dik dağlarda belə ucalıq?
Kişilik vicdanda canın qüvvəsi,
Nə xəstəlik bilər, nə də qocalıq!

## DƏYƏR

Dərindən duyurdu nənəm həyatı,
Əsər yazmasa da sinədəftərdi.
Dilindəki nağıl, məsəl, bayatı
Şahlar başındakı taca dəyərdi!



## İMTAHAN

Demə ki, xəyalım gəzir buludda,
İmtahan vermirəm dərsdən haçandır.
Xeyr! Ömrüm-günüm keçmir sükutda,
Hər şeiri yazmaq da bir imtahandır!

## KİTAB

Kitab həyatdakı hər sənətkarın
Oxucu önündə hesabatıdır!
Bu gündən söz yazan hər nəğməkarın
Sabaha şeiriyyət ehtiyatıdır.

## İMZA

Həyat da kitabdır, min rəngə çalır
Günəşli Vətənin torpaqlarında.
Nəsil gəlib-gedir, imzası qalır
O nəhəng kitabın varaqlarında.

## TƏŞBEH

Nasirə danışdım həyatımı mən,
Dedi yazılmamış roman təkidir.
Şairə bildirdim muradımı mən,
Dedi göyərməmiş fidan təkidir.

## MARAQ

Bir şair hər gecə bir neçə varaq
Misralar yazardı arzularından.
Macərayla dolu öz ömrü ancaq
Daha maraqlıydı yazılarından.

## TƏŞƏBBÜS

Təşəbbüs səpilən yeni toxumdur,
Yağışlı-günəşli novbahar istər.
Yox! Təzə mövqeyə ilkin hücumu
Cəsarət, iradə, tərəfdar istər!

## RİSQ

Demə qəhrəmanlıq dillərdə gəzən
Şöhrət dolu uğur yaradır, uğur!
Xeyr! Keşməkeşli dünyada bəzən
Qəhrəmanlıq özü risqdən doğur.

## YARIŞ

Zənn etmə yarışlar neçə nəfərin
Başladığı işin təzadlarıdır.
Yarışlar yürüşə çıxan hünərin
Meydanda açılan qanadlarıdır.

## RƏQABƏT

Andı da, eşqi də, sədaqəti də
Mənfəət naminə soyar rəqabət.
Ehtiram sahibi şəxsiyyəti də
Xəcalət içində qoyar rəqabət.

## TƏMAS

O, pulla bir qəvvas axtardı, qəvvas,
İçində qərq olan qəmi çıxara.
Ancaq təsəlliylə dolu bir təmas
Özünü minnətsiz atdı axara.



## HƏVƏS

İnsanın qəlbində daşsa da həvəs,
Səbrlə düzələr hər gözəl növraq.
Muştuluğa tələs, haraya tələs,
Əsər yaradanda tələsmə ancaq.

## DƏYİŞİKLİK

Məsləkimlə gedib bu cahanda mən
Nə şiə, nə də ki, sünnü olmadım!
Kimya möcüzəli bu dövranda mən
Təbiilikdən çıxıb süni olmadım!

## ZAMAN

Bir vaxt birnəfəsə keçib dörd kəndi
Qalxdım Savalanın son zirvəsinə.
Nəfəs dərə-dərə çıxıram indi
Bir evin dördüncü mərtəbəsinə...

## MƏN

Dostlar seyrəkləşir bilmirəm nədən,
Min sifət görürəm bir insanda mən.
Səni görmək arzum susarsa, Vətən,
Necə yaşayaram bu cahanda mən?

## YAŞ

Mən yaşıl ağacam, dinləsin tufan,
Sənsən yarpağım da, meyvəciyim də!
Sevgilim! Həyatda səni hər zaman
Sevmişəm, sevirəm, sevəcəyəm də!

## TƏRAVƏT

Qönçə dodağında dinən təravət
Sanma qocalanda üzündə qalar.
Yox! Yox! Müdrikliyə dönən təravət
Könlündə, ruhunda, sözündə qalar.

## GÖZƏLLİK

Əgər gözəllikdən doymaq istəsən,
Gərək gözlərinlə yeyəsən onu.
Həmişə füsunkar duymaq istəsən,
Bahar ürəyinə geyəsən onu.

## MƏHƏBBƏT

Fədakarlıq arar sevgi insanda,
Məhəbbət döyüşən bayraq kimidir.
Yazıq o adamdır geniş cahanda
Sevib-sevilməkdən uzaq kimidir.

## SEVGİ

Sevgi çiçəkləyir tale kolunda
Kim deyir, həmişə novbara dönür.
Bəzən keşməkeşli ömür yolunda
Hicran abidəsi məzara dönür.

## EŞQ

Təzə nəğmələrlə dolu sinəmdə
İki odlu ürək daşıyıram mən!
Min nadir dilrüba görsəm aləmdə
Tək sənin eşqinlə yaşayıram mən!



## YARIMAQ

Sevgi kəlməsində hər səhər-axşam
Yar deyən yarından yarısın gərək!
İki gənc dünyanı gəzsə də tamam,
Bir damın altında qarısın gərək!

## ÇEŞMƏK

De, nəyə bənzəyir o gözlər, nəyə?
Sevinclə çağlayan büllur çeşməyə!
Bəs niyə onları salıbsan, niyə,
Daş qəfəsə bənzər qara çeşməyə?

## QISQANCLIQ

Qısqanclıq qəməyə dönmədimi, de,
Çılğın Otellonun əyri qaşında?
Vəfa üfüqündə sönmədimi, de,
Hilal Dezdemona cavan yaşında?

## HEYRANLIQ

Bil ki, sən ərisən könlündə yanan
Təzə məhəbbətin heyranlığında,
Üçüncü adam da yol azar, inan,
Sönən məhəbbətin qaranlığında.

## QÜDSİYYƏT

Sanma yorğun sevgim tükənmiş daha
Soyuq duyğusunda atəş də yoxdur.
O yanar könlümə söykənmiş daha,
Dözüm məndə vardır, Günəşdə yoxdur.

## VƏFA

Vəfalı axtarsa gözün dünyada
Çəkmə nə intizar, nə də ki, cəfa!
Vəfalı olmasan özün dünyada,
Heç kəsdən, heç zaman gözləmə vəfa!

## ETİRAF

Deyə bilərəm ki, qoşa qanaddan
Dünən doğmaydıqsa, bu gün yadıq biz.
Deyə bilmərəm ki, ayrı həyatdan
İndi mükəddərik, yoxsa şadıq biz.

## DOSTLUQ

Dostluq üzükdürsə, hörmət qaşıdır,
Ülfətsiz nə parlar, nə işıq saçar.
Duz-çörək dostluğun təməl daşıdır,
Tapdansa, dostluq da dibindən uçar!

## TƏƏSSÜF

Təəssüf edəndə səmimiyyətlə
Kiməsə, nəyəsə adam acıyır.
Etiraz baxışlı mədəniyyətlə
Ülfət gileylənir, inam acıyır.

## KÖMƏK

Kim açsa köməkçin öz ürəyini,
Sən də göstər! Nə yol, nə qapı bağla!
Fəqət yerli-yersiz öz köməyini
Başına qaxmaqdan dilini saxla!



## GÜZƏŞT

Ya inad göstərmək, ya tərslik etmək
Şəxsin sifətinin dönüklüyüdür.
Haqqını kiməsə güzəştə getmək
Mərdin ürəyinin böyüklüyüdür!

## XƏYANƏT

Xəyanət gəlsə də darda köməyə,
Şərbət içindəki zəhər təkidir.
Döyüş meydanında açıq kürəyə
Arxadan saplanan xəncər təkidir.

## İNTİHAR

O qızıl yarpaqlı boz palıd nədən
Özünə od vurub nahaq yandırır?
O yol ayrıcında intihar edən
Bir təmiz namuslu qızı andırır...

## MƏRHƏMƏT

Dünyada təmənna güdən mərhəmət
Yardım görkəmində təhqir kimidir.
Bəli! Həssas qəlbi didən mərhəmət
İnsanın boynunda zəncir kimidir.

## TƏSƏLLİ

Kim deyir təsəlli kiçik olsa da
Həyatda mehriban nəfəs deyildir?
Gələn fəlakətə şərik olsa da,
Gedən səadətə əvəz deyildir.

## İNAM

İnam məsləkin də, sədaqətin də
Doğma, arif, qadir, mərd qardaşıdır.
İnam dözümün də, cəsarətin də
Həyat karvanında yol yoldaşıdır.

## NƏZAKƏT

Adamlar içində ülfət zamanı
Nəzakət ən gözəl sifətdir, ancaq
Müqəddəs, mehriban, məğrur insanı
Nə müti eləsin, nə də ki, yaltaq!

## NÜFUZ

Nüfuz nə sığnacaq, nə büt, nə ocaq,
Nə də ki, xüsusi münasibətdir.
İnsanlar yanında hər şeydən qabaq
Ləyaqət, məhəbbət, səmimiyyətdir!

## LƏYAQƏT

Ehtiyac istəsə qapını çalsın,
Heç nəyə dəyişmə ləyaqətini.
Ümidin itsə də, vüqarın qalsın,
Yoxsa alçaldarsan şəxsiyyətini...

## İNSAF

Qayğı soyuyanda, güman susanda,
İnsaf ləyaqətin təcəssümüdür.
İnam çəkinəndə, vicdan susanda,
İnsaf ədalətin tərənnümüdür!..



## PALTAR

Fəsillər dolaşır ana torpağı,
Qarlı qış çiçəkli bahara dönür.
Hər fəslin cəlalı, hüsnü, növrağı
İnsanın əynində paltara dönür.

## QIŞ

Qarla bəzəsə də nə qədər yolu,
Öz salxım buzunda donmayaydı qış!
Sevib-sevilənin məhəbbət dolu
Odlu baxışına qonmayaydı qış!

## BAHAR

Bahar hər rəngiylə, hər növrağıyla
Ana təbiətin qız baxışıdır.
Lakin öz gülüylə, öz yarpağıyla
Ürəyi bəzəsə daha yaxşıdır!

## GÜNƏŞ

Külək şığıyanda şəhərdən, kənddən,
Sönmüş ocaqlara günəş od saçır.
Ancaq hərarəti aşanda həddən,
İnsan, yanan insan günəşdən qaçır.

## BAĞ

Şorana dənizi aparsa insan,
Nə üzüm, nə badam, nə ərik olmaz!
Bağdan min dəstə gül qoparsa insan,
Meyvə yoxa çıxmaz, gül əskik olmaz!

## BAĞBAN

Bağban var, həsrəti ayaq açmamış
Neçə yol bar dərir bircə fidandan.
Bağban var, şitili yarpaq açmamış
Buta nisgiliylə gedir cahandan.

## AĞAC

Sanma yol üstündə xəyaldır ağac,
Təzə budaqları diləkləridir.
Yox! Yox! Yerə qonmuş qartaldır ağac,
Yaşıl yarpaqları ləlәkləridir.

## ÇİÇƏKLƏR

Çiçəklər səs-küylü küləkdə deyil,
Sakit şəfəqləri əməndə xoşdur!
Evdəki darısqal dibçəkdə deyil,
Çeşməsi çağlayan çəməndə xoşdur!

## NUR

On dörd gecəlik Ay nurdan o qədər
Xal düzür dənizin göy bənizinə,
Çıraqban şəhərlə yarışan Xəzər
Dönür başdan-başa nur dənizinə...

## QAŞ

Kəpəz hikmət dolu Azərbaycanın
Buludlara dəyən məğrur başıdır!
Göygöl nemət dolu Azərbaycanın
Nadir üzüyünün zümrüd qaşıdır!



## BƏRƏKƏT

İnsan təravətli məhəbbətilə
Ana torpağını zinətləndirir.
O da bərəkətli səxavətilə
İnsan əməyini şöhrətləndirir...

## VƏTƏN

Göyə ucalsa da mübariz insan,
Başı da Vətəndir, canı da Vətən!
Vətəni qaldıran övladı inan
İstər ölkə-ölkə tanıda Vətən!

## QURBANLIQ

Sanki Araz adlı gümüş bir maral
Çırpınır bölünmüş torpağın üstdə.
Deyir ki, qurbanlıq istəsən, vüsal,
Adi qoyun nədir? Sən məni istə!

## BORC

Qardaş! Borcla kömək ekiz bacıdır,
Ehtiyacdan doğur ünsiyyət kimi.
Dünyada böyük borc Vətən borcudur,
Gərək qaytarasan əmanət kimi!

## MƏSLƏHƏT

Günəş sənə verdi xeyir-bərəkət,
Ay zəngin Vətənim, ay böyük anam!
Mənəsə yanmağı öyrətdi fəqət,
Səhər də, axşam da səninçin yanam!

## ADƏT

Kim yumşaqlığa da, mətinliyə də
Böyük hünərini şöhrət eləyir,
Dözümün məhəki çətinliyə də
Mübariz ruhuyla adət eləyir...

## HƏYAT

Həyat da tələsən bulaq kimidir,
Daim qucağında axın görünür.
Doğma var, yaddan da uzaq kimidir,
Yad var, doğmadan da yaxın görünür.

## SİYASƏT

Sanma ki, siyasət yarışmalarda
Tək mahir səylərin rəqabətidir.
Həm də siniflərin çarpışmalarda
Yolu, əqidəsi, mənfəətidir...

## CƏZA

Cəza öz biçimi, öz xislətilə
Bəzən yüngül olur, bəzən də ağır.
Bağışlanmaz cəza öz siqlətilə
Anamız Vətənin dilindən yağır.

## ƏDALƏT

Yükü arxasında qurşun olsa da,
Səfər hökmü ağır ədalətindir.
Keşməkeşli yolu uzun olsa da,
Zəfər əvvəl-axır ədalətindir!



## YARA

Kim deyir sağalmaz dava-dərmanla
Ən ağır, ən dərin ürək yarası?
Ancaq inqilabsız doğan gümanla
Hələ sağalmamış məslək yarası!

## BAYRAQ

Döyüşdə o məslək qəhrəmanı tək
Qabaqda yürüyər, yolundan dönməz.
Güllə yağışında arı şanı tək
Dəlik-deşik olsa, yüksəkdən enməz!

## ZƏFƏR

İnsanı isidən hərarətilə
Günəşə bənzəyir tufanda zəfər!
Unutma! Tələbkar təbiətilə
Hünər də istəyir, qurban da zəfər!

## SƏADƏT

Səadət! Mübariz ömrün qisməti!
Döyüş yollarında zəfərdən doğur.
Asan yaranmayır həyat neməti,
Diləkdən, cürətdən, hünərdən doğur...

## NEMƏT

Demə ki, cahanda ən əziz nemət
Könül şadlığıdır, can sağlığıdır.
Yox! Ən gözəl nemət, ən təmiz nemət
Vicdan saflığıdır, üz ağlığıdır!

## QANUN

Şallaqla, yumruqla, silləylə deyil,
İnsan arzusuyla yaranır qanun.
Dolaşıq düşəndə gülləylə deyil,
İdrakın əlilə daranır qanun...

## XƏBƏR

Xəbərlər növ-növdür... Hələ xəbər var,
Sakit bir həyatı pozur özüylə.
Deyirəm yaxşı ki, elə xəbər var,
Dincəldir narahat qəlbi sözüylə.

## QAYĞI

Vətəni ürəkdə daşımaq üçün
Özü siqlətində duyğu gərəkdir.
Tək insana deyil, yaşamaq üçün
Dilsiz torpağa da qayğı gərəkdir.

## ÜRƏK

Gərək öz ömrümü üzərrik kimi
Mən sənin başına çevirəm, Vətən!
Mənə ürək verdin təbərrik kimi,
Səni o ürəklə sevirəm, Vətən!

## SƏXAVƏT

Kim ana torpağın qeydinə qalsa,
Ona həm gözəllik, həm büsat verər.
Arxayın olar ki, torpaq nə alsa,
Sonra əvəzini neçə qat verər.



## TƏZAD

Ana döşlərini axtaran uşaq
Günəşə boylanan çiçək kimidir.
Qoca gileylənsə, qınama nahaq,
Dam altda kövrələn dirək kimidir.

## TƏBƏSSÜM

İnsanı ayazda qızdırsın deyə,
Mehriban gözlərdə yanar təbəssüm.
Adamı şaxtada azdırsın deyə,
Kinli baxışlarda donar təbəssüm.

## İŞIQ

Aləmdə nə var ki, işıqdan gözəl,
Yerin də, göyün də üzündə yansın!
Ülkər-ülkər olsa, deyirəm əvvəl
Əmək adamının gözündə yansın!

## ZƏHMƏT

Dostum! Dalğa-dalğa ömrün axsa da,
İradən yetirər sahilə səni.
Qarşına dolaşıq yollar çıxsa da,
Zəhmətin çatdırar mənzilə səni.

## DÜHA

Hər düha işıqlı bir ülkər kimi
Yaxında doğular, uzaqda parlar.
Dünyada qiymətli bir gövhər kimi
Torpağa kömülsə, torpaqda parlar.

## İSTEDAD

İstedad zəhmətlə yoğrulsa əgər,
Kim deyər həyatda nadir deyildir?
Nə həsəd, nə rəqib, nə kin, nə xətər
Yolunu kəsməyə qadir deyildir!

## EHTİRAS

Ehtiras ürəkdə sakit yatsa da,
Dinər tar simində, söz naxışında.
Soyuq duyğulara alov qatsa da,
Öz odu yanmasın öz baxışında!

## DÖVLƏT

Əlləşmə cəlalla, nazla, nemətlə
Tək evin-eşiyin dövlətli olsun.
Çalış ki, qayğıyla dolu qeyrətlə
Sinəndə ürəyin sərvətli olsun.

## YÜK

Get istiqbal deyə tufana qarşı,
Məslək dostlarından geridə qalma!
Dünyanın yükünü çiynində daşı,
Yüklənmiş dünyaya özün yük olma!

## ŞÖHRƏT

Qızışmış görəndə meydanı bəzən
Ürəyi həsədlə körüklər şöhrət.
Gözünü yumanda, insanı bəzən
Ölüm ayağına sürüklər şöhrət.



## TƏRİF

Tərif unutmasın səmimiyyəti,
Kiminsə xətrinə şişməsin fəqət.
Daha da artırsın məsuliyyəti,
Dəyərdən qabağa düşməsin fəqət.

## HÖRMƏT

Yazma filankəsin adı, şöhrəti...
Bil ki, nə qələmi, nə ilhamı var.
Bütə döndərsək də cansız surəti,
Tarixin öz rəyi, öz məqamı var!

## MƏQAM

Nəslimiz zirvədən baxan nəsildir,
Çinar boyluların nəvələridir.
Lakin yüksək məqam dağlar deyildir,
İnsan ürəyinin zirvələridir!

## TAMAH

Sanma ki, adamın başına bəla
Təkcə törətdiyi günahdan gələr.
Xeyr! Addımlasan, qarşına bəla
Bil ki, gözləri ac tamahdan gələr.

## TÖHFƏ

Töhfənin kiçiyi, böyüyü olmaz,
Dərindən duyana damla dənizdir!
İstər şüşə ola, istərsə almaz,
Töhfə üzüyünün qaşı əzizdir!

## İSMƏT

İsmət elə nadir, elə əzizdir,
Gülün yarpağından kölgələnər o.
İsmət elə incə, elə təmizdir,
Xəfif nəfəsdən də ləkələnər o.

## GÜMAN

Yolun ayrıcında dayanır, lakin
İstədiyi yeri görməyir güman.
Başında min fikir oyanır, lakin
Öz qəti hökmünü verməyir güman...

## ŞÜBHƏ

Müəmmadan doğan bəlkələr təki
İnsan ürəyinə yığılır şübhə.
İşıqda əriyən kölgələr təki
İnam qarşısında dağılır şübhə...

## QEYBƏT

Qeybət haradasa təmiz vicdanın
Duru çeşməsində göz bulandırır.
Ayağı altını eşir insanın,
Həm toyda, həm yasda söz dolandırır.

## YALAN

Yalan bilə-bilə doğrunu danır,
Əyri qıçlar taxır, yerimir ancaq.
Düzlük deyə şam-şam doğruluq yanır,
Yalanın içində ərimir ancaq.



## NƏSİHƏT

Ağıllı nəsihət qanan adama
Ürəyində yanan qohum kimidir.
Fəqət yaxşılığı danan adama
Şoranlığa düşmüş toxum kimidir.

## ÜLFƏT

Harada namərdin felinə uysan
Nə mərhəmət gözlə, nə də ki, aman.
Sirrini öyrənsən, halını duysan
Pələng də səninlə dost olar, inan!

## TƏKƏBBÜR

Yerli də, yersiz də şişsə təkəbbür,
Tükləri qabarar toyuqlar təki.
Bir qəfil küləyə düşsə təkəbbür,
Partlayar içi boş qovuqlar təki.

## XAHİŞ

Bəşər planetə yaranmış sirdaş,
Nəhəng arzularla yaşamış yalnız.
Xahişin mənası böyükdür, qardaş,
Hər kiçik niyyətçin açmayaq ağız!

## FÜRSƏT

Fürsət elə düşən qanadlı quşdur,
Dili olmasa da, kara gələr o.
Yolunu məqsədə yönəltmək xoşdur,
Yoxsa harayasa uça bilər o.

## VƏD

Vəd versən Vətənin harasında sən,
Gözlə, salmayasan dərinə vədi.
Nə olsa, iki daş arasında sən
Gərək yetirəsən yerinə vədi!

## TƏŞƏKKÜR

Deyirəm özünü yormasın əbəs,
Varsa təşəkkürü kağızda gəzən.
O qədirə timsal, qiymətə əvəz
Bircə baxışdan da duyulur bəzən.

## SEVİNC

Kiməsə qönçəli muradlar olar,
Şirin xəyallara daldırar sevinc.
Kiməsə açılan qanadlar olar,
Yerlərdən göylərə qaldırar sevinc.

## İLHAM

Min nəğmə desə də dəniz, çay, bulaq,
Sən nadir nəğməli çeşməsən, ilham!
Dünyanı gəzsən də sən oylaq-oylaq,
Vətəninə dönən nəğməsən, ilham!

## BALABAN

Yenə nə haraydır, yenə nə qıydır
Səsində çağlayan, yastı balaban?
Kükrəyən qırmızı xonçalı toydur,
Ya qara örpəkli yasdı, balaban?



## MAHNI

O hansı mahnıdır ürəkdən gələ,
Fəqət yer üzündə tanıya sərhəd?
Nə avaza baxır, nə də ki, dilə,
Qapısını açır mahnıya sərhəd.

## MİZRAB

Elə böyük deyil, dırnaq boydadır,
Pərdəni pərdədən aralar mizrab.
Ancaq sarı simə dəysə, qaydadır,
Daş ürəkləri də paralar mizrab.

## RÜTBƏ

İnsanı insandan ayıran çinlər
Həmişə ləyaqət məbədi deyil!
Şehlərdən ulduzlar qayıran çinlər
Quruyub gedəndir, əbədi deyil!

## QİSMƏT

Bayrağa and içən mərd əsgər kimi
Qismətin uğrunda döyüşmək olar!
Mahirdən də mahir bir zərgər kimi
Misləri zərlərlə dəyişmək olar.

## BƏXT

Zənn etmə dünyada həyat yolunun
Uğurlu-uğursuz təməlidir bəxt.
Xeyr! Mən deyərdim insan oğlunun
Məqsədə qovuşan əməlidir bəxt!

## PAXILLIQ

Biri hünəriylə zirvəyə qalxsa,
Sən paxıllıq etmə! Yalqız qalarsan.
O şəxsin başına gül-çiçək yağsa,
Sən qarın altdakı heykəl olarsan.

## SƏMİMİYYƏT

İnsan xoş niyyətlə gəlir cahana,
Həm ünsiyyət gəzir, həm də məhəbbət.
Səmimi olmasa insan insana,
Nə həqiqət yaşar, nə də sədaqət!

## SÜLH

Günəşi qucmağa qollar açılsın,
Qoyaq sabahın da təməlinə daş.
Hər yerdə bağlanmış yollar açılsın,
Bir odlu güllə də açılmasın kaş!

## ƏMANƏT

Dünya əmanətdir! Təravətini
Xətərdən qoruyaq əməlimizlə!
Gərək gedən nəslin əmanətini
Gələn nəslə verək öz əlimizlə!

## YOL

Sanma ki, qızım da, oğlum da mənim
Ərköyün, laqeyd, firavan yaşar.
Addımlar atdığım yolumda mənim
Fədakar, xeyirxah, nigaran yaşar...



## QOCALIQ

Sən demə zamanın qayçılarıyla
Çinar qamətlər də budalanarmış!
Sən demə həyatın acılarıyla
Piyalə gözlər də xırdalanarmış!

## NEKROLOQ

O əsrin himnini qoşdu qələmlə,
Sabahın sözünü dünən danışdı.
Yox! Zəngin ağılla, sadə görkəmlə
Hamının adından Vətən danışdı...

## ÇƏKİ

Dünyada ən böyük dərd, nisgil, fəğan,
Kasıblıq, qocalıq, xəstəlik olur.
Arzu da yerinə yetməyən zaman
O ağır yüklərə üstəlik olur.

## ARZU

Şeirim parlasa da odlu ilham tək,
Bu dünya məclisdir, sənətkar qonaq.
Nə danım, istərəm yaxşı adam tək
Özümü ansınlar yazımdan qabaq.

***1987.***




# Adsız dördlüklər



***

Dünya elə böyük, elə böyükdür
Gəzməsən, görməsən, göz təzələnməz.
Dünya elə müdrik, elə müdrikdir
Duymasan, yazmasan, söz təzələnməz.

***

Bir-birinə söykək zirvələr çoxdur,
Yalnız qarlısına uca deyirlər.
Başında bir dənə ağ tükü yoxdur,
Ancaq ki, dünyaya qoca deyirlər.

***

Dünya bir zəmidir! Ətirli külək
Nə deyir nəğməli bülbüllər kimi?
İnsanlar bərabər olsunlar gərək,
Bir boyda ucalan sünbüllər kimi.

***

Hər yerdə, hər zaman dərddən uzaq tək
Bir xoşbaxt güzəran diləmiş insan.
Nəvazişə möhtac körpə uşaq tək
Arzunu ümidə bələmiş insan.

***

Kim desə taledən düşmüşəm uzaq,
İstəsə axtarıb tapar taleyi.
Sən də tap! Dalıyca sürünmə ancaq,
Yox! Yox! Sən dalınca apar taleyi.

***

Gurlamaq istəsən, gurla cəngi tək,
Ətəkdə dayanma, zirvəyə yollan.
Sallanmaq diləsən zəfər zəngi tək,
Ətəkdən sallanma, zirvədən sallan!

***

Gərək qadir insan bir qartal ola,
Yolu da buludlu zirvənin yolu.
O baxtın önündə dönməyə qula,
Baxtın özü ola insanın qulu.

***

İlhamla yaranan nadir dastandan
Torpağa düşsə də parlayar dür söz.
Söz çətinlik sevir! Vay o zamandan
Dilin bir söz deyə, ürəyin bir söz.

***

Ayaqlar qərəzlə buxovlananda
Zirvəyə yol açmaq hünər istəyir.
Gözlərdə ədavət alovlananda
Qarşısından qaçmaq hünər istəyir.

***

Dünya bir süzülmüş çuvala bənzər,
Burdan çitəyərsən, ordan sökülər.
Davalar alışan tonqala bənzər,
Odu neçə-neçə yurda tökülər.

***

Toplar dağlara da təlatüm salar,
Susar bir barışıq sükutu kimi.
Dəlik-dəlik torpaq arada qalar
Ana təbiətin tabutu kimi.

***

Nankor insanların qızdıqca gözü,
Talanlar yaratdı zəngin dünyada.
Bəşəri yaşadan dünyanın özü
Dilənçiyə döndü əngin dünyada.



***

Dava nədir? Ocaq! Yanıb sönsə də,
Sonra haradasa yenə alışır.
Uzun sülh daimi əhdə dönsə də,
Hələ arxivlərdə toza qarışır.

***

Davalı dünyada sonuncu səngər
Hələ indiyədək qazılmayandır.
Həmişəlik sülhdən danışan əsər
Hələ indiyədək yazılmayandır.

***

Yanıram, sürüşkən qeyrətini də
Bir ovuc tamahkar itirir tamam.
Bu boyda dünyanın ləzzətini də
Qeyrətsizlər çəkir hər səhər-axşam.

***

Nəhəng örnək doğur böyük mənadan,
İnsan o örnəkdən daim dərs alır.
Cəsarət atadan, ismət anadan,
Qeyrət ikisindən yadigar qalır.

***

Ahıllaşan dağın zirvəsi qarsa,
Yenə parlayacaq sıxlaşan çəndə.
Ata görkəmimdə yaxşı nə varsa
Öz övladlarıma vermişəm mən də.

***

Yazı davam edir ömür zirvəmin,
Məni sevindirir muştuluq kimi.
Təzə diş çıxaran körpə nəvəmin
Damağı qabarır tumurcuq kimi...

***

İnsanlar, dərindən fikrə gedin ki,
Külfət ocaqdırsa, uşaq közüdür.
İnsanlar, dünyaya hörmət edin ki,
Çoxuşaqlı ana dünya özüdür.

***

Dünyada sınaqlar çox olmuş, fəqət
Çörək sınağına sınaq çatmamış.
Zəmilər yetirib ac qalan millət
Dərdini yazdıqca varaq çatmamış.

***

İnsan əllərini qaldırıb göyə
Yalvara-yalvara yağış diləyər.
Yağış yağmaz... Torpaq yanmasın deyə
İnsan gözlərindən yağış çiləyər.

***

Həyatda nə varsa, azadlıq dilər,
Sanma elə-belə axar göz yaşı.
Yox! Qara bəbəyi oduyla dələr,
Sanki azadlığa çıxar göz yaşı.

***

İzləri qalsa da müsibətlərin,
Qürurlar doğurur növraq dünyada.
İstiqlal qazanmış məmləkətlərin
Hər şeyi sayılır bayraq dünyada.

***

Ana dilim nədir? Ellər içində
Gah nərəm, gah da ki, sükutumdur o.
Yox! Hər şeydən qabaq dillər içində
Mənim mənsubiyyət pasportumdur o.



***

İnqilab! Qadirlər qadiri sənsən,
Gözümdən keçərəm, səndən keçmərəm!
Zamanın ən böyük şairi sənsən,
Sözümdən keçərəm, səndən keçmərəm!

***

Kim deyir sirr dolu məharətilə
İllər arasında zaman körpüdür?
Yox! Tarixə dönmüş dəyanətilə
Zamanın özünə insan körpüdür.

***

Qar nigaran yağır... Xoruz var altda,
Şaxtamı keçirsin sinəsindən o?
Yox! Xoruz üşümür! Sanki qar altda
Pipik yox, od asıb çənəsindən o.

***

Dünyada ən möhkəm dayaqdır inam,
Üstündə yüksələr ən ağır binə.
Öz qadir gücünə inanan adam
Başına göy uçsa, yıxılmaz yenə.

***

Barmaqları üstə tufan at çapsa,
Dağları qaldırar ellər yerindən.
Ovcunun içində zəlzələ qopsa,
Əllər ayrılmasın biri-birindən!

***

Nəğmə yaxşı şeydir təmasda, insan!
Gərək neçə-neçə not taraz gələ.
Vay ondan, bir nəğmə oxunan zaman
Hərənin ağzından bir avaz gələ.

***

Vay o zamandan ki, alovlu səslər
Soyuya-soyuya sazaqlaşalar.
– Birlik! – deyə-deyə yığışan kəslər
Get-gedə birlikdən uzaqlaşalar.

***

Arzu bir dənizdir, fırtınası var,
Ancaq haradasa sahili yoxdur.
Hansı arzunun ki, təmənnası var,
Səmimiyyət adlı mənzili yoxdur.

***

Qismət qapısını açanda zaman
Payı gah səadət, gah fəlakətdir.
Möhkəm iradənin özü də inan
Şəxsiyyət içində bir şəxsiyyətdir.

***

Deyirsən mərd səsin qıylar içində
Mənim ən ülfətli dür bulağımdır.
Sənin misraların toylar içində
Mənim ən qiymətli boyunbağımdır.

***

Dünyada dağ üstdə qoysa dağ, insan,
Şöhrət nəğməsinə dönər zəhməti.
Gəzər alnı açıq, üzü ağ insan,
Daha bir kimsəyə olmaz minnəti.

***

Minnət olan yerdə təqdir olmayır,
Təlaş olan yerdə cürət olmayır.
Qəflət olan yerdə tədbir olmayır,
Sərhəd olan yerdə vəhdət olmayır.



***

Həyalı insanı fağır görəndə
Hücuma başlayır amansız fələk.
İnsanın halını ağır görəndə
Özünü qabağa verər mərd ürək.

***

Sanki lal yansa da ülkər dərində,
İşığı talanır nəhəng qəndil tək.
Ürək gizlənməsə əgər dərində,
O da talanmazmı zəngin mənzil tək.

***

Ürək möcüzədir! Geniş otağa
Şey dolsa, az qalar dağıla otaq.
Özündə dünyanı başdan-ayağa
Yerləşdirən ürək partlamır ancaq.

***

Elə ağarır ki, dan yeri, sanki
Təmiz ana südü səpmiş üzünə.
Günəş doğmasa da ürək, sən yan ki,
Halələrin düşsün insan gözünə.

***

Ürək təşnədirmi? Bir ehsan kimi
Onu buz suyuyla doyursun bulaq.
Yoxsa təşnə ürək bir nadan kimi
Bilməz susuzluqdan nə çəkib dodaq.

***

Dayan! Əsmə! Dayan! Ey soyuq külək!
Sızlama qəm dolu həzin nəva tək.
Onsuz da dünyada sevgisiz ürək
Daim soyuq olur quşsuz yuva tək.

***

Kim yazıb ilk sevgi qəzəllərini?
Axır ki tapılar, gizli qalmaz, yox.
Bütün yer üzünün gözəllərini
Yalnız sevmək olar, almaq olmaz, yox!

***

Kim istər yaşasın nigaranlıqla,
İsti göz yaşından dəniz doğulsun.
Yurdumda oğullar qəhrəmanlıqla,
Qızlar gözəlliklə əkiz doğulsun!

***

Kifir gözəlliyə baxır qıraqdan,
Sanma gözəlləşən hissə bürünür.
Kifirin gözünə bəlkə nahaqdan
Gözəllik özü də kifir görünür.

***

Bütün zamanlarda şux, möhkəm, gözəl
Şeylərin zamini səmimiyyətdir.
Yaslı olanda da hər kəsə əvvəl
Gülər üz göstərmək mədəniyyətdir.

***

Deyirlər ki, mərdin zəif damarı
Gözəl qadınıdır! Rəqib çalışar
Onu kəssin... Mərdin zərif damarı
Onda bir şimşəyə dönüb alışar.

***

Gözəlin qüruru nədir dünyada?
Təravətlə dolu öz gözəlliyi!
Ancaq elə o da gedir dünyada,
Bəs nə qalır? Yalnız söz gözəlliyi!



***

Çiçək ətir yığır... Diqqətli göz də
Mənalı söz yığan çiçək kimidir.
Zərlə yazılsa da mənasız söz də
Ağızda ləzzətsiz xörək kimidir.

***

Sən neçə zəkalı insan içində
Elə söz danış ki, sıxılmayasan.
Sən neçə göz baxan meydan içində
Elə at oynat ki, yıxılmayasan.

***

İki mərd döyüşsə iki qılınc tək
Nə heyranlıq pisdir, nə harayçılıq.
Bəs qorxu? O nədir? Başa qaxınc tək
Ağızlarda gəzən bir rüsvayçılıq.

***

Kiminsə önündə başdan-ayağa
Xidmətə bələmə ülfətini sən.
Fəlakətlə gəlsən qabaq-qabağa,
Səadətə döndər cürətini sən.

***

Kim deyir mahaldan mahala düşmə,
Gəz! Yeni tanışlar qardaşın olsun.
Yollar pis olarsa, xəyala düşmə,
Təki sınanılmış yoldaşın olsun.

***

Həmişə düşməndən qorunur. Ancaq
Dosta arxalanır insan dünyada.
Bəs qorxaq dost nədir? Sönmüş bir ocaq,
Düşməndən də pisdir, inan, dünyada.

***

Haçansa, hardasa haqlı olsa da
Qorxaq yaltaq olur, yaltaqsa qorxaq.
Arxası dünyaya bağlı olsa da
Yaltaq qorxaq olur, qorxaqsa yaltaq.

***

Elə tərifləyir yaltaq ölünü
İnsan qəti fikrə gəlmək istəyir.
Köksündə qurudub nəğmə gölünü
O da diri gözlü ölmək istəyir.

***

Nəğmə, gözəl nəğmə məmnun olsa da
Dodaqlardan əvvəl xallardan keçir.
Həyat, şirin həyat uzun olsa da
Ömürlərdən qabaq yollardan keçir.

***

Bərəkət mehriylə sənə baxsa da
Günəş elə günəş, qar elə qardır.
Min gözəl avazlı alət çıxsa da
Kaman elə kaman, tar elə tardır.

***

Tar susar... Məclisə baş da əyər ki,
Bir az nəfəs dərsin yorğun uşaq tək.
Mizrab susan tara elə dəyər ki,
Təzədən közərtsin sönən ocaq tək.

***

Şuşada bir bulaq çağlayanda da
Oxuya-oxuya çağlayır ancaq.
Uşaqlar beşikdə ağlayanda da
Muğamlar üstündə ağlayır ancaq.



***

İnsanın səsidir ən qüdrətli səs,
O səsin odunda alışar tufan.
Öz qorxaq içində əyilməyən kəs
Şimşək altında da əyilməz, inan!

***

Daldan kürəyini ox izləyəndə
Kimisə gözləmiş qul da həyatda.
İnsan intizarla yol gözləyəndə
Neçin yola gəlmir yol da həyatda.

***

Şimşək göyə-yerə od çiləsə də
Sən demə gecəymiş, qaranlıq gecə.
Gəmidə əyləşən səhv eləsə də
Gəmiçiylə necə dalaşsın, necə?

***

Müdrikin zövqüdür ən düzgün meyar,
Gərək zirvə özü yolla ölçülə.
Vay o gündən itə səd, sərhəd, hasar,
Yer üzündə hər şey pulla ölçülə.

***

Sanma yoxsulların tikanlı bağı
Yazda çiçəklənib ürək açmışdır.
Yox! Yox! Varlıların səhmanlı bağı
Qışın özündə də çiçək açmışdır.

***

Dünyada hər adam gedir bir yolla,
Kimi gözü acdır, kimi gözü tox.
Nəfsi yerə-göyə sığmayan molla
Nəyi desən udar, nəfsinisə yox.

***

Sanma neçə haram zinət içində
Parlayan büsatın paxırı yoxdur.
Yadında saxla ki, rüşvət içində
Yol azan adamın axırı yoxdur.

***

Dərin düşüncəli insan beyni tək
Nadir maqnitafon harda var, harda?
Ürəyindən gələn səsin eyni tək
İnsan nə eşidib, yazıbdır orda.

***

Sən eyniliyə bax! Millət içində
Üzündən tülküyə bənzəyən adam,
Öz təmasıyla da ülfət içində
Hiyləgər tülkünü andırır müdam.

***

Yaxşı-yaxşı eşit qulağınla sən,
Kimsənin qisası kimsədə qalmaz.
İlanı basmasan ayağınla sən,
O atılıb səni başından çalmaz.

***

Qəzəb yaman şeydir! O tüğyan etsə,
Nahaqqı yandırar öz atəşilə.
O hansı ürəkdə məzara getsə,
Məzarı partladar düz atəşilə.

***

Şimşəkləşən nifrət elə tufandır
Arxalı dağı da sındıra bilər.
Şimşəkləşən nifrət elə vulkandır
Dənizi içindən yandıra bilər.



***

Şaiyə dəhşətdir! Yıxdığı evi
Fələyin özü də dikəldə bilməz.
Bir şimşək nəfəsi toxunan şivi
Min günəşli yaz da dirçəldə bilməz.

***

Açıq gözlərində təbəssüm bitən
Bağlı yaxasında gülü neynəyir?
Öz üzündə hüsnü əbədi itən
Pəncərəsi üçün tülü neynəyir?

***

Dodağı nəğməli bayram günündə
Çalıb oynamaq da bir səadətdir.
Ayaqsız adamın gözü önündə
Oynamaq özü də bir qəbahətdir.

***

Oxşaya-oxşaya ovutmasalar
Dil lənət yağdırar, əsəbsə xəta.
İdrakın seliylə soyutmasalar
Od yanğın törədər, qəzəbsə xəta.

***

Qeyrətdən yoğrulmuş qədim kişilər
Yalnız yaraşıqçın papaq qoymamış.
Həmişə nəfsinə hakim kişilər
Özgə malı üstə barmaq qoymamış.

***

Hamısı ömrümə mehmandır deyə
Bütün fəsilləri sevirəm düzü.
Ancaq başdan-başa əlvandır deyə
Bahara dikilir şeirimin gözü.

***

Demə oba gəldi yaylaqdan... Lakin
Buz bulaq yaylağın yaşlı gözüdür.
Yaylaq ağlamasın! Əbədi sakin
Oba deyildir ki, yaylaq özüdür.

***

Nə olsun? Boz palıd şəfəqdən deyil,
Altı sarı-sarı xəzəldir tamam.
Sanki füsunkar Ay üfüqdən deyil,
Palıdın altından doğmuş bu axşam.

***

Nə qədər çox olsa dilbər guşələr,
Ölkənin o qədər artar dəyəri.
Nədir bu dünyada zümrüd meşələr?
Qara torpaqların yaşıl ciyəri.

***

Bu əlvan köynəkli torpağımızda
Sanki saz ritmiylə axır sular da.
Səması şimşəkli torpağımızda
Sanki şimşək-şimşək çaxır sular da.

***

Şahlar gəlib-gedir zaman içində,
Zəminin yerində nə qalır? Küləş!
Əbədi şah dağdır! Cahan içində
Dağın taxtı özü, tacısa Günəş!

***

Qayğıyla dolu dağ məğrur igiddir,
Başındakı qala qeyrət çələngi.
Qızaran günəşsə sanki şahiddir,
Necə dəfn eləsin dağ o nəhəngi?



***

Kim bilir dünyada nə qədər ocaq
Haçansa-hardasa yanıb-sönübdür.
Yarandığı gündən dünyada ancaq
Əbədi ocağa Günəş dönübdür.

***

Çağlayan şəlalə sabit qayanın
Başında titrəyən ağ kəkilidir.
Yox! O mərd baxışlı sakit qayanın
Səbatdan danışan ilk vəkilidir.

***

Təbiət yaxana daş-qaşlar taxıb,
Yoxsa nəğmə deyən sərrafsan, bulaq?
Sənə gözəllərin gözümü baxıb?
Ulduz karvanından şəffafsan, bulaq!

***

Qazılmış məzara bənzəyir dərə,
Baş daşı nə olub? Bir yalçın qaya.
Çənli gözlərini dikərək yerə
Sanki yas saxlayır qurumuş çaya.

***

Kəsilmiş ağacın kötüyü nədir?
Özündən yadigar qalan baş daşı.
Kötük nə dil açır, nə giley edir,
Üstünə buludlar tökür göz yaşı.

***

İsti yaş içindən harasa baxan
Göz nədir? İnamla yanan bir atəş.
Yox! Ağ dalğaları sahilə axan
Dənizin qoynundan doğan bir günəş!

***

Kim qış gecəsində torpağa baxsa
Nə gəzər? Suyun da üzündə işıq.
Ancaq şöləlænən ocağa baxsa
Könlündə od yanar, gözündə işıq.

***

Diqqətlə yoxlayıb yolu gecədə
Sular dalğa-dalğa yeriyib axır.
Yox! Sanki ətirlə dolu gecədə
Ay özü sularda əriyib axır.

***

Külək nəfəsiylə piləyib nədir,
Sayrışan ulduzlar elə böyüyüb?
Tanrı özü uğur diləyib nədir,
Salxım kəhkəşanda gilə böyüyüb.

***

Hilal parlasa da bulud içində
Sanki azad deyil, dara düşübdür.
Dəniz uyuyarkən sükut içində
Tənha qızıl balıq tora düşübdür.

***

Yazdır... Sanki göydə ətirlənib Ay,
Bir qız pəncərədən baxır bu axşam.
Yox! Sanki ilhamla bədrlənib Ay
Açıq pəncərədən çıxır bu axşam.

***

Gecə hikmət dolu bir şeiriyyətlə
Təbiətə baxır qara qız kimi.
Deyirəm dəniz də bir məhəbbətlə
Gecəni yalasın şəvə duz kimi.



***

Qonşuluq ünsiyyət deyildir məgər?
Yaxın olmasaydı dənizə üfüq,
Leysan içində də çimsəydi əgər,
Bu qədər çıxmazdı təmizə üfüq.

***

Sanma təranəsi aləmi basan
Quş nə bəstəkardır, nə də nəğməkar.
Zərif tor toxuyub divardan asan
Hörümçək özü də bir sənətkardır.

***

Əmək dünyasında unutma ki, sən,
Gül əkəninindir, söz yazanının.
Kitaba mehrini qurutma ki, sən,
O yalqız ruhudur öz yazanının.

***

Bilirəm arabir yorulsam da mən,
Hər şeyin təməli zəhmətdir yenə.
Öz qaynar təbimə vurulsam da mən,
Uğurun heykəli zəhmətdir yenə.

***

Deyirlər ki, şair hər nemətdən çox,
Yazdığı şeirlə öyünməlidir.
Ancaq nəbzi daim tək özündə yox,
Həm də misrasında döyünməlidir.

***

Müğənni sayılmaz qəsdən oxuyan!
Haçan alovlandım sənətdə mən də,
Nə gördüm? Zildən yox, pəsdən oxuyan
Müğənni olmuşam qürbətdə mən də.

***

Gülüş dolu sözlər dinsə yanında
Namərd də qımışar, mərd də qımışar.
Ağrılar at çapsa insan canında
Dərd də sırtıqlaşar, dərd də qımışar.

***

Səsim çatmayanda doğma məkana,
Ürəyim darıxdı həsrət içində.
Şeirlərim dönüb müdrik həyana
Mənimlə danışdı şəfqət içində.

***

Zənn etmə rəngləri sayır qələmim,
Bu nə niyyətimdir, nə də adətim.
Yaşıl ilhamımdır, qara matəmim,
Qırmızı bayramım, sarı həsrətim.

***

Ömrünü alovdan biçən kəs üçün
Həyat döyüş dolu kitaba dönər.
Gəncliyi zillətdə keçən kəs üçün
Qocalıq özü də əzaba dönər.

***

Dağlara nə duman, nə də çən düşsün,
Yoxsa dərələrə gül yox, qar dolar.
Qoyma tellərinə bir ağ dən düşsün,
Sonra qara saçın ağ tarla olar.

***

Ayrılsa uşaqlıq adlı təməldən,
Gənclik illərini tutmasa uca,
İnsan sanar bəlkə elə əvvəldən
Qoca doğulubdur anadan, qoca.



***

Ağrı mərd insanı əldən salanda
Ömrü də, günü də ahuzar olur.
Əzabın çəngindən onu alanda
Ölüm müqəssir yox, xilaskar olur.

***

İnsan var, sağlamkən dünyadan gedir,
İnsan var, xəstəykən tufan qoparır.
Yox! Mən inanmıram! Xəstəlik nədir?
İnsanı dünyadan əcəl aparır.

***

Amansız ölümün tamahkar gözü
Nadir istedada daha tez düşür.
İstedad – Əlvida! – deyir – yer üzü,
Köhnə qəbristana təzə iz düşür.

***

Haraya baş alıb gedir qocalıq?
Dalda qoyur gülü, daşı, torpağı...
Ah, bildim həyatda nədir qocalıq?
Ömrün axırıncı dayanacağı.

***

Ömrün həm yazında, həm də qışında
Sovqat da, töhfə də, pay da ülfətdir.
Ancaq haradasa qoca yaşında
Kiməsə yük olmaq böyük dəhşətdir.

***

İnsana havayı verilən ömür
Gör nələr yaradır dünyada, nələr?
Haçansa, hardasa gərilən ömür
İstəsə ox nədir? İldırım ələr.

***

Bir zaman gözəllər saxlayıb ayaq,
Dalımca baxardı ceyranlar kimi.
Yaş keçli... İndi mən baxıram, ancaq
Gözəllər dalınca heyranlar kimi.

***

Yazını gözlüklə oxuyuramsa,
Həyatı gözlüksüz oxuyuram mən.
Yollardan payəndaz toxuyuramsa,
Sözlərdən səhnəcik toxuyuram mən.

***

Qadasını alım mən gözlərimin,
Vətəni gəzdirir bəbəklərində.
Bir leysan gizlənir şən gözlərimin
Vüsal müjdəçisi şimşəklərində.

***

Bir sözüm Bakının ürəyindəsə,
Bir sözüm Təbrizin ürəyindədir.
Bir əlim Səhəndin ətəyindəsə,
Bir əlim Kəpəzin ətəyindədir.

***

Vətən! Həsrət uçrum deyildir məgər?
Neçin aramızda dolmamış qalar.
Deyirəm hər sözüm bir nöqtə qədər
Uçrumu doldursa, könlüm şad olar.

***

Koroğlu qəhrəman doğulmasaydı
Uçsa da neynərdi Qır atı, Vətən?
Yanğılı nisgillə yoğrulmasaydı
Fəryada dönməzdi bayatı, Vətən!



***

Sənə şeir yazır hər təbi bulaq,
Hər şeir bir təzə bardır, Təbrizim!
“Təbriz şeirləri” içində ancaq
Mənim öz “Təbrizim” vardır, Təbrizim!

***

Baxışın anamın mərd baxışı tək,
Min yol ağ saçından öpmüşəm, Vətən!
Sən odda yananda yaz yağışı tək
Sinənə göz yaşı səpmişəm, Vətən!

***

Dəhşət o deyil ki, zillətli qürbət
Sənin büsatını ala əlindən.
Yox! Dəhşət odur ki, minnətli qürbət
Bütün həyatını ala əlindən.

***

Arada sərhədə dönsə də nisgil,
Sənin görüşünə gələrəm, Vətən!
Qu tüküylə dolu yastığa deyil,
Daşına baş qoyub ölərəm, Vətən!

***1988.***




***

Dünya inək deyil! O sağılsa da
Havalı, çörəkli, sulu dünyadır.
Haçansa anadan tək doğulsa da
Hayıf təzadlarla dolu dünyadır.

***

Yelinləri dolu inəklər kimi
Dünya zaman-zaman sağıla bilər.
Ancaq tufan döymüş pətəklər kimi
Balları höcətlə dağıla bilər.

***

Gərək müdrik xalqlar min-min maraqda
Biri-birisinə güzəştə getsin!
Zorla nəfəs alan yorğun torpaqda
Daha mərmilər yox, sünbüllər bitsin!

***

Bəşər tamaşaçı, dünya səhnədi,
Sazıyla əbədi dinən kimdi ki?
Dünya təzəliyi geyən köhnədi,
Köhnəlib təzəyə dönən kimdi ki?

***

Biri təntənəylə gəlir dünyaya,
Biri sükunətlə dünyadan gedir.
Gah gerçəyə dönüb, gah da röyaya
İnsan varlığını dəyişir, nədir?

***

Sanma parıltıya uyan insanı
İlğım təbəssümlü sərvət yaşadır.
Həyatda bir nişan qoyan insanı
Xəzinə yaşatmır, sənət yaşadır.

***

Deyirlər iqlimlər cahan üzündə
Getdikcə qızışır ocaqlar kimi.
İnsan baxışısa insan üzündə
Getdikcə soyuyur sazaqlar kimi.

***

Yolçular tufana talan deyirsə,
Bil ki, o keçəndir, qalan deyildir.
Düşmənlər doğruya yalan deyirsə,
Bil ki, o doğrudur, yalan deyildir.

***

Sən demə: – Düşmənim hanı dünyada?
Ömrümün dost dolu bir gülşəni var.
Yaxşını-yamanı tanı dünyada,
İtin də həm dostu, həm düşməni var.

***

Əvvəllər ülviyyət yolu – şöhrəti
İki güclü qolla yaratdı insan.
Sonralar "səadət dolu" şöhrəti
Ya hiylə, ya pulla yaratdı insan.

***

Müqəddəs İsanı yalnız bir kərə
Çarmıxa çəkdilər, o məşhur oldu.
Ömrümü çarmıxa çəkdisə hərə,
O məşhur olmadı, yox, məğrur oldu.

***

Fəhlə də, şair də canlı insandır,
Sorma hansı kövrək, hansı mətindir.
Qayanı külünglə yarmaq asandır,
Qayanı qələmlə yarmaq çətindir.



***

Həssasam deməsin heç kəs dünyada,
Məhəbbət duyanın, dərd çəkənindir.
Nə insan qəribdir, nə səs dünyada,
Ayrılıq salanın, sədd çəkənindir.

***

Bir gün ayrılıqdan yoğrulan həsrət
Daim haray çəkər tufanlı qış tək.
Yalnız siyasətdən doğulan həsrət
Dövlət sərhəddində durar lal daş tək.

***

Mənə dedilər ki, az alış, az yan,
Öz odun yandırar yoxsa özünü.
Ancaq mən alışıb – yandıqca hər an
Yatmış yurd heyrətlə açdı gözünü.

***

Mən günəş gəzəndə sanma tufanda
Sozara-sozara ümidim sönüb.
İynə deşiyindən keçən güman da
Mənim ürəyimdə günəşə dönüb.

***

Məni səngərlərdə döyəndə tufan,
Səsimi taleyim eşitdi ancaq.
Hamı ocağıyla isinən zaman,
Məni yaralarım isitdi ancaq.

***

Eşitməsin deyə səsimi bəşər,
Məni susdurmaqdan doymadı düşmən.
Azadlıq yolunda istəyim qədər
Məni yanmağa da qoymadı düşmən.

***

Mənə öz taleyim pislik etdi... Mən
Çalışdım yaxşılıq edim hamıya.
Dilimdə nə qədər nəğmə bitdi... Mən
– Nəyim var, sizindir! – dedim hamıya.

***

Kim bilmir qayğıyla dolu həyatda
Nəşə də əzabdan doğulur ancaq.
Kim bilmir yanğıyla dolu həyatda
Ağı da rübabdan doğulur ancaq.

***

Göz yaşında axan hər müsibəti
Yanan hissimizlə niyə qurudaq?
Məgər bilməyirik hər həqiqəti
Haqqımız yoxdur ki, tamam unudaq?

***

Nənəm deyərdi ki, bağdakı ağ tut
Yerdə noğul dolu ağ süfrə salıb.
Sən də bir noğulsuz insana əl tut,
İnsana əl tutmaq Əlidən qalıb.

***

Şimşək dolu göydə bir qızıl quş tək
Uçur, parçalanır, dağılır tamam.
Bəs niyə amansız bəlaya tuş tək
Boş yerdə xoflanır mübariz insan?

***

Göydə qanadını çalanda bulud
Sevinc ələnmirmi yağışlarından?
Yerdə gözlərinə dolanda bulud
Neçin kədər yağır baxışlarından?



***

İnsan göz yaşını boğsa da meydə,
Yenə də sulanır odlu baxışı.
İldırım yananda o boyda göy də
Gözündə saxlaya bilmir yağışı.

***

Gündüz də, gecə də çağladı bulaq,
Avazı təranə, suyu nur oldu.
– El! – deyə o qədər ağladı bulaq,
Gözləri tutulub axır kor oldu.

***

Nar intihar edən məsum insan tək
Özünü ağacdan tulladı yerə.
Örpək boyda duman qaçdı ceyran tək,
Narın al qanıyla qızardı dərə.

***

Dünyada hələ də qurban görsək də
Qeyrət itaətə qurban olmasın!
Neçə-neçə sudan ehsan görsək də
Bircə göz yaşından ehsan olmasın.

***

Nə fəslə, nə hüsnə, nə boya baxan
Külək silkələyir ağacı yenə.
Yaşıl budaqlarsa ləngərlə axan
Yaşıl dalğaları andırır mənə.

***

Ekranda ağ pambıq yığan maşından
Yerə dalğa-dalğa ağ pambıq axır.
Sanki ağ şəlalə qaya başından
Nədənsə gah soyuq, gah isti axır.

***

Sən demə arzuya baş əyməz meyil,
Odla su birləşməz sükut içində.
Bəs şimşəklə yağış odla su deyil?
Nə təhər birləşir bulud içində.

***

Ağac kölgəsinə sığınma, yetər,
O da möhtacıdır bağın dünyada.
Kölgəyə sığınmaq istəsən əgər,
Dağın kölgəsinə sığın dünyada.

***

Dağların başında çən olmayanda
Zirvələr göylərə ağ işıq salar.
Hisslər ağıllarla tən olmayanda
Uğur tamamlanmaz, yarımçıq qalar.

***

Ağılsız ehtiras yanan şimşəkdir,
Bağırsan, səsini eşitməz, inan.
Ehtirassız ağıl soyuq əlcəkdir,
Bir donmuş əli də isitməz, inan.

***

Deyirəm günəşi sönən ürəkdən
Şamı şölələnən kaha yaxşıdır.
Yolda qaranlığa lənət deməkdən
Bir fənər yandırmaq daha yaxşıdır.

***

Dumana dərədən qalxan his demə,
O zirvədən doğsa, dumandır yenə.
Zindana nə yaxşı, nə də pis demə,
O saraya dönsə, zindandır yenə.



***

Min əlin çatmayan dağdan hardasa
Bir ayağın dəyən qaya yaxşıdır.
Min nisgillə dolu həyat dardasa,
Bir ümidlə dolu röya yaxşıdır.

***

Əmək sevincini süzmək istəsən
Maraqla həm şumda, həm biçində gəz.
Ancaq dəyərini gəzmək istəsən
Başqa yerdə deyil, öz içində gəz.

***

Uludan da ulu həyatımızda
Müjdə fəryaddan da yoğrulur bəzən.
Keşməkeşlə dolu həyatımızda
Uğur təzaddan da doğulur bəzən.

***

Fəsadlar törədən hərəkətilə
– Üz qarası pisdir! – deyibdir bəşər.
Hər ağ üzlü qışı hərarətilə
Qara üzlü kömür isitmir məgər?

***

Sanma qara qara, ağ da ki, ağdır,
Yox! Qaranın şəsti, ağın feli var.
Sanma ölü ölü, sağ da ki, sağdır,
Bil ki, ölüdə sağ, sağda ölü var.

***

Yamanlar dünyada möhkəm yer salıb,
Yaxşılar ulduza çevrilib axır...
Bəs meyvələr necə? Kalları qalıb,
Yalnız dəymişləri torpağa yağır.

***

Vicdanın gözləri kor olmasaydı
Kövrəlmiş ürəyi sındırardımı?
Gözlərin yaşları şor olmasaydı
Soluxmuş üzləri yandırardımı?

***

Baş nədir? Dünyamız boyda bir hikmət,
Özündə nə qədər növraq gəzdirir.
Sən də inan başa! Unutma fəqət
Başı da həmişə maraq gəzdirir.

***

Demə ki, qeyrət də silah deyildir,
Od saça... Yox! Bir an cürət yatmasın.
İnsanın yatmağı günah deyildir,
Təki içindəki qeyrət yatmasın.

***

Nifrət məhəbbətə çevrilməz məgər?
Kim deyir nifrət də nifrətdən doğar.
Yox! Dəli dəliyə qoşulsa əgər,
Göydən mələk deyil, dəyənək yağar.

***

Demirəm yerlə də, göylə də çarpış,
Göydən qızıllarla dolu küp düşər.
Demirəm canından dörd əlli yapış,
Kim bilmir, qorunan gözə çöp düşər.

***

Sən qartala dönüb buludu geysən,
Zirvənin başında bayraqlanarsan.
Sən bənövşə olub boynunu əysən,
Kolun dibində də ayaqlanarsan.



***

Kim deyir sarsılıb kövrəlsə insan
Möhtəşəm vüqara xəcalət olar?
Qorxunun quluna çevrilsə insan
İtaət nicat yox, qəbahət olar.

***

Xəyanətlə gəlsən qabaq-qabağa,
Gözündən üzünə gülüş saçar o.
Bir addım çəkilib getsən qırağa,
Sənin kürəyinə atəş açar o.

***

Ədalət uğrunda dinəsi olsan,
Səsin eşidilər tufan içindən.
Cəsarət köhləndir, minəsi olsan,
Salamat çıxarsan yarğan içindən.

***

Ürək alışanda mis manqal təki,
Odu qətrə-qətrə çıxar gözlərdən.
Ürək sıxılanda yaş dəsmal təki
Suyu damla-damla axar gözlərdən.

***

Hiss dolu ürəyin aynası gözdə
Bəlkə də damla yox, acı qabarır.
Dildən pərvazlanan bir şirin söz də
Gözdəki acını yuyub aparır.

***

Məğrur sərkərdədən kim bilmir məgər
Sadə təbiətli dühа yaxşıdır.
Dəmirə dönsə də iradə əgər,
Ürək yumşaq qalsa daha yaxşıdır.

***

Məsləhətin sözü bəlkəysə əgər,
Nümunənin yolu gödək deyilmi?
Müşkülün qıfılı yekəysə əgər,
Açarı minnətsiz kömək deyilmi?

***

Kim istər müşküldə qoya ürəyi,
Dünyada hər şeydən zirək insandır.
Bir an yumşalırsa qaya ürəyi,
Əzazil insan da kövrək insandır.

***

Ürək dedikləri nədir? Ülvi söz!
Bədəninsə mühüm ərazisidir.
Diqqətə inanan iki həssas göz
Ürəyin ən düzgün tərəzisidir.

***

Nadirdən də nadir mücrüdür ürək,
O min xəzinəyə dəyər dünyada.
Ürəkdə qışda da göyərən dilək
Mən yazlı dünyayam deyər dünyada.

***

Bəlkə də gah aydın, gah da qaranlıq
Uğurdan danışır söz ürəyində.
Ancaq sən diqqətlə dinlə bir anlıq,
Gör tale nə deyir öz ürəyində.

***

Möcüzə yaradır haraya baxsan
Rəssam boyasıyla, şair sözüylə.
Özgə çeşməyini gözünə taxsan,
Dünyanı görərsən özgə gözüylə.



***

Sanma od-alovlu şairdir o kəs,
Od-alov başqadır, hay-küy başqadır.
Səslərin içində seçilir hər səs,
Bilinir ya ahəng, ya züy başqadır.

***

Qəribə torpaqdır mənim torpağım,
Döşündə güldən çox şair bitirir.
Mənim də mübariz sənət növrağım
Əsərin üstünə əsər gətirir.

***

Şair var, nə adı, nə şöhrəti var,
Özünü bir ulduz sanır yerində.
Axı həm işığı, həm ülfəti var,
Daim sədaqətlə yanır yerində.

***

Güclü şeir yazan cəsur şairi
Ətəkdən zirvəyə qaldırar ilham.
Zəif şeir yazan məğrur şairi
Zirvədən ətəyə saldırar ilham.

***

Neçə-neçə dostum, arxam, köməyim
Məni dinlədikcə dolu salonda,
Sən də şeiriyyəti daşan ürəyim,
Neçə tarda dillən, neçə qarmonda.

***

Mən qoruya bildim qarlı tufanda
Naşı söz ordumun sıralarını.
Qoruya bilmədim sakit dövranda
Dalğalı saçımın qaralarını.

***

Nə qəm, qocalsam da özüm dünyada
Yaşım bilinməsin dan ulduzu tək.
Əgər həşəm olsa sözüm dünyada
Ətri pərvazlansın təzə arzu tək.

***

Xəyal dedikləri nədir? Bir ümman!
Ancaq nə suyu var, nə də sahili.
Dərinində üzən boğular, inan,
Bir adı yaşayar, bir də nisgili.

***

İnsanı dünyaya gətirən dövran
Görkəmi mənasız bilməsin gərək!
Hüsnü qırışlarla itirən dövran
Müdrik qocalığa gülməsin gərək!

***

Mən yanan günəşə baxanda, inan,
Sanıram günəş yox, ürəyim yanır.
Qarşıma bir namərd çıxanda, inan,
Sanıram arxamda kürəyim yanır.

***

Yanaqları pörtməz töhfə alanın,
Ülfətə çevrilər səxavət özü.
Çörəyi dizinin üstdə olanın
Həyası üzündən çəkilər düzü.

***

Qolun gücü nədir? Aşıb-daşsa da
Yalnız bir əsgəri öldürən güman.
Ağlın gücü nədir? Bəzən çaşsa da
Bütöv bir ordunu məhv edən tufan!



***

Özgənin şeirindən sıçrayan qorla
Kim oda döndərər şeirin dilini?
Ancaq vay o gündən sənin də zorla
Acı eləyələr şirin dilini.

***

Mərhəmət yaymayın! İstedadsızlar
Şinənə... Sıxıla istedadlılar.
Amandır! Qoymayın istedadsızlar
Yanında yıxıla istedadlılar.

***

Ömrü öz hüsnüylə bəzəyər şöhrət,
Həsəd aparanın bağrı çatlayar.
Sabun köpüyünə bənzəyər şöhrət,
Şəstlə qabarsa da yenə partlayar.

***

Dik zirvə olsa da ürəyə yatan
Şəstin öz yeri var, məkrin öz yeri.
Yaltaqlıq yoluyla zirvəyə çatan,
Alçaqlıq yoluyla qayıdar geri.

***

Bir dayaz düşünən, bir qara yaxan
Bağırdı: – Uçruma yıxıldım! – deyə.
Gözləri vardısa, önünə çıxan
Uçrumu o niyə görmürdü, niyə?

***

Yaltaq hər dostluğa qaldırsa da tost,
Getməz ürəyindən nigaranlığı.
Yaltaq kölə olar, mehribansa dost,
Yaltaqlığa qatma mehribanlığı.

***

Kim imkanlı məbəd deyibsə pula,
Sanıb qüdsiyyəti çoxdur dünyada.
Halbuki çirk əllər dəyibsə pula,
Ondan çirkin bir şey yoxdur dünyada.

***

Qızıl! Bəs o nədir? Üstü sikkəli
Sarı yarpaqdır! Qoy ucadan dinim!
O bəzən qılıqlı, bəzən hikkəli
Kiməsə arxadır, kiməsə qənim.

***

Səhra çarpışdıqca odlu günəşlə,
Alışa-alışa yanır üzü də.
Qızıla döndükcə qumu atəşlə,
Sanki günəşləşir səhra özü də.

***

Göy şimşəyi yerə atdığı zaman
Bir məşəl ucaldar insan – Yan! – deyə.
Sanki şimşək yerə düşəndə insan
Günəşi əlində qaldırar göyə...

***

Cığırlar dağları yaran qılıncdır,
Doğraya-doğraya harasa gedir.
Yoxsa bir-birini qıran qılıncdır
Döyüşdə dağlara səpilib nədir?

***

Döyüşçü ölərsə, anası torpaq
Həm döşəyi, həm də balıncı olar.
Vüqarla ucalan baş daşı ancaq
Torpağa sancılan qılıncı olar.



***

Şəhidlər getsə də səndən intizar,
Yenə sabahına növraqdır, Vətən!
Torpağın üstündə bizə iftixar,
Torpağın altında dayaqdır, Vətən!

***

Qəsbkar hər yerdə iz qoysun deyə,
Silahla diyardan-diyara düşər.
Bəlkə torpaq yeyib o doysun deyə
Torpaqla dolacaq məzara düşər.

***

Kim bilmir uzundur ölüm növbəsi,
Nə əvvəli vardır, nə də axırı.
Qorxu nəğməsidir insan tövbəsi,
Ölüm ayağında açar paxırı.

***

Qəbristan nə olar? Tövbə məkanı,
Yanından ötən kəs bir anlıq durar.
O gün bir kimsəyə peşman vicdanı
Nə pislik eləyər, nə zərər vurar.

***

Göz yaşıyla dolu bir tərənnüm də
Gülüş arzulayır obaya-elə...
Bəs niyə sükutlu bir təbəssüm də
Yaslarda qəbahət sayılır hələ.

***

Yollar dünya görmüş bir ana kimi
Nə qədər yolçunu yola salıbdır.
Özləri toz basmış bir ayna kimi
Elə yerindəcə düşüb qalıbdır.

***

Min il adlı-sanlı şəxsiyyət kimi
Heykələ dönməkdən yaxşıdır, inan,
Bir gün adsız-sansız təbiət kimi
Nəfəs ala-ala yaşaya insan.

***

Kim bilmir mehriban ülfətimizdə
Nə dövlət, nə də ki, şöhrətdir salam.
Ancaq təmənnasız niyyətimizdə
Bəlkə də ən böyük hörmətdir salam.

***

Mən elə əllərdən öpərəm inan,
Təmiz ürəkdən də təmiz olalar.
Yoxsa yandırarlar məni hər zaman
İstəyir sahilsiz dəniz olalar.

***

Nədənsə yetimə gəl deyənlər çox,
Çörək verənlərsə az olur, dostlar!
Millət ayrılmasın bu acdır, o tox,
Yaz bütöv hüsnüylə yaz olur, dostlar!

***

Topu nə qədər bərk vursalar yerə,
Elə o qədər də çox qalxar göyə.
Daim büdrəyirsən... Sən də bir kərə
Şəstlə yeri! – daha möhkəməm deyə.

***

Tarixdə özünü forsla öyməyən
Bir pəhləvan varmı? Danışsın çağlar!
Arxası bir yol da yerə dəyməyən
Pəhləvan dağlardır, pəhləvan dağlar!



***

Dağda uçrumdan da insan keçir ki,
Məşhur bulaqları bir də yoxlasın.
Büllurlaşmış sudan bir də içir ki,
İçini həmişə təmiz saxlasın.

***

Unutma! Ürəyin odudur busə,
O ocaq yandırmaz meydan içində.
Ancaq üzə dəysə o qoymaz əsə
Zəifləmiş vücud tufan içində.

***

Özgə gələ-gələ dost niyyətilə
Qohum olar! Dili hörmətlə dinər.
Bəs qohum? O donar buz ülfətilə
Gəlməyə-gəlməyə özgəyə dönər.

***

Qoymayın müdriklər fikirlərinin
Tünlüyündə aza bir naşı kimi.
Axı güllərin də ətirlərinin
Hökmü baş hərlədir əl daşı kimi.

***

Gül necə nikbindir! Qar tufanında
Gülür dodağı da, gülür gözü də.
Bəlkə ona görə söz karvanında
Güldən yaranıbdır gülüş sözü də.

***

Havası özündən baha dünyada
Günümsən, ayımsan, ilimsən mənim.
Demə qocalmışam daha dünyada,
Sən ki, qar altında gülümsən mənim.

***

Göyün sarı-sarı şarı altında
Qara buludların qatarı yatır.
Bu günün ağappaq qarı altında
Sabahın yam-yaşıl baharı yatır.

***

Çirkabdan dənizlər salsa da nəvə,
Büllur bulağıyla məşhurdur baba.
Tüstülü sobalar alsa da nəvə,
Qızıl ocağıyla məşhurdur baba.

***

Ulduzlar bağrından doğub gümüşün,
İndisə göylərin şux qızlarıdır.
Yox! Yerlərdə gedən qızğın döyüşün
Göylərə yüksələn ağ tozlarıdır.

***

Dərindən də dərin füruzə göydə
Alışan ulduzlar çıraq-çıraqdır.
Yox! Yox! Dursalar da üz-üzə göydə,
Ulduzlar sirr dolu sarı yumaqdır.

***

Torpağın altına düşən qəhrəman
Daim keşiyində durdu torpağın.
İndi torpaq özü nədir? Pasiban!
Keşiyində durub yatmış qoçağın.

***

İnsan ülviyyətə salaraq meyil,
– Mən də bir çinaram! – dedi yetənə.
Çinarsa özünü heç nəyə deyil,
Vətənə bənzətdi, yalnız Vətənə!



***

Atalar söz açıb neçə şikardan
Ova gecikənlər tələsər dedi.
Mən tələsdim... Ancaq kimsə kənardan
Toru elə sərmə, belə sər dedi.

***

Daim ürəyimdə donub qalınca
Qoy deyim sözümü! Baş ki, ayıqdır.
Özündən müştəbeh iynə dalınca
Hara gəldi gedən sap nə yazıqdır.

***

Bədbəxt o adamdır açıq bazarda
Dəymiş meyvə ala, kal çıxa ancaq.
Xoşbəxt o adamdır sayıq bazarda
Adi doşab ala, bal çıxa ancaq.

***

Siyahilər mahnı, təkliflərsə not...
Öz adımın üstdə xət görürəm mən.
Nə edə bilərəm? İt önündə ot,
At önündə isə ət görürəm mən.

***

Nə qəm, at adlanan müti heyvanın
Yüyəni nə himə, nə sözə baxa.
Vay ondan harasa çapan zamanın
Cilovu fələyin əlindən çıxa.

***

Daim batıq gördüm filin gözünü,
Uzaqda nə var? O, dəstədə bilmir.
Nə qədər zəhmətkeş olsa özünü
Hələ meymun qədər istədə bilmir.

***

Harın biganələr işrətlərilə
Dünyanın ən zəif miskinləridir.
Zərif qarışqalar zəhmətlərilə
Dünyanın ən möhkəm sakinləridir.

***

Qüvvət nə deməkdir? Ən böyük nemət!
O pələngdəkindən çoxdur aslanda.
Özü gözləməyən döyüşdə fəqət
Pələng çevikliyi yoxdur aslanda.

***

İnsan buz evinə bağlayıb könül
Ocağa döndərər od nəfəsini.
Dənləri incidən olsa da bülbül
Yenə sevə bilməz öz qəfəsini.

***

Madam ki, ceyrana böyük təbiət
Baxış da, qaçış da, meydan da verib,
Daha nahaq yerə müdrik təbiət
Ceyrana qorxu da, həycan da verib.

***

Yaşıl meşəyə bax! Bəlkə budağa
Bir büllur çilçıraq ağ işıq salıb?
Yox! Maral keçərkən yekə budağa
Şaxəli buynuzu ilişib qalıb.

***

Bir arı insanı sancdığı zaman
Ətinə zəhər də yeridir nahaq.
O bilmir, balını yeyəndə insan
Şəninə tariflər söyləyir ancaq.



***

Gözəl yaratsa da məsum insanı,
Üstünə çirkab da ələyib həyat.
Dişləri zəhərlə dolu ilanı
Nadir naxışlara bələyib həyat.

***

Dərd yükü altında bir kaman kimi
Əyilən beli də rüşvət düzəldir.
Dişləri zəhərli bir ilan kimi
Qıvrılan feli də rüşvət düzəldir.

***

Kərtənkələ daşnaq yerini seçib
Qayalıq içində yaşadı ancaq.
Odlar diyarına hücuma keçib
Torpaq qamarlamaq istədi, torpaq.

***

Nə saray öyünsün, nə də təmtəraq,
Yox! Yox! Son qərara gələn həyatdır.
Kiminə kədərlə dolu sığnacaq,
Kiminə sevinclə dolu büsatdır.

***

Haçansa, kiminsə qisməti batsa,
Zamanın səhvini düzəltmək olar.
Ancaq təbiətə kimsə əl atsa,
Yalnız öz ömrünü talana salar.

***

Sanma hər dövranın başının üstdə
Çörəyə bənzəyən günəş boyatdır.
Yox! Köhnə cahanın başının üstdə
O dəqiq işləyən təzə saatdır.

***

Biri məzəmmətlə dedi ki, – Oğlan,
Sən soğan doğrama kefimə... Amma
Bilmədi bu boyda dünyada soğan
Nə qədər xörəyi gətirir tama?!

***

Sarımsaq nemətdir, sıx ünsiyyətdə
İyini xoşlayan varmı? Məncə yox!
Ancaq neçə dərdə o təbabətdə
Çarələr tapıbdır dərmanlardan çox.

***

Dedilər yaylıqda nəsə var, inan,
Yadigar verilsə, ayrılıq salar.
Bəs niyə kimisə ötürən zaman
Arxada çırpına-çırpına qalar.

***

Könüllər ovlayan gözəl mələyin
Hüsnünə baxmaqdan bezsə də əgər,
Daim süfrəsinə gələn çörəyin
Ətrini udmaqdan usanmaz bəşər.

***

Dost! Novruz qabağı sanki yağan qar
Novruz noğuluna bənzəmək istər.
Bayramlı evlərdə nəki xonça var,
Öz nadir hüsnüylə bəzəmək istər.

***

Bahar yerdə gəzir icadlarıyla,
Göy mavi varaqdır yerdən uzaqda.
Uçan qaranquşlar qanadlarıyla
Bahar şeiri yazır mavi varaqda.



***

Yad yerinə gələn bir qonaq kimi
Bulud ağladıqca göyün üzündə,
Susuzluqdan yanan bir uşaq kimi
Çiçəklər gülüşür aran düzündə.

***

Torpağı anası sayan insanlar
Yorulmuşdur deyə dincə qoyurlar.
Dağı dağ üstünə qoyan insanlar
Kütləşmiş orağı küncə qoyurlar.

***

Azadlıq meydanı axtaran tufan
Gözlərə təpilir karıxdığından.
Yaxşı ki, təmkin var, yoxsa ki, insan
Səssizcə partlayar darıxdığından.

***

Çapa-çapa hara gedir fikirlər?
Qurtarmaq bilməyir çapışmaları.
Qarışıq ölkədə nədir fikirlər?
Yalnız ideyalar çarpışmaları.

***

Dünyada kiminin dilinin sözü
Kiminin əlində alqışa dönür.
Dünyada kiminin ömrünün özü
Kiminin dilində qarğışa dönür.

***

Padşah var, zinətlə dolu baş daşı
Yoxsul papaq olub başının üstdə.
Şair var, şöhrətlə dolu baş daşı
Zəngin növraq olub başının üstdə.

***

İnsan gülə-gülə tapıb bir imkan
Bir günah işlətsə əgər dünyada,
Sonra o, ağlaya-ağlaya inan,
Günahkar özüməm deyər dünyada.

***

Dünyada dünyalar yaradan insan
Kamala nöqsansız dolmayır ancaq.
Gör qətiyyət ilə nə deyir zaman:
Allahın nöqsanı olmayır ancaq!

***

Yolunu kəssə də dəniz, dağ, meşə,
Dünya belə gəlib, belə gedəcək.
Yenə də kiminin üzündə nəşə,
Kiminin dalında şələ gedəcək.

***

Yolumda nə məşəl yandı, nə ocaq,
Özüm bir günəşlik oddum həyatda.
Arxasız şeirimin xətrinə ancaq
Bütün tənələri uddum həyatda.

***

İlhamım nə oldu? Çağlayan bulaq!
Neçə-neçə qaba yığa bilmədim.
Çalışdım, əlləşdim, çırpındım, ancaq
Özüm öz şeirimə sığa bilmədim.

***

Gecə xurd düşəndə aləm layladan
Mən də istəyərdim yuxuya dalam.
Sonralar qorxdum ki, məhrəm layladan
Məstləşib zamandan geridə qalam.



***

Mən dərman içdikcə uzandı güman,
Yenə də dərmanda qaldı gözlərim.
Ancaq dərman iyi vermədi, inan,
Təzə-tər gül ətri yaydı sözlərim.

***

Aynada qırışsız üzümə baxıb
İstədim cavanlıq eləyəm yenə.
Aynadan tez qara gözümə baxıb
Ağ saçım gözünü ağartdı mənə.

***

Hanı yaratdığım ecazkar növraq?
Bəlkə o könlümə sevinc gətirə.
O qədər göz yaşı itirdim... Ancaq
Yerinə nə tapdım? Quru xatirə!

***

Sanma sinə gərib sərt sazaqlara
Ömrümü qayğıyla qoruyuram mən.
Nəğməli ümmandım... Ağ varaqlara
Səpilə-səpilə quruyuram mən.

***

Bir “Fərqlər kitabı” açır ölüm də,
Oxunsun “murdar”la “təmiz” sözləri.
Murdar adamlardan qaçır ölüm də,
Təmiz adamlara düşür gözləri.

***

Dahilər tək-təkdir... Yol sala-sala
Zəkalar yeri də, göyü də tutur.
Dünyanın özü də tək ola-ola
Bəs niyə təkləri daha tez udur?

***

Ölümün adına şərəf gətirən
Cəsarətlə dolu iradə olur.
Müqəddəs arzunu başa yetirən
Qədirdən yoğrulmuş abidə olur.

***

Utanım boyundan dünya, a dünya,
Niyə öz dərdini çəkməyirsən sən?
Bir ölkənin dərdi az imiş guya
Sənin də dərdini mən çəkirəm, mən.

***

Mən ürəkdən gələn nəğmələrimlə
Dünyadan getsəm də tufanlı qışda,
Yazı munis bilən nəğmələrimlə
Qayıdıb bulağa dönərəm daşda...

***1989.***





***

Yazıya nizamla başlamayan kəs,
Səhmanı pozursan tufanlar kimi.
Sığallı sözləri xoşlamayan kəs,
Sözlər sığal sevir insanlar kimi.

– Təki tüstüsü düz çıxsın! – deyənin
Ocağı hüsnüylə seçilər ancaq.
Sözləri ütüsüz paltar geyənin
Dəyəri zövqündən biçilər ancaq.

***

Daim uca sanıb şeirin taxtını
Yetmişə də çatdım öz sözlərimlə.
Ancaq bu dünyanın sakit vaxtını
Mən görə bilmədim öz gözlərimlə.

Odunlar yananda ocaq altında,
Üstündə aramla qaynayır qazan.
Günəş də ocaqdır! Ancaq altında
Şiddətlə qaynayır dünya hər zaman.

***

İstədim dünyanın mənzərəsindən
Yenə yaza-yaza zirvələr aşım.
Ömrümün qar yağmış pəncərəsindən
Üzümə heyrətlə boylandı yaşım.

Başını yelləyən yaşıma mən də
Göz vurub qələmi əlimə aldım.
Ağ alov calayıb başıma mən də
Yolumu zirvədən zirvəyə saldım...



***

Həyat indi nədir? Sanki özündə
Yalnız eybəcərlik göstərən ayna.
Bir damla gözəllik yoxsa sözündə,
Nə kükrə, nə çağla, nə dəki qayna.

Sanki şəxsiyyətlər çirkinləşdikcə
Hardasa üzlər də kifirləşirlər.
Sanki ünsiyyətlər çirkinləşdikcə
Hardasa sözlər də kifirləşirlər.

***

Məqam qətiyyətdir, zamansa daraq,
Həyat gah pırtlaşıb, gah daranıbdır.
Bütün yaranmışlar içində ancaq
Allahdan da qabaq söz yaranıbdır.

Neçə qələmli əl, ilhamlı hünər
Göyə qaldırsa da söz dəyərini,
Hayıf hikmət dolu söz allah qədər
Ala bilməmişdir öz dəyərini.

***

Tarix boyu həm kef, həm dəki əzab
İnsanın əliylə yazmış sözünü
Ən qədim, ən əlvan, ən zəngin kitab
Dünyanın özüdür, oxu üzünü!

Sən baş-başa durma öz xəyalınla,
Nə qış maraqsızdır, nə yaz dünyada.
Sən öz qələminlə, öz amalınla
Bir yadigar qalan söz yaz dünyada.

***

Yazma söz qızıldır məhək dünyada,
Yox! Yox! Heç nə verməz sözün yerini.
Əgər söz olmasa nəhəng dünyada,
Kimlər başa düşər biri-birini.

Bəli! Dahilərin yadigarını
Nəsildən-nəsilə yetirən sözdür.
Duyub zəkaların iqtidarını
Dillərdə mənalar bitirən sözdür.

***

Deyirlər nədənsə yaşa dolanda
Uşaq xasiyyətli olur dahilər.
Yox! Yox! Müdrikləşən uşaq olanda
Daha təravətli olur dahilər.

Dünyanı dolaşan bir soraq təki
Qazanc arasa da göz sevdasında,
Məsum təbəssümlü bir uşaq təki
Dahi də aldanır öz sövdasında.

***

Dərdi fələk atıb? Yox! İnsan əkib,
Vağama getməmiş qönçələr tökə...
Bir dahi on dərdi özünə çəkib,
Dünyanın dərdləri azala bəlkə.

Bəli! Üstü şamlı masa dalında
Gecələr xəyala gedib dahilər.
Zamanın qarışıq qilü-qalında
Bir dərdi on kitab edib dahilər.



***

Saçım ağarsa da dağ başı kimi,
Sənət bağbanıyam müdrik yaşımda.
Ancaq sən zənn etmə bir naşı kimi
Ağ güllər bitmişdir mənim başımda.

Yox! Yox! Sən bir ağ gül dərmək istəsən,
Başımda dizəcən qara batarsan.
Bəli! Bir də ağ gül görmək istəsən,
O fikri başından tamam atarsan.

***

Dünyada həm köhnə, həm təzə bağam,
Bir meyvəsiz ağac tapmazsan məndə.
Yer üstə nə qədər mən hələ sağam,
Mənimlə neçə bar görərsən sən də.

Sanma fəsil-fəsil tükənmiş qüvvəm,
Dörd balam sonuncu zirvəmdir mənim.
Yox! Bir dəstə qəşəng, gümrah, şən nəvəm
Çiçəyimdən doğmuş meyvəmdir mənim.

***

Haçansa babalar peyğəmbər kimi
Qılınc öz qınını kəsməz deyibdir.
Şair zirvə aşar cəngavər kimi,
Öz canının üstdə əsməz deyibdir.

Bu nədir? Az qalır daha yanam ki,
Görəsən bədənim nəyə uğrayır?
Qılınc qəzəbimə mən də qınam ki,
Bəs niyə içimi kəsib doğrayır?

***

Atalar nə dedi? Çox da tufandır,
İnsan! Sən gurlama, çağlama, əsmə.
Əlin dinc durmasa düşün, amandır,
Rahat əyləşdiyin budağı kəsmə.

İndi budaq nədir? Kənddə, şəhərdə
Kükrəyir min yazın seliylə insan.
Sanki xeyrini də görüb zərərdə,
Dünyanı dağıdır əliylə insan.

***

İti göz gəzməsin kimsə sərrafda,
Haraya baxırsan hər nemət baha.
Bu qıtlıq dövründə sanki insaf da
Yerlərdən göylərə çəkilmiş daha.

Külək girir evə... O dörd bucağı
Təklikdə yoxlayır öz həvəsiylə.
Görür bir od yanmır... Soyuq otağı
Daha da soyudur buz nəfəsiylə.

***

Masa arxasında daim çözülən
Sinəm xəzinədir, sözlərim almaz.
O varaqlar üstdə səf-səf düzülən
Nadir almazlardan hansı kəs almaz?

Yox! Yanan almazın işığıyla o,
Rahat keçib gedər zülmət içindən.
Bəli! Yenə sözün qılığıyla o,
Cəsarətlə çıxar zillət içindən.



***

Dünya qarışıqdır... Daha yollar da
Səksəkəylə dolu yuxudan keçir.
Xərci dəyərindən baha yollar da
Həyəcanla dolu qorxudan keçir.

Qorxulu yollarda kölgəmdən başqa
Mənə arxa olub izləyən yoxdur.
Yaxşı ki, öz dərdli ölkəmdən başqa
Məni bir ünvanda gözləyən yoxdur.

***

Yer, göy bölük-bölük... Həsrət çəkənlər
Haçan həm görüşür, həm qucaqlaşır,
Gülür ayrılıqda xiffət çəkənlər,
Məmnun gözlərində yaş bulaqlaşır.

İnsanlar soraqla qucaqlaşanda,
Axan gözlərinin öz yaşı olur.
Buludlar calaqla qucaqlaşanda,
Başdan-ayağadək göz yaşı olur.

***

Başını qayğıyla qatsa da zaman,
Amandır, unutma unutqanlığı!
Yoxsa ömrün boyu həyatda inan,
Sənə bir dərd olar peşimanlığı.

Bəli! Unutqanlıq insan içində
Gizlicə yaşayan yağı kimidir.
Təzədən od saçan vulkan içində
Keçmişə oxunan ağı kimidir.

***

Ermәni türkün bic düşmәni kimi,
Gәrәk hәr üsuldan yapışasan sәn.
Ermәniylә elә ermәni kimi
Düşünә-düşünә çarpışasan sәn.

Gәrәk döyüşdә sәrt qüvvәtdәn başqa
İncә kәlәyә dә meydan verәsәn.
Torpaqdan, qürurdan, ismәtdәn başqa
Nәyin var, zәfәrә qurban verәsәn.

***

Tәzadlı dünyada sәhv edәn insan
Xeyirxah allahdan imdad dilәyir.
Cavab almayanda, sanki bir vulkan
Әtrafına od yox, küfr çilәyir.

Kim yalqız allaha әmin olsa da,
Bilsin, dodaq büzәr dövran sәhvinә.
Allah yerә-göyә zamin olsa da,
Cavabdeh deyildir insan sәhvinә.

***

Sanma açıq ürәk mehmanxanadır,
Girәnlәr, çıxanlar hesaba sığmaz.
O, mehmanxana yox, peymanxanadır,
Vәfasız kәslәri qoynuna yığmaz.

Ürәk, qapısını döyәn yolçunu
Hәssas baxışıyla yoxlar özündә.
– Qalmaq istәyirәm! – deyәn yolçunu
Son sınaqdan sonra saxlar özündә.



***

Hәyatı hüdudsuz dirrik sananlar
Ehtiyaca yol yox, çәpәr deyiblәr.
Haçansa, hardasa әli yananlar
Әlini ağzına tәpәr deyiblәr.

Kәmfürsәt adamın sәxavәtinin
İlğımına uyma! Sakit bax gendәn.
O tәmanna dolu mәrhәmәtinin
Әvәzini min yol qoparar sәndәn.

***

İndi kişi yoxmu? Qulaq as sәsә,
Dünyaya kişilәr gәlir harayla.
Әsil kişilәrin toxumu isә
Kәsilir... Kömәyә әsri harayla!

Daha neçә-neçә daşda qazılmış
Tarixdә yaşayır әsil kişilәr.
Odlu döyüşlәrdә qanla yazılmış
Dastan tarix olur, fәsil kişilәr.

***

Vay ondan, könlünü didsә dә maraq,
Cahandan çәkәsәn gözünü, insan.
Heç zaman, heç yerdә görmәyib ancaq
Güzgüdә görәsәn özünü, insan.

Özgәsi boyundan düşәn baş kimi
Gözündәn düşürsә, gözünә inan!
Ancaq qorx ki, bir gün çirkli yaş kimi
Özün öz gözündәn düşәsәn, insan!

***

Yanıqlı küləyə mən ney deyirəm
Rübablarla dolu öz dünyamızda.
Yarımçıq olsa da hər şey, deyirəm,
Bütöv olmalıdır söz dünyamızda.

Haçan vədəsi də, andı da sual
Adamlar yol üstdə üzümə çıxır,
Ürəyimdə doğan nifrətim dərhal
Alışa-alışa gözümə çıxır.

***

Nəzakət... O səni qızdırsın deyə,
Kibrit də, ocaq da, odun da olar.
Ağlını hardasa azdırsın deyə,
Ayağı sürüşkən qadın da olar.

Gərək zirvəsinə çatan pillə tək
Gözün içində də izlənə hiylə.
Vay ondan, gilizə girən güllə tək
Nəzakət içində gizlənə hiylə.

***

Dünyada özündən nigaran insan
Haqqında yaxşı söz deyilməyəndir.
Dünyada bəlkə də qəhrəman insan
Ölümün önündə əyilməyəndir.

Yalandır! Ölümdən qorxan uşaq tək
Kirpiyiylə gizlər o, göz yaşını.
Göy də ulduzlarla dolu bayraq tək
Tabutunun üstə əyər başını...



***

Bu boyda dünyanın qucağındakı
İnsanın həyatı böyük deyilmiş.
Gözlər qamaşdıran barmağındakı
Dəfn xərci imiş, üzük deyilmiş.

Lovğalar kiməsə naz satmasa da,
Dindirsən allaha etina etməz.
Malına yabançı mal qatmasa da,
Öləndə məzardan imtina etməz.

***

Xalça şölə-şölə parlayan zaman
Günəş-günəş doğur buz nisgilə də.
Eldə xalça üstdə doğulan insan
Xalça üstdə gedir son mənzilə də.

Sanki hər möhtəşəm, hər qəşəng xalça
Dinəcək... Hər gülü bir nadir neydir.
Yox! Yox! Ən füsunkar, ən nəhəng xalça
Bu günəşli, aylı, ulduzlu göydür.

***

Dedilər yolunu salıb dərinə
O getdi... Sözüsə qaldı yadigar.
Bir deyən olmadı sözün yerinə
Sənətkar qalaydı gərək, sənətkar!

Həyat gül nəfəsli ünvan olsa da,
Söz təskinə döndü – yaxşı söz çoxdur.
Ancaq ki, yaxşı söz dərman olsa da,
Dünyada həyatın əvəzi yoxdur.

***

Dünya nə deməkdir? Bir mehmanxana!
Mən kirayənişin! Pul soruşma sən.
Borclu qalmamaqçın yad xanimana,
Haqqını əsərlə ödəyirəm mən.

Hayıf, doğa-doğa vaxt ulduzları
Saralda-saralda boğur təzədən!
Gecə axıb gedən baxt ulduzları
Səhər əsərimdə doğur təzədən!

***

– Bir bayatı oxu! – Deyirsən qonaq,
– Köhnə bayatı yox, təzə bayatı.
Bayatılar daim yaşayır, ancaq
Nə köhnəsi olur, nə də boyatı.

Haçansa başımda dağılsa da huş,
Ustaddır həm Saib, həm də Nəsimi.
Dünən zənguləmi öyrətdiyim quş
Bu gün bəyənməyir daha səsimi.

***

Beyin! Sanma dönmür o xislətilə
Bədəndə hərəkət edən qüvvəyə.
Yox! Hikmətlə dolu öz cürətilə
Bədəndə zirvəyə qalxır, zirvəyə.

Yollarda başına döysə də tufan,
Karvanı düşünür sarban başında.
Faciə dəhşətli olsa da, inan,
Müdriklik yaradır insan başında.



***

Kağız parçaları düşüb qum üstə
Gah solda dolaşır, gah da ki, sağda.
Kənardan baxıram... Sanki bir dəstə
Ağ göyərçin gəzir kimsəsiz bağda.

Süpürgə nə gərək? Cırıq kağızın
İzini itirsin bağda birtəhər.
Xəzəlləri qovan külək payızın
Nəhəng süpürgəsi deyildir məgər?

***

Şimşək çaxır... Payız məharətilə
Öz qızıl zəngini çalır adam tək.
Bütün rənglərini səxavətilə
Xəzəllərə verir günəş rəssam tək.

Ürəyə od salan nadir gözəllər
Daha seyrəlsə də bulağın üstdə,
Sanki xalılara dönən xəzəllər
Qonaqlar gözləyir torpağın üstdə.

***

Sarı kürsülərdən düşməyir payız,
Sanki danışmağa hələ sözü var.
Yerdə göbələklər ağarır yalnız,
Sanki torpaq üstdə qar ələnib, qar.

Gözlər alışanda çiyələklər tək,
Hisslərdə donarsa biganəliklər,
Yerdə səpələnmiş göbələklər tək
Hardasa çoxalar viranəliklər.

***

Nəyəsə güvənən lovğalar kimi
Ağacı hddətlə döyür sazaqlar.
Sanki yaşıl-yaşıl dalğalar kimi
Qabara-qabara axır yarpaqlar.

Bəs niyə uçuşur sarı yarpaqlar?
Sanki qızıl pullar səpilir göyə.
Ağac rüşvət verir... Bəlkə sazaqlar
Yaşıl yarpaqlara dəyməsin deyə.

***

Tufan nərə çəkir, alovlu nərə,
Pərən-pərən düşmüş ulduzlar sönür.
Yarpaqlar ağacdan tökülüb yerə,
Sarala-sarala xəzələ dönür.

Qorxudan yataqda titrəyir çay da,
O içinə çəkir səsini tamam.
Rəngi vahimədən saralmış Ay da
Ağacın dibindən doğur bu axşam.

***

Sanma gurultuyla çaxan ildırım
Dağın ağ saçında daraq kimidir.
Yox! Yox! Salxım-salxım axan ildırım
Alovdan yoğrulmuş qaynaq kimidir.

Soyuq boğazına keçsə qayanın,
Qaya, məğrur qaya vardan yox olar.
O neçə növrağı viran qoyanın
Dəhşəti odundan daha çox olar.



***

Qızıl qamçılara dönüb şimşəklər
Alışa-alışa haçalanırlar.
Qızıl qamçıların altda ləçəklər
Qızara-qızara parçalanırlar.

Bəlkə də bilməyir qızıl qamçılar
Ləçəklər baharın bəzəkləridir.
Bir gün göydən düşən büllur damcılar
Sular yox, sabahın çiçəkləridir.

***

Şimşək yanıb keçir bir gurhagurla,
Təşnə yer leysanı təpir gözünə.
Təntənəylə dolu bir vurhavurla
Təbiət toy edir sanki özünə.

Bir parça bahara döndükcə çəmən,
Dumanlar seyrəlir, yellər oynayır.
Nəğməli mağara döndükcə çəmən,
Bülbüllər oxuyur, güllər oynayır.

***

Hay-haraylı leysan kəsmiş bayaqdan,
Daha qıyıq damla daşı da dəlmir.
İslanmış donunu asıb qurşaqdan
Qurutmaqçın nənə bəs niyə gəlmir?

Yox! O gəlməyəcək riqqət içində,
Taqətdən düşmüşdür yorğun ayağı.
Nənənin yolunu həsrət içində
Daim gözləyəcək nənə qurşağı.

***

Sanki ağ maraldır qaya başında
Silkinə-silkinə axan şəlalə.
Narahat ömrünün kamil yaşında
Dünyaya təzədən baxan şəlalə.

O dərin dərəyə bir nəhəng kimi
Atılır... Özünə yazığı gəlmir.
Ancaq buynuzları ağ çələng kimi
Qayanın başından üzülə bilmir.

***

Büllurdan yaradıb dağ şəlaləni
Çılpaq təbiətə verdi zinət tək.
Amma yalçın qaya ağ şəlaləni
Cınağından asdı nadir xələt tək.

Dağ, nəzakətli dağ həycan içində
Həyasız qayaya heyrətlə baxdı.
Saçını ağardıb duman içində
Halal bəhərinə xiffətlə baxdı.

***

Sanki bir gözəlin bəyaz əlidir
Yerə salxım-salxım işıq səpən Ay.
Sanki su deyildir, işıq selidir
Parlaya-parlaya axıb gedən çay.

Ay da, ulduzlar da sərin gecənin
Şeiriyyətlə dolu mənzərəsidir.
Dan ulduzu necə? Dərin gecənin
Səhərə açılan pəncərəsidir.



***

Şəlalə zirvədən axır dərəyə,
Sürətin özünə verməyir macal.
Sən də igidsənsə, sinmə bərəyə,
Şəlalədən keçib zirvəyə ucal!

Gümüş şəlaləni yaqutdan parlaq
Günəşin boynuna sal ağ şərf kimi.
Sənin ünvanında gecələr ancaq
Ulduzlar parlasın qızıl hərf kimi.

***

Sular nəğmə deyir... Güləş bənizli
Yazın toyumudur? Süzək o toyu!
Odur, yaqut taclı, zümrüd cehizli
Gəlin yaz dolaşır mahallar boyu...

Demə möhtəşəm yaz, hanı heykəlin,
Hüsnün keçib gedən əlvan şimşəkdir.
Hər yazın heykəli ağac təməlin
Üstündə ucalan hacıleyləkdir.

***

Günəş piltəsinə yenə od vurub
Meşə üstdə yanır bir çıraq kimi.
Şehli göbələklər sıraya durub
Sahib gözləyirlər ağ papaq kimi.

Göbələklər bilsə onları yeyib
Sonra artımına güləcək insan,
Nankor ünsiyyətə qəbahət deyib,
Münbit torpaqda da bitməzlər, inan.

***

Bulaq axıb gedir çöllər boyunca,
Dadını bilməyir yanğılı torpaq.
Müğənni oxuyur illər boyunca,
Ömrünün sonunda tanınır ancaq.

Demə nəğməkar qız suyu yumşaqdır,
Mənə suyu deyil, səsi gərəkdir.
O ecazkar səsin ruha haçaqdır
Həm zili, həm də ki, pəsi gərəkdir.

***

Bir söz deyəcəyəm sazsız ozan tək,
Bir kimsə deməsin bu söz ki, ağdır.
Elmi olmasa da canlı insan tək,
Dünyanın ən böyük loğmanı dağdır.

Axı, dağ olmasa, zəhmətkeş insan
Yayda yana-yana qalar aranda.
Dözümdə palıda dönsə də, inan,
Hər anda bir yarpaq salar aranda.

***

Yazın gəlməsini insandan qabaq
Bəlkə də ağaclar duyur dünyada.
Üstünü-başını leysandan qabaq
Sevinc yaşlarıyla yuyur dünyada.

Təzə köklər atıb dərinə söyüd
Sanki barla çıxır qışın qoynundan.
Yaşıl yarpaqların yerinə söyüd
Zümrüd boyunbağı asır boynundan.



***

Demə, nə istidir torpağın üstü,
Bir ağac altında sərinlə görək!
Gözündən od çıxsa, başından tüstü,
Vüqar sığınmasın qoltuğa gərək!

Minnət, yüngül minnət sədaya dönsə,
Xətərdən qurtarar məşhur insanı.
Minnət, ağır minnət ədaya dönsə,
Bir himlə öldürər məğrur insanı.

***

Bir şeir oxudum ona xəlvətdə,
– Sən hisslə yazıbsan! – dedi bu şeiri.
Özüm də bilirəm, zəngin sənətdə
Ağlın bir yeri var, hissin bir yeri.

Hissdən dəqiq meyar hanı cahanda?
O gərək insanın özündə ola!
Bəli! Hiss satılmır heç bir dükanda,
O gərək təmasın gözündə ola!

***

Çiçəkdən çiçəyə gedən yolları
Şeh də yaralayır sakit dumanda.
Ürəkdən-ürəyə gedən yolları
Yaralaya bilməz qarlı tufan da.

Unutma! Dost dosta göstərib himmət,
Nadir üzüyünü qaşsız da qoyar.
Kiməsə ev tikib özünü fəqət
Bir koma qurmaqçın daşsız da qoyar!

***

Müqəddəs ocaqda daş da yananda
Sanki ulduzlardan çox oluram mən.
Qurunun oduna yaş da yananda
Dözmürəm, varımdan yox oluram mən.

Mən azsam, günahkar duman deyildir,
Yox! Parlaq günəşin sönüklüyüdür.
Dostun dönüklüyü nöqsan deyildir,
Yox! Nöqsan inamın dönüklüyüdür.

***

Bir dostum dedi: Sən, qüruru əzən
Neçə-neçə sözü başa qaxırsan.
İndi ağızlarda iznsiz gəzən
Məşhurluq sözünə necə baxırsan?

Dedim, o, dünyayla kamala dolur,
Bir məhək daşıdır! İtməz sislikdə.
Yox! Yox! Məşhurluqla nümunə olur
Kimi yaxşılıqda, kimi pislikdə.

***

De, kimə gərəkdir elə hörmət ki,
İçində həmişə qorxu gəzdirə?
Təqdirə layiqdir elə rəğbət ki,
Bir neçə adam yox, çoxu gəzdirə.

Yadında saxla ki, süni hörmətdən
Səmimiyyət dolu salam yaxşıdır.
Təbii hörmətə günü hörmətdən
Sərt üzlü, düz sözlü məqam yaxşıdır.



***

Ah, hisə verilmiş bir balıq kimi
O elə arıqdır, elə qaradır,
Sanki parçalanmış bir qayıq kimi
O bütöv deyildir, elə paradır.

Nə qəm, canlı kösöv arıq lüşübdür,
Arıqlar, qaralar axı növ-növdür.
O özü döyüşdə sınıq düşübdür,
Dəmir iradəsi hələ bütövdür.

***

Söyüddən nadir bar gözləyən hərif
Sanki mamırlamış daşdan gül dilər.
Təmənnayla dolu yalançı tərif
Hər şeydən möcüzə yarada bilər.

Döşünə bir ulduz taxan kəs düzü,
– Qəhrəmanam! Desə peşiman olar.
Axı ulduzlarla dolu göy özü
Ulduzları sanı qəhrəman olar.

***

Bu axşam nə dedim söz aləmində?
Nə zaman qısadır, nə dünya dardır.
Hər şeyin xeyri var öz aləmində
Görən qorxunun da bir xeyri vardır?

Var. Qorxu döyüşdə insana bəzən
Ölümdən qaçmaqçın yardım yetirir.
Ancaq bu xeyriylə o əvəz gəzən
İnsana şöhrət yox, nifrət gətirir.

***

Yollar, qədim yollar haçandı çəndi,
Yolçular nə bələd, nə də mətindir.
Hər yeri çirklənmiş dünyada indi
Təmiz adam tapmaq yaman çətindir.

Bu boyda dünyada ən təmiz xilqət
İndi mənim məsum nəvələrimdir.
Özüm köhnə ağac, o neçə nemət
Təzədən də təzə meyvələrimdir.

***

Hakim kürsüsünü gəzən həqiqət
Əvvəl-axır tapır! Buna şübhə yox.
Əfsuslar olsun ki, bəzən həqiqət
Dolaşıq yollarda çox yubanır, çox.

Həqiqət qılıncdır! Şaqqıltısıyla
Hər zaman, hər yerdə gur səslənir, gur.
Havaya qalxdımı, parıltısıyla
Özü günəş olur, halələri nur.

***

Tarixlər şahidi ulu həyatda
Elə yaxşı yaxşı, yaman yamandır.
Daim təzadlarla dolu həyatda
Məhkəmə həqiqət, hakim vicdandır.

Vicdan Allah deyil! Ancaq bir kərə
O da gözə dəymir. Yeri səngərdi.
Yoxsa vicdansızlar göz görə-görə
Onu da aşkarda qarət edərdi.



***

Xalqın təşəbbüsü bir məqsəd kimi
Harada çağlayır? Etiqadında!
Xalqın məharəti bir sənəd kimi
Harada yaşayır? İstedadında!

Təbriz yaratdığı şeiriyyətilə
Sənət dünyasını zinətləndirdi.
Şeyx Səfi xalçası əzəmətilə
London muzeyini şöhrətləndirdi.

***

Pulgirlər öz doğma yuvasını da
Satış kağızına saldırıb satar.
Allahın havayı havasını da
Qızıl qiymətinə qaldırıb satar.

Daşdan da pul uman acgöz dükanlar
Adi həqiqəti bilməyir nədir?
Dünyaya əliboş gələn insanlar
Dünyadan gedəndə əliboş gedir.

***

Dövlət məlum şeydir! Bəs şöhrət nədir?
Kiminsə məqamı, nəyinsə donu.
Nə olsun gah gəlir, gah da ki gedir,
Az adam tapılar sevməsin onu.

Şöhrəti yayanlar kitablar deyil,
Yox! O məşhurlaşır millət içində.
Bəzən elə olur savablar deyil,
Günahlar gizlənir şöhrət içində.

***

Ürəyi sevinclə bəzəyər nəşə,
İzdən yol düzəldər, ətəkdən zirvə.
Gəzəyən qadına bənzəyər nəşə,
Gah bu evə girər, gah da o evə.

Kim deyə bilər ki, sevinc dolu səs
Dünyada uğurun məqamı deyil?
Gözündən bir yol da yaş çıxmayan kəs
Dünyanın ən xoşbəxt adamı deyil.

***

Amansız mühitin sərt qucağında
Didib-dağıtsa da adam adamı,
Gərək öz evində, öz ocağında
Kimsə dalaşmaya cümə axşamı.

Yoxsa küsüb gedər müqəddəs ruhlar,
Nigaran dolaşan küləklər kimi.
Axı adamlara dadirəs ruhlar
Evlərə dayaqdır dirəklər kimi.

***

Nənəm deyərdi ki, sozaran çıraq
Oğru çırağına bənzəyər, gülüm.
Şöləlnən çıraq hər şeydən qabaq
Doğru mənzilini bəzəyər, gülüm.

Həmişə yadında saxlasın insan,
Ürək alışanda kamal parlayar.
Dünyanı cibinə qoysa da, inan,
Həyatda haram yox, halal parlayar.



***

Sanma sahilini aşar halallıq,
Suyuyla bir dünya toxum əkilər.
Bil ki, bolluqlarda yaşar halallıq,
Qıtlıqlarda isə göyə çəkilər.

Əli əyrilərdən ürküb qaçar o,
Yerini könüllü verər harama.
Natəmiz adama bir sirr açar o:
– Təmiz olmayınca məni arama!

***

Halallıq əbədi bir səadətin
Həm idealıdır, həm inamıdır.
O həyat məbədi bir səadətin
Həm bünövrəsidir, həm davamıdır.

Vicdan bir hakimdir insan içində,
O haqqın gözüylə baxar hər şeyə.
Haramlıq dağ olsa, bir an içində
Haqqın nəfəsiylə sovrular göyə.

***

Dünyada hər dövrün, hər ruzigarın
Öz nadir biçimli gözəlləri var.
Elə ona görə hər sənətkarın
Öz ruhundan doğan qəzəlləri var.

Yoxsa gözəllik də, sənət də, inan,
Yeknəsək olardı başdan-ayağa.
Hər şeydə təzəlik axtaran insan
Sorağa düşərdi bir də, sorağa.

***

Dünya bütövlüyün diyarıdırsa,
Kişiylə qadının qarışığıdır.
Kişilər dünyanın vüqarıdırsa,
Qadınlar dünyanın yaraşığıdır.

Demə yay günündə sərin meşədə
Bir az zövq almaqçın hara gözəldir.
Yadında saxla ki, hansı guşədə
Gözəl qadın varsa, ora gözəldir.

***

Qadın gözəllikdir! Bəzən qadının
Güllü baxçasına daş atar zəngin.
Vay ondan, qürurla gəzən qadının
Özü gözəl ola, namusu çirkin.

Yox! Haçan o canlı, o ruhlu zanbaq
Donuna vəfadan naxış da salar,
Neçə üz görsə də, namusu ancaq
Özündən gözəl də, təmiz də olar.

***

Məğrur da, laqeyd də, həssas da olsa,
Ürək elə ürək, baş elə başdır.
Yaqut da, zümrüd də, almas da olsa,
Metal elə metal, daş elə daşdır.

Demə daşlar taxıb o yer mələyi,
Bəlkə ürəyi də quru kəsəkdir?
– O ərdə varlanıb... Sadə ürəyi
Daşlar arasında yenə çiçəkdir.



***

Gözəlsiz olarmı füsunkar torpaq?
Yox! Yox! Bir gözəllə yaşayırdı o.
Yanan ürəyinin başında ancaq
Başqa bir gözəli daşıyırdı o.

O nə istəyirdi? Dözüb hər şeyə
İkisi bir odda yansın-yaxılsın.
Ürək qıy çəkəndə – İlk sevgim! – deyə,
Ürəyi duymayan dünya dağılsın!

***

Qızılgül ətirlə dolu bir ülkər,
Həyat məhəbbəti yanır gözündə.
Əfsus ki, ətirsiz bir qanqal qədər
Yaşaya bilməyir o yer üzündə.

Mən qızılgüllərə baxdıqca düzü,
Düşündüm... Sandım ki, qismət də sirdi.
Qocalıqdan qaçdım, ancaq o özü
Haradansa gəlib içimə girdi.

***

Bəzən etinasız baxdıq ayağa,
Başı zirvə bildik çiynimiz üstdə.
Nə arana sığdı, nə də yaylağa,
Dünyanı mat qoydu başdakı şəst də.

Biz bir həqiqəti unutduq tamam,
Nədənsə gizlətdik doğru sözü də.
Demədik gəzməkçin hər səhər-axşam
Ayağa möhtacdır başın özü də.

***

Kədər addım-addım izlədi məni,
Sən isə yasda da kədərsiz oldun.
Mən daim könlümdə gəzdirdim səni,
Sən isə könlümdən xəbərsiz oldun.

Günəş! Yeri-göyü isidən ocaq
Çöpü də yandırmır atəşəm deyə.
Sən məni amansız odunla ancaq
Külə döndərirsən, bilmirəm niyə?

***

Gözəllər dalınca həsrətlə baxma,
Vüqarın talanar yumşaq taya tək.
Sən ki su deyilsən, hər yana axma,
Öz yerində dayan, məğrur qaya tək.

Yalnız bir gözəli sev sona qədər,
Zövqün səhər-axşam çağlayan olsun.
Dünyadan köçəndə bəlkə bir nəfər
Arxanca ürəkdən ağlayan olsun.

***

Ürəkdən çağlayıb gəlməyən gülüş
Alovsuz gurlayan şimşək kimidir.
Qədir-qiymətini bilməyən gülüş
Havaya sovrulan çiçək kimidir.

Bir qadın üzünü alıb əlinə
Ağlayır... Titrəyir ağ barmaqları.
Sanki ağ barmaqlar royal dilinə
Dəydikcə hönkürür qəm bulaqları.



***

Kim bilmir sevginin uzun yolları
Bəzən səfalı yox, cəfalı olur.
Ancaq dağıtsa da çovğun yolları,
Yenə qız oğlandan vəfalı olur.

Çovğunla döşləşib bağrı yanıq qız
Döyüşür sonuncu imkanınadək.
Sonra ayaqyalın, başıaçıq qız
Gedir sevdiyinin ünvanınadək.

***

Qız yatır məzarda... Torpaq yaş deyil...
Yox! Lalələr şam-şam yanır eşikdə.
Qızın başı üstə sanki daş deyil,
İstədiyi oğlan durub keşikdə.

Neçə xanimanı xoşbəxt edəcək
Neçə oğlan toyu, neçə qız toyu.
O, nə yorulacaq, nə də gedəcək,
Yerində duracaq həyatı boyu...

***

Dünyada hər nişan, hər toy, hər vüsal
Nə möhkəm külfətdir, nə məşhur ünvan.
Yox! Kəbinsiz vüsal gülsə də dərhal,
Sonra zaman-zaman ağlayar, inan.

Kəbin qüdsiyyətdir! Həqiqət dinsə,
Günahkar utanar, qızarar, pörtər.
Kəbin müəmmalı pərdəyə dönsə,
Gizli cinayətin üstünü örtər.

***

Bir ocaq başına yığılar... Ancaq
Sonra mənzil-mənzil yayılar külfət.
Neçə növraq quran mərd, igid, qoçaq
Millətin təməli sayılar külfət.

İnsan vətənsiz də yaşaya bilər,
Bəs külfətsiz necə? Yaşaya bilməz.
Bəli! Ayaq üstdə o elə ölər,
Hətta özünü də daşıya bilməz.

***

Sanma millət özgə izlərlə dolu
Ya bağa, ya da ki, çölə şərikdir.
Yox! Yox! Yalnız doğma sözlərlə dolu
Bir odlu-alovlu dilə şərikdir.

Millət heç nəyini qorumasa da,
Dilini qoruyar bir nəfər kimi.
Silahı döyüşə yaramasa da,
O yenə döyüşər bir əsgər kimi.

***

Pusqu da, hakim də, zindan da görmüş
Azadlıq ürəyin ilk arzusudur.
Yürüş də, uğur da, imkan da görmüş
Azadlıq insanın bol ruzusudur.

Sirri saxlamaqda mərdsə də bəşər,
Sınanmamış ocaq pir ola bilməz.
Söz də genişlənsə yer üzü qədər,
Azadlıq car olar, sirr ola bilməz.



***

Vətənin üstündə əsməyən insan
Əsarətin altda can çürüdər, can.
Toyuğun başını kəsməyən insan
Vətənin yolunda qan axıdar, qan.

Alovlu atəşlər dağı yaxmasa,
Zirvədəki qar da odlana bilməz.
Torpağın üstündə qanlar axmasa,
O Vətən torpağı adlana bilməz.

***

Hərbdə neçə-neçə girov içində
Qarğış da, fəryad da, şivən də olur.
Dalğa-dalğa axan alov içində
Coşğun ehtirasla sevən də olur.

O bilmir bir qədər sonra döyüşdə
Nələr gələcəkdir başına... Əgər
Külə çevrilsə də ömrü yürüşdə,
Yenə arzusundan dönmür o əsgər.

***

Uşaqdım... Uzaqda günəş batanda
Dərvişlər meydanda alışardılar.
Sözə hikmət dolu şəkər qatanda
Elə təmannasız danışardılar.

Böyüdüm... Könlü tox bir dərviş kimi
Göz yumdum dünyanın hər nemətinə.
Odlu sənət verdim bir bəxşiş kimi
Şərqin od nəfəsli bir millətinə.

***

Mən dedim sabaha ehtiyat fikrim
Dünyada ya çeşmə, ya da kəhrizdir.
Bilmədim həmişə narahat fikrim
Sahil zirvəsindən aşan dənizdir.

Haçan dalğa-dalğa fikrim qabardı,
Yollar ayrıcında inam bitirdi.
Gələcək günlərə salam apardı,
Gələcək günlərdən salam gətirdi.

***

İnam sakinlikdir, şübhə səyyahlıq,
Şübhə yalqızlıqdır, inam ortaqlıq.
Şübhə yorğunluqdur, inam gümrahlıq,
İnam yaxınlıqdır, şübhə uzaqlıq.

Sirkə bal yerinə gedəndən sonra
Təbliğin gücünə yaman inandım.
Dedilər qumu su edəndən sonra
Dağı əridibdir duman, inandım.

***

Dəhşətli hadisə danışma nahaq,
Dəhşət görə-görə böyüyüb gözüm.
Danışırsan danış! Unutma ancaq
Dəhşət üstə gedən dəhşətəm özüm.

Dəhşət olmasaydım millət içində,
Dəhşət tanımazdı heyrətlər məni.
Dəhşət olmasaydım zillət içində,
Çoxdan məhv edərdi dəhşətlər məni.



***

Bir zaman qürurla deyərdim, ellər,
Başım qar ələnmiş zirvə kimidir.
Üstünü ağarda bilsə də illər,
Altında gözlərim şəvə kimidir.

Sonra döyüşənlər arasında mən,
Ağ başımı əydim sülh bayrağı tək.
Yalnız gözlərimin qarasında mən
Daim qürur gördüm od bulağı tək.

***

Bir gəncdim! Min sınaq çıxdı qarşıma,
Mən uğurla dolu saza bənzədim.
Elə ki ilk dənlər düşdü başıma,
Saçına qar yağmış yaza bənzədim.

O qardan Vətənin torpaqlarında
Təlatümə gələn sellər yarandı.
Sənət tarixinin varaqlarında
Nəğmələrlə dolu illər yarandı.

***

Mən sakit günlərdən yazsam da bəzən,
Əynim bir döyüşçü əyni kimidir.
Həsrətin dözülməz yükünə dözən
Çiynim Savalanın çiyni kimidir.

Dünyada hər kəsin öz ünvanı var,
Doğma Vətənində ucalır başı.
Həyatda hər şeyin öz nişanı var,
Həsrətin nişanı nədir? Göz yaşı!

***

Azadlıq bayrağı qaldırdım göyə,
O çox yox, bircə il dadıma çatdı.
Sonrasa doğrusu bilmirəm niyə
O məni ömürlük sürgünə atdı.

Haçandır yadımdan çıxmış gəncliyim,
Baxıram başımda qarlaşan saça.
Sanıram əvvəldən yoxmuş gəncliyim,
Qoca doğulmuşam anadan, qoca.

***

Təbrizin yazında axşam baxçadan
Qızılgül dərəndə piyalə boyda,
Sandım möcüzədir, şehli boxçadan
Nəğməli şəhərə boylanır Ay da.

Səhər dedim məni heyrətə salan
Təbrizin havası məlhəmdir, nədir?
Udduqca sinəmdə yığılıb qalan
Qubar daha qat-qat əriyib gedir.

***

Təbriz gül yanaqlı bir uşaq kimi
Nəfəs almasaydı dağlar içində,
Yay alov yayanda bir ocaq kimi,
Sərin meh əsməzdi bağlar içində.

Təranəylə dolu dərbəndlərilə
Yaylağa dönməzdi bürkülü Təbriz.
Gah quru, gah sulu dərbəndlərilə
Susardı qayğıya bükülü Təbriz.



***

Təbrizin payızı gəldimi? Adam
Ehtiyatla atır ayaqlarını.
Tapdamaq istəmir, alça, tut, badam,
Gilas, ərik, iydə yarpaqlarını.

Sanki yarpaqlar yox, əlvan xalçalar
Tanış küçələrə sərilir yenə.
Yerləşsinlər deyə meydan xalçalar
Təbrizin sinəsi gərilir yenə.

***

Təbrizin qışında qalın papaq da,
Nazik panama da qoydum başıma.
Şaxta at çapanda kiçik otaqda
Köz dolu manqalı çəkdim qarşıma.

Bu zaman nədənsə hiddət içində
Mənim kürəyimdə at çapdı şaxta.
Bəs sonra? Bilmədim vüsət içində
Mənim kürəyimdə nə tapdı şaxta.

***

Dünyanı dolaşan fağır olsa da,
Vətənsiz dolaşan daha fağırdır.
Dünyanı düşünmək ağır olsa da,
Vətəni düşünmək daha ağırdır.

Həsrət kəlməsini yazdım varağa,
İncidi... Ağappaq üzü qaraldı.
Elə intizarla baxdı uzağa
Ağ işıqla dolu gözü qaraldı.

***

Həm yaxın, həm uzaq səfərlərimdə
Ayağıma ot da, daş da toxundu.
Həqiqətdən doğan əsərlərimdə
Nağıl yox, həyatın özü oxundu.

Həyat töhfəyləmi çıxdı qarşıma?
Yox! Bişmiş aşıma soyuq su qatdı.
Saçım ağardıqca sandım başıma
Daha ağ çiçək yox, peşmək qar atdı.

***

Mən daha gözlüksüz ömür sürmürəm,
Eh... Gözlük taxmazdım özlüyüm mənim.
Yazanda gözlüksüz yaxşı görmürəm,
İkinci gözümdür gözlüyüm mənim.

Gözlük düzəltdirmək mümkün deyil, yox,
Qiyməti önündə quruyuram mən.
Köhnə gözlüyümü gözlərimdən çox
Oxşaya-oxşaya qoruyuram mən.

***

Dünyada Bakıyla Təbriz qardaşdır,
Bu onsuz, o bunsuz yaşaya bilməz.
İki qədim şəhər əkiz qardaşdır,
Azərbaycan sonsuz yaşaya bilməz.

Tarix zaman-zaman dalıb xəyala,
Süzgəcindən gah qan, gah şəfəq süzüb.
Bakı da, Təbriz də qəti vüsala
Həm iradə, həm də inamla dözüb.



***

Tilsimləşən sərhəd açıldı tamam,
Onu nə tank, nə top, nə Araz açdı.
Yox! Yox! Şairlərin hər səhər-axşam
Şeirə döndərdiyi etiraz açdı.

Bir zaman ayrılıq salıbdır deyə,
Şairlər Arazdan yazdı şikayət.
İndi yaman çaşbaş qalıbdır deyə
Şairlər dünyanı edir məzəmmət.

***

Bir insanın fikri çaşbaş olanda
Xəyalı gümandan gümana düşər.
Bir cahanın fikri çaşbaş olanda
Taleyi tufandan tufana düşər.

Kimsə bir dahiyə eyhamla dedi:
– Siz deyin, nə zaman düzələr cahan?
Dahi gülə-gülə inamla dedi:
– Hərə öz yerində görünən zaman.

***

Ürəkdə alışan hiss də qor olar,
Ürəkdən gəlməyən söz nəyə gərək?
Elçin ağlayan göz demə kor olar,
Elçin ağlamayan göz nəyə gərək?

Üzünə üz tutub hər səhər-axşam
Qapılardan girmək bir qəbahətdir.
Abırı-həyanı tullayıb tamam
Gözlərə soxulmaq bir cinayətdir.

***

Qafil! Ürəyimə dəymə, amandır,
Müqəddəs qoruqdur ürəyim mənim.
O əl toxunmayan yerdə haçandır
Yatır neçə-neçə diləyim mənim.

Nə qədər yazı var, mətnini tamam
Düzəltmək mümkündür, darıxma elə.
Alın yazısını düzəldən adam
Söz dolu dünyaya gəlməmiş hələ.

***

İnsanlar həmişə əlvan çətirli
Təbii gülləri dəstələyibdir.
İndi süni güllər nadir ətirli
Təbii gülləri üstələyibdir.

Kim ki anlamayır bir əvam kimi
Təbii gül nədir? Süni gül nədir?
Demək tamam laqeyd bir adam kimi
O nə qiymət bilir, nə də ki, qədir.

***

Gülüş var, sevincin gümrah canıdır,
Mənsə hisslərimi yaman qurutdum.
Yox! Kədər qapımı elə tanıdı,
Gülüş necə olur? Tamam unutdum.

Bir həyan axtardım. Tapmadım. Gördüm
Özümə ən yaxın həyan özüməm.
Fikir qatarımı təklikdə sürdüm,
Dedim nə etməli? Mən ki, dözüməm!



***

Vətən təxəllüslü ən böyük nakam
Yalnız torpaq deyil, həm də anadır.
Övlad qayğısını hər səhər-axşam
Özündə əks edən büllur aynadır.

Vətən, sənə sənsiz hansı bir balan
Atalıq eləsə belə, yetimdir.
Yadında saxla ki, övladsız qalan
Vətənin özü də elə yetimdir.

***

Deyirlər qəriblə dolu cahanda
Nəğmə qərib olmur. Yox! Sakin olur.
O hara üz tutsa ulu cahanda,
Ünvanlara gedən yol əngin olur.

Deyirəm mənim də nəğməm imkanı
Tamam unudaydı məhrəm sözüm tək.
Gəzib dolaşaydı bütün cahanı,
Qərib olmayaydı ancaq özüm tək.

***

Ülkərlər noxuddur... Səpilib göyə,
Yaxşı ki, yanında kişmişi yoxdur.
Bir bulud karvanı təpilib göyə,
Noxud-kişmiş yesə qorxusu çoxdur.

Sanma mən nəğməkar rübabla dolu
Aylı gecələrin lal ülkəriyəm.
Yox! Gözə çarpmayan əzabla dolu
Sənət aləminin səməndəriyəm.

***1991.***




## ŞAİR HƏYATININ NƏĞMƏLƏRİ

*Sənətdə qürurla dinəndə qələm,*
*Həyatda ləyaqət bitirir, inan.*
*Çörək ağacına dönəndə qələm,*
*Öz ləyaqətini itirir, inan.*

### *Birinci nəğmə.*

Bu qoca dünyada məsum uşaqlıq
Təmiz aynasıdır insan ömrünün.
Doğruluq, yaxşılıq, mərdlik, qoçaqlıq
Ülvi mənasıdır insan ömrünün.

İnsan bəlkə ecaz yaratsın deyə
Yaza bilməyibdir ürək sözünü.
Ağrı-acısını toxtatsın deyə
Özünü aldadıb, yalnız özünü.

O ömür sürsə də murad xətrinə,
Çalışıb müdrikə dönə dünyada.
Hayıf, bir ortabab həyat xətrinə
Özünü aldadıb yenə dünyada.

İnsan aktyordur, həyatsa səhnə,
Bəs rejissor kimdir? Dövranın özü!
İnsan neçə rolda oynayıb, yenə
Nə rolu qurtarıb, nə də ki, sözü.

Daşlar da səngərə qısılan zaman
Döyüşdən-döyüşə məğrur gedib o.
Hünəri hardasa basılan zaman
Yalanı dərdinə dərman edib o.

Axı qaranlıqda tək qalanlara
Pələngin gözü də bir təsəllidir.
Dolu arzuları puç olanlara
Yalanın özü də bir təsəllidir.

Ürək vurğusuyla, göz görkəmilə
Gizli məqsədləri qandırır mənə.
Təbəssümsüz dodaq öz görkəmilə
Düyünlü taleyi andırır mənə.

Fəlakət, məşəqqət, həqarət dolu
Ömür sürənlər də insan deyilmi?
Qətiyyət, cəsarət, hərarət dolu
Etiraz özü də üsyan deyilmi?

Demə hər şey qalxıb od qiymətinə,
Yox! Yox! Oddan ucuz nə vardır daha?
Sən bax bazarların hər nemətinə,
Ömürdən bahadır, ömürdən baha!

Bəli! Bu dünyada ən nadir nemət
Ən adi nemətdən ucuz olubdur.
İnsan, günəş insan düşüb qiymətdən,
Bir üzüm giləsi ulduz olubdur.

Dünyada hər şeyə tamah salma ki
Əxlaq şəxsiyyətin yaraşığıdır.
Zirvəyə dönsən də tapdaq olma ki
Vüqar ülviyyətin yaraşığıdır!

Gözə, həssas gözə şəstlə baxsa da
Namərdin məqsədi biclik deyilmi?
Nə qədər qürurla göyə qalxsa da
Zirvənin axırı heçlik deyilmi?



Amandır, qoymayın öz şərtlərilə
Siyasət zorlasın sənəti, dostlar!
Həmişə not, boya, söz şərtlərilə
Siyasət korlasın sənəti, dostlar!

Siyasət sonu yox, karvanlar yolu,
Gah kələkötürdür, gah da ki, hamar.
O məşhurdan məşhur, uludan ulu
Gah uduzan, gah da udan diyardır.

Nəğmə zildə dinsin! Həlim olsa da,
Bir xırda notu da pəsdə olmasın!
Dünyada şöhrətli həkim olsa da,
Dünyada xiffətli xəstə olmasın!

Sanma ki, həqiqət dili yarıdır,
Doğru söz deyənin yeri acıdır.
Gəncliklə qocalıq ömrün barıdır,
Biri şirindirsə, biri acıdır.

İnsan uda-uda öz həycanını
Toya yavaş-yavaş hazırlıq görür.
Yassa kədər yüklü köç karvanını
Hansı qapıyasa qəflətən sürür...

Ölüm yaxındadır, uzaqda deyil,
Ürəkdə yaşayır o da umud tək.
Qəhrəman bir yumşaq yataqda deyil,
Ayaq üstdə ölür məğrur palıd tək.

Sən demə bu boyda dünyanın özü
Bir ağac beşikmiş, bir torpaq məzar.
Bir günlük ömrü də qaytarmaz düzü
Nə təntənəli dəfn, nə parlaq məzar.

İnsanlar munisdir... Asimana da
Ülfətdən yaranmış cürət aparır.
Dünyadan gedəndə qəbristana da
Özüylə dövlət yox, ülfət aparır.

Bəli! Unutmasın həris insanlar,
Təfavüt ötəri bir pərdə olur.
Bir yerdə yaşayan munis insanlar
Öləndə yenə də bir yerdə olur.

İnsanın yolunu əngəlləşdirib
Haçansa, hardasa yıxan da daşdır.
İnsanı özündə heykəlləşdirib
Vaxtın zirvəsinə qalxan da daşdır.

### *İkinci nəğmə.*

Mürəkkəb qılıqlı dostlar, tanışlar
Məni sadəlikdə qınayır, kəndim!
Ancaq hardan görsün laqeyd baxışlar
Ürəyim tənədən qanayır, kəndim!

Təmiz yaşatdıqca məni sadəlik,
Büllur sadəliklə öyündüm mən də.
Aşağı salsa da “şəni” sadəlik,
Daim ucuz paltar geyindim mən də.

Ancaq çalışdım ki, səmimi sözüm
Nə toyda, nə yasda ucuz olmasın!
Kim istər sözləri yansın bir düzüm,
Biri də dəyərli ulduz olmasın!



Sadə olmasaydı böyük insanlar,
Həyatda de, hansı məşhurlaşardı?
Böyüklük eşqinə düşən nadanlar
Daha da, daha da məğrurlaşardı.

Ancaq sadəliyin ziyanını da
Mən az çəkməmişəm qırılan ud tək.
Yazsam da zamanın dastanını da,
Haqqım tapdalanıb sahibsiz yurd tək.

Sən demə arzumun önündə sədd var,
Yox! Gərək o yolda donub qalmaya.
Dünyada dəhşətlə dolu bir dərd var,
İstedadın ola, baxtın olmaya.

Kim deyir qürbətin meydanı dardı,
O qəriblər uddu... Yenə mələdi.
Tarixin bir Aşıq Qəribi vardı,
Məni də bir şair qərib elədi.

İlham ehtiraslı hərarət kimi
Gündüz də, gecə də əritdi məni.
Canlı sənətimdə şeiriyyət kimi
Damar misralara yeritdi məni!

Uzaqdan baxdıqca Savalana mən,
Axır zirvələşdi öz ömrüm mənim.
Düşdüm neçə-neçə burulğana mən,
Dedim sən zirvəsən, döz ömrüm mənim!

Savalan bulağı! Nəqərat oldu
İki hikmət dolu söz həyatımda.
Sonra əzəmətli muğamat oldu,
Bulaq-bulaq axdı öz həyatım da...

Sinəsi dolduqca dağ sularıyla,
Həsrətlə çırpındı tənha durna tək.
Sonra günəş altda ağ sularıyla
Par-par parıldadı büllur ayna tək...

Heç kimin paxılı olmasam da mən,
Paxıllıq edirəm öz xəyalıma.
Sənətdə qanadsız qalmasam da mən,
Baxıram, çatmayır göz xəyalıma.

O geriyə uçub dinc qucağında
Gördüyüm günləri təzədən görür.
Güllər sayrışsa da hər bucağında,
O əlvan tarixdən bir çələng hörür.

İstəyir çələngi qaldırıb göyə
Sənin, yalnız sənin başına qoysun.
Hüsnünü yaxşıca görsünlər deyə
Şəhərlər əlini qaşına qoysun.

İndi gəzməsəm də doğma yaxanda,
Mən sənə bağlıyam kəndim, mən sənə.
Su da buxarlanıb göyə qalxanda
Dənizin qoynuna qayıdır yenə...

Kəndim! Gah sevincli, gah da məlallı
Yolun illərimin arasındadır.
Mənimsə hələ də görüş xəyallı
Başım əllərimin arasındadır.

Hələ dan yerində günəş doğmamış
Qızlarla dolardı qızlar bulağı.
Yarışan səhənglər suyu boğmamış
Bir haray salardı qızlar bulağı.



Suyundan içən qız tez yekələrdi,
Həm gözəlləşərdi, həm dikələrdi,
Könlünü bir gizli hiss silkələrdi,
Bir şahid olardı qızlar bulağı.

Suyu titrədikcə ağ çiçək kimi,
Dinərdi gah nəğmə, gah külək kimi,
Qızlar dalaşanda, ağbirçək kimi
Başını bulardı qızlar bulağı.

Yaxın dostundan da qaçan gözəlin,
Sirrini buz suya açan gözəlin,
Səsindən bir yanğı saçan gözəlin
Qeydinə qalardı qızlar bulağı.

Üstündən əl-ayaq çəkilən zaman,
Döşünə ulduzlar tökülən zaman,
Gözləri yollara dikilən zaman
Xəyala dalardı qızlar bulağı.

Bir gözəl özünə sirdaş seçəndə,
Sevgiyə vəfadan paltar biçəndə,
Qonşunun evinə gəlin köçəndə
Gümüş saz çalardı qızlar bulağı.

### *Üçüncü nəğmə.*

Hər nadir, ecazkar, müqəddəs nemət
Bir sevinc, bir qürur, bir dəyanətdir.
Bu gəldi-gedərli dünyada fəqət
Qədri bilinməsə bir müsibətdir.

Şair səadəti gəzsə çörək tək,
Gərək səadət də baxtına düşə.
Həyata gəlişi təzə çiçək tək
Qayğının yazlaşmış vaxtına düşə.

Yoxsa dağ olsa da məğrur qaməti,
Başında qiyamət qoparar tufan.
Yaşlı gözlərində sönər niyyəti,
Danışsa, üzünə qabarar tufan.

Şən olsa da yazın sazının xalı,
Gah gülür, gah da ki, ağlayır gözü.
Şairin də tez-tez dəyişən halı
Həssaslıqda yaza bənzəyir düzü.

Bir şair yazdı ki, ülfət içində
Guya qırmızılıq həyasızlıqdır.
Yox! Yox! Qırmızılıq niyyət içində
Xofsuzluq, şərtsizlik, riyasızlıqdır.

Bəli! Alnı açıq, üzü ağ şair
Sözünü şax deyər hər yerdə, hər an.
Zamana, həyata, sənətə dair
Sözü şax deməyi sən igidlik san!

Məncə hər mübariz şair bəlkə də
Tufanlı bir gündə doğulmalıdır.
İlhamı bərəkət dolu ölkədə
Yalnız həqiqətdən yoğrulmalıdır!

Şairlər qaçmamış ağır əməkdən,
Zirvəni qələmlə düzəldən də var.
Hardasa çəkinib açıq deməkdən
Sözü söz altında gizlədən də var.



Ulduz mavi göydən axdığı kimi,
Gül zirvədən enib ətəkdə durur.
Yağ suyun üzünə qalxdığı kimi,
Həqiqət yalandan yüksəkdə durur.

O açıb möhtəşəm qanadlarını
Qara kölgə salır yalanın üstə.
Gələcək günlərin muradlarını
Günəşlərlə yazır dövranın üstə.

Demə “dahi”lərin sayı artanda
Meydanlarda az-az görünmüşəm mən.
Sırtıq ilhamsızlar yaxa yırtanda
Təmkinlə abrıma bürünmüşəm mən.

Sənətkar var, az-az görünür, neylək,
O ki, meydan verir həmişə sözə.
Kim nə deyir desin, şairin gərək
Özü deyil, sözü soxulsun gözə.

Kim saxlaya bilər axından məni?
Cürətəm, hünərəm, andam, dözüməm.
Kim görmək istəsə yaxından məni,
Şeirimi oxusun! Şeirim özüməm!

Ay hər axşam doğur!... Məgər hər axşam
Salavat çevirir Aya insanlar?
Yox! Təzə doğanda o müqəddəs şam,
İstəyir təzəlik duya insanlar.

Təzə söz öz ətri, öz ləzzətilə
Şeir süfrəsində nobara bənzər.
Uğur öz məqamı, öz qiymətilə
Hər gün geyilməyən paltara bənzər.

Neçə-neçə şair bir məddah kimi
Köhnə söz işlətdi öz sənətində.
Mənsə ömrüm boyu bir səyyah kimi
Təzə söz axtardım söz sənətində.

Söz də parlaq olur şəvəli göz tək,
Kim istər odunun sönük çağını?
Sözü çeynədikcə qızışıb köz tək
Kimsə çıxarmasın daha ağını!

Şairlər möcüzə qatıb şeirinə
Elə söz yaratsın, təbərrik olsun!
Qabaran döşündə gülün yerinə
Yaman göz çıxaran üzərrik olsun!

***Dördüncü nəğmə.***

Qaradan o yana rəng yoxdur deyən
Atam matəmini almış nəzərə.
Sahildə üzünü şiddətlə döyən
Tufanı döşüylə atmış Xəzərə.

Sirlər də ürəkdə yoğrulur şəstdən,
Səslənmək istəyir şaqraq notlar tək.
Bir daş altdan qoysan, bir daş da üstdən,
Hardansa çıxacaq yenə otlar tək.

Mən coşğun dənizə sakit baxdıqca
Ürək gah sevinir, gah da kövrəlir.
Sanıram dalğalar şahə qalxdıqca
Batmış arzularım göyə yüksəlir.



Təbəssüm daşıyır dalğa gözündə,
Hüsnünə bu tay da, o tay da baxır.
O bir yol axsa da dəniz üzündə,
Özünü dünyaya göstərib axır.

Büllura döndərib məhrəm arzunu
Arx gölü soraqlar, çaysa dənizi.
Unuda bilmərəm ömrüm uzunu
Mən nə Ərdəbili, nə də Təbrizi.

Unuda bilmərəm! Unutsam axı,
Mən öz gəncliyimi unudam gərək.
Ömür günəşimin yandığı çağı
Özüm öz əlimlə soyudam gərək.

Mən çimib Savalan çeşmələrində,
Təpədən-dırnağa büllur olmuşam.
Yazdığım "İstiqlal nəğmələri"ndə
Gah segah, gah qatar, gah şur olmuşam.

Haçan öz yurdumda ayaqlanmışam,
Sanma gəlmələrə yaltaqlanmışam.
Qələmlə-tüfənglə yaraqlanmışam,
Döyüşdən-döyüşə cəsur olmuşam.

Sanma hər hadisəm bir dastan deyil,
Ya da ki, hər izim bir meydan deyil,
Mən həzin avazlı bir kaman deyil,
Azadlıq carçısı şeypur olmuşam.

Arxamca düşübdür sərvət də mənim,
Sevgi də, mənsəb də, şöhrət də mənim,
Günlərim keçsə də möhnətdə mənim,
Yalnız məsləkimə muzdur olmuşam.

Mən aşırımda yol, şaxtada çiçək,
Qaranlıqda işıq, bürküdə külək,
Soyuq sinələrdə alovlu ürək,
Dumanlı başlarda şüur olmuşam.

Səngərim ota yox, oda bürünüb,
Dalımca kölgəm yox, qanım sürünüb,
Doğma baxışlarda sadə görünüb,
Özgə baxışlarda məğrur olmuşam.

Atalar bir zaman nə deyib görək:
Bar gətirən ağac başını əyər.
Məhsuldar şair də baş əysin gərək,
Təvazönün özü hər şeyə dəyər.

Yox! Məni əfv etsin yaşlı atalar,
Atalar sözünə dünya heyrandır.
Hikmət yaratsa da başlı atalar,
Yenə ağac ağac, insan insandır.

Ağacın əyilən başı qapaq tək
Düşərsə, minnətsiz torpağa düşər.
Şairin əyilən başı papaq tək
Düşərsə, minnətli ayağa düşər.

Xalça var, atılar payəndaz kimi
Evin torpağının, daşının üstdə.
Xalça var, nəğməylə dolu saz kimi
Asılar insanın başının üstdə.

Deyirəm şair də öz dünyasında
Dərəyə enməsin, zirvəyə qalxsın!
Özü yaratdığı söz dünyasında
Sabaha şeirinin gözüylə baxsın!



Sənət gülşəninə ayaq basanda
Güllərin başını əyməsin şair!
Şeirinin köksündə "ürək" yazanda
Bircə ürəyə də dəyməsin şair!

Möhtac insanlarla yarı böldüm mən
Hər böyük, hər kiçik qismətimi də.
Şəriksiz arzumu tanrı bildim mən,
Yaratdım şəriksiz sənətimi də.

Yuxuya getmədim... Aylı gecələr
Asılı qaldılar kirpiklərimdən.
Sanki neçə-neçə saylı gecələr
Gümüş yol saldılar kirpiklərimdən...

Dünyanın sərvəti qızılsa müdam,
Adi tərəzidə çəkilmir məgər?
Bəs qızıldan baha nə vardır? Kəlam!
Gözlərlə ölçülür o nadir gövhər.

Bir bağban varmıdır öz əməyiylə
Dünyada məndən də bəxtiyar olsun?
Ömrünün bağında öz diləyiylə
Əkdiyi gülləşən misralar olsun.

Yox! Yox! Gül nədir ki, solub-tökülür,
Ətrisə bir azca əllərdə qalır.
Misralar alovlu hissə bükülür,
Bitib-tükənməyən illərdə qalır.

Demə zinət hüsnü artırmır məgər?
Sanki güllə dolu dağ da bir bağdır.
Yox! Döşündə ot da bitməsə əgər,
Hüsnü xırdalanmaz, dağ elə dağdır!

Sazın yaraşığı sədəf deyildir,
Ürəklərə yatan gözəl nəğmədir.
Kim ki, ləyaqətli xələf deyildir,
Suları qurumuş özgə çeşmədir.

Bu dünya kürsüdür... Şairlər natiq!
Hərə ürəyinin sözünü deyir.
Kim söz yaradıbdır sənətə layiq?
Zamandan soruş! O, düzünü deyir...

İstəsən hardasa gedib yoxlayaq,
Hər quş bir budağı seyrəngah sanar.
Bizsə həmişəlik yadda saxlayaq,
Ürəkdən uçan şey ürəyə qonar.

Həm kövrək yollar var, həm mətin yollar,
Taleyə yaxını qismət yoludur.
Yollar arasında ən çətin yollar
Elə ömür yolu, sənət yoludur.

Ürəyin tayı yox, başın əyəni,
Sanma ki, ikisi bir hava çalar.
Gah ürək deyəni, gah baş deyəni
Qələm yaza-yaza avara qalar.

Neçə-neçə dəniz daşdı önümdə,
Nə heyrətə düşdüm, nə hay qopardım.
Öz səbir kasamın ağır günümdə
Sakit duruşuna həsəd apardım.

Mən bir qayıq oldum, həsrət bir dəniz,
Ömür nə ucuzmuş, vüsal nə baha.
Ev-ev tanıdığım o boyda Təbriz
İndi yadımda da qalmayıb daha.



Məni sütül-sütül qocaldan həsrət
Özü vağamda da qocalmamışdır.
Məni sənətimdə ucaldan həsrət
Özü peşəsində ucalmamışdır.

Elə yurd salıb ki, üzümdə kədər,
Nə qədər yuyuram, getmir ki, getmir.
Hədər axıb-gedir sular da, hədər,
Arzumun çiçəyi bitmir ki, bitmir.

Təlatümə gələn coşğun əsəbin
Çılğın övladıdır qəhrəmanlıq da.
Qətiyyətə dönən odlu qəzəbin
Külü yox, közüdür peşimanlıq da.

Bəli! Məclislərdə sıxlaşar səflər,
Sağlıqlar deyilər masa başında.
Adamın haçansa çəkdiyi keflər
Qəmlərə çevrilər çatıq qaşında.

Ancaq neçə-neçə uzun səfərdə
Adam nəsə tapar, nəsə itirər.
Araya düşməsə duzlu kədər də,
Daimi sevinc də şitlik gətirər.

Haçandır həsrətəm yanıq dünyada
Savalan qarının nadir ətrinə.
O min çaylı dağa payi-piyada
Gedərəm bir çəngə duman xətrinə.

Bir-birinə dəyən budaqlar kimi
Yolları qataram bir-birinə mən.
Vüsal təşnələri dodaqlar kimi
Dumanı içərəm su yerinə mən.

Bir dağ ülviləşən ünsiyyətilə
Salam aparanda göyün üzünə,
Bir çəngə duman da məharətilə
Bir dağın ətrini çəkər özünə.

Kəndim! Demirəm ki, illər sanında
Sənə xidmətlərim qoçaqlığımdır.
Səndən uzaqsam da, sənin yanında
Mənim ağ saçım da üz ağlığımdır.

Hicranlı illəri yola salanda
Mən səni gəzdirdim özümdə, kəndim.
Dərdə dözə-dözə yaşa dolanda
Mərdlik sayılırmış dözüm də, kəndim!

Sən demə, yollara həsrət qonsa da
Təbiət təbiət, torpaq torpaqdır.
Hicranın Günəşi gur-gur yansa da,
Vüsalın dumanı daha parlaqdır.

Ağ-yumru ulduzlar sanki bu axşam
Qızıl almalardır göyün üzündə.
Hilalsa tiyədir... Onları tamam
Soymaqçın bir təpər duymur özündə.

Bu axşam öz parlaq nəğmələrilə
Yorğun xəyalımdan axdı Neştəri.*
Mənə şaqraq-şaqraq nəğmələrilə
Gileyli-gileyli baxdı Neştəri.

*Neştəri çayı



Kəndim! Doğma kəndim! O büllur sulu
Çay da yalnız mənim oduma düşdü.
Ulduzlara baxdım. Almayla dolu
Füsunkar bağların yadıma düşdü.

Dünyada ən munis, ən mehriban yer
Sənin, ancaq sənin öz qucağındır.
Dünyada ən şəffaf, ən çıraqban yer
İncilərlə dolu buz bulağındır.

Mən hər gün gəzdiyim küçələrində
Haçandır bir gün də gəzə bilmirəm.
Kəhkəşan misralı gecələrində
Misranı misraya düzə bilmirəm.

Görən külfət dolu otaqlarının
Hansı boşalıbdır, hansı dolubdur.
Görən nəğmə dolu bulaqlarının
Hansı quruyubdur, hansı qalıbdır.

Qarğıyıb qürbətin havasını da
Neçə-neçə qapı döyüb babalar.
Nahaq qərib quşun yuvasını da
Tanrı özü tikər deyib babalar.

Mənə deməsinlər niyə həyatda
Həmişə tutqunam buludlar kimi.
Gülməyim bir yana, toyda, büsatda
Dinib-danışmıram sükutlar kimi.

Mən ki, bir il tamam öz Vətənimdə
Təbəssümlə dolu təzə çiçəkdim.
Leysana dönsə də söz Vətənimdə,
Alışıb gurlayan canlı şimşəkdim.

Döyüşlərdə keçən çağlar içində
Gah bağı süzürdüm, gah da ki, dağı.
Deyirdim şöhrətli bağlar içində
Nadirdir Təbrizin Gülüstan bağı.

Səhənd dərəsindən bilmirəm niyə
Duman gah qapqara, gah dümağ çıxır.
Ancaq qucağında mən dürrəm deyə
Hər daşın dibindən bir bulaq çıxır.

Ayrılığın toru gözü də bağlar,
Yox! Sanmayın gözüm görməyir daha.
Ancaq o nemətlər, ancaq o çağlar
İndi yuxuma da girməyir daha.

Günah özümdədir. Bir həqiqəti
Yazım, aşkarlansın söz əllərimlə.
Amansız düşmənə bir məmləkəti
Mən özüm vermişəm öz əllərimlə.

Bilsəydim döşümü güllə sökəcək,
Yolumu cəbhəyə salardım yenə.
Duysaydım ayrılıq uzun çəkəcək,
Ölərdim, Təbrizdə qalardım yenə.

Yavanlıq tapmayan insanlar təki
Mən korluq çəksəm də şöhrət sarıdan,
Tufanla çarpışan sarbanlar təki
Korluq çəkməmişəm qeyrət sarıdan.

Dəyişdi neçə yol, ünsiyyət, maraq,
Yaşadım həmişə bir biçimdə mən.
Yox! Yox! Yana-yana kül oldum... Ancaq
Odumu saxladım öz içimdə mən.



Deyirlər mərd, qadir, təmiz əlindən
Hər şeyi çıxsa da, kişi ağlamaz.
Şimşək qılıncıyla vurub belindən
Haraya yıxsa da, kişi ağlamaz.

Kim görüb həsrətin çağlamağını?
Şəlalə olmaq da bir kişilikdir!
– Vətən! deyə-deyə ağlamağını
Boynuna almaq da bir kişilikdir!

İsti göz yaşıyla elə dolur ki,
Sərin havada da yatmayır dünya.
Heyrətə gəlirəm, necə olur ki,
Göz yaşı içində batmayır dünya?

Zəngin xəzinəsə dünyanın özü
Hüsnüylə sevilir, daş-qaşıyla yox!
Sinəsində yanan alovu-közü
Rəşadətlə sönür, göz yaşıyla yox!

Xətərdən qorxsa da dünyanın gözü
Daha nə od görsün, nə də ki, dava.
Dünyanın yolunda dünyanın özü
Yaşıl işıq olsun, yazlaşsın hava!

Bir büllur ürəkdir sürətlə çarpan
Qüdsiyyətlə dolu Qəcəl bulağın.
Suyunu üzümə-gözümə çırpan
Ərköyün bulağın, dəcəl bulağın.

Mənsiz yaşa dolan müdrik insan tək
Daha unutsa da dəcəlliyini,
Görüş gününədək məşhur ünvan tək
Özündə saxlasın qəcəlliyini...

Hələ yoxamsa da öz mahalımda,
Sənə nəğmələrdən don biçirəm mən.
Haçan susayıram öz xəyalımda
Qəcəl bulağından su içirəm mən.

Haçan alışıram ulduzlar doğan
Neştəri çayında sərinləyirəm.
Bəli! Havasından od-alov yağan
Şəhərin yayında sərinləyirəm.

Demə səsimdəki qəm yanıqlıdır,
Dilim kamançadır, sözüm bayatı!
Axı həm həsrətli, həm yanğılıdır
Vətəndə Vətənsiz şair həyatı.

Sanma yana-yana külə dönürəm,
Bir daha alışıb-yana bilmərəm.
Yox! Yox! Yana-yana selə dönürəm,
Çağlayan alovam, dona bilmərəm.

Elə zənn etmə ki, gözündə itən
Şöhrət zirvəsinə çatmaq istərəm.
Günəşdən də qaçıb sinəndə bitən
Bir ağac altında yatmaq istərəm.

Bəlkə öz qayğısız uşaqlığımı
Mən yuxumda görəm! Ancaq yenə şən!
İnan bir ömürlük oyaqlığımı
Elə bir yuxuyla dəyişərəm mən.

Quş xəyal uçsa da sarbanlar kimi
Hardasa düşdüyü mənzili vardır.
Sonsuz tanınsa da ümmanlar kimi
Məğrur dözümün də sahili vardır.



Ümid nədir? Kamın bitirəcəyi...
Özündən ucuz şey yoxdur dünyada.
Ancaq nə zamansa gətirəcəyi
Şeyin dəyərisə çoxdur dünyada...

Dünəni əynimə geyinsəm də mən,
Sabahın paltarı daha genişdir.
Əvvəllər keçmişlə öyünsəm də mən,
Gələcək gələcək, keçmiş keçmişdir...

Sən də mənim gülüm! Yadda saxla ki,
Özün olmasan da hələ yanımda,
Məni istər sına, istər yoxla ki,
Sənsiz keçməmişdir bircə anım da.

Dedim alov dolu şeiriyyətimlə
Taleyin hökmünü pozduraram mən.
Sənin həsrətini məharətimlə
Yollar ayrıcında azdıraram mən.

Sən demə həsrətlə dolu aləmdə
Mən aldadırmışam özümü, gülüm!
Yanan məşəllərə dönüb sinəmdə
Həsrət güllərinin düzümü, gülüm!

Orda fəryad yağır güllərin üstdə
Sarı bülbüllərin dimdiklərindən.
Orda alov düşür əllərin üstdə
Sənin uzun-uzun kirpiklərindən.

Elə öyrənib ki, mənə həsrətin,
Məni nə unudur, nə də ki, atır.
İstəmir yanına dönə həsrətin,
Gecələr mənimlə qol-boyun yatır.

Sənsiz nə sevinmiş, nə də gülmüşəm,
Axı sən arada sərhədləşibsən.
Yox! Sərhəd nədir ki? İndi bilmişəm,
Yanımda sən özün həsrətləşibsən.

Sanma əritsə də xiffətin məni,
Sevgi nə saralan, nə də solandır.
Yox! Elə saraldıb həsrətin məni,
İnan ki, yanımda xəzəl yalandır.

Həsrət yaman şeydir! Fürsət düşsəydi
Səma boyda səbri daraldardı o.
Dənizə bir ovuc həsrət düşsəydi
Mavi dalğaları saraldardı o.

Nə olsun? Sevginin əziyyətini
Mərdliklə çəkməkdən kim usanar, kim?
Yanğılı həsrətin şeiriyyətini
Dilinə almaqdan kim utanar, kim?

Həmişə özünü düşünən insan
Dünyada tək-tənha qalar bayquş tək.
Qışda neçəsiyçün üşünən insan
Yazın köynəyinə düşər naxış tək.

Yaxşı ki, nigaran xiffətin varmış,
Mən hardan bilərdim qədrini sənin.
Yaxşı ki, mehriban həsrətin varmış,
Mən nədən alardım ətrini sənin?

Bəlkə kama işıq salmaq xətrinə
Həsrətdə parlayan şölə yaxşıdır.
Bəlkə həmişə tər qalmaq xətrinə
Bülbül toxunmasa gülə yaxşıdır.



Sevgi də Günəşə bənzəyir düzü,
Yaxına gələni yandırıb-yaxır.
Sonra qurbanına buludlu gözü
Peşiman-peşiman baxdıqca-baxır.

Sevgi başdan-başa vulkan olanda,
Dözümsüz aşığa aşıq deyilməz.
Dəniz başdan-başa tufan olanda
Cürətsiz qayığa qayıq deyilməz.

Fikir əsib-susan bir sazaq deyil,
Yox! Nə əvvəli var, nə də ki, sonu.
Damarlı olsa da əl yarpaq deyil,
Hər kəsin önündə açasan onu.

Ünsiyyət, məhəbbət, sədaqət, həsrət
Gözdə doğulsa da, dillə birləşir.
Əl də yalqızlığı sevməyir, fəqət
Bir həyan axtaran əllə birləşir.

Bizim də əlimiz həsrət içində
Birləşmək istədi... Həya qoymadı.
Yox! Yox! Top atəşli dəhşət içində
Hicran simfoniyalı dünya qoymadı.

Yaxşı ki, yağışda, qarda, sazaqda
Əlini əlimə aldım doyunca.
İndi qalmışsa da əlin uzaqda,
İstisi bəsimdir ömrüm boyunca.

Deyirlər sən yenə kəndimizdəsən,
Mənsə kəndimizə keçə bilmirəm.
Düzünü yaz mənə! Kəndimizdəsən?
Mən nə gündüz, nə də gecə bilmirəm.

Hava zəmilərdə şəfəq böləndə,
Sünbüllər saralır “Pələng ölən”də...
Gedən də bir dəstə biçir, gələn də,
Mənsə bir sünbül də biçə bilmirəm.

Sürətlə tökülüb mərmər daşına,
Bulaq, büllur bulaq axır başına...
Gah gülaba dönür, gah göz yaşına,
Mənsə bir qurtum da içə bilmirəm.

Həsrət oynayanda ağ tellərimlə,
Mən də vidalaşıb mərd ellərimlə,
Özümü boğardım öz əllərimlə,
Səndən, yalnız səndən keçə bilmirəm.

Mən quşu gözündən vuraram deyə,
Ötəri bir nəzər salardım göyə.
İndisə diqqətlə baxsam da, niyə
Ulduzu-ulduzdan seçə bilmirəm.

Gözlər yaşlarını sağır illərə,
İllər leysan-leysan yağır illərə...
Nisgili ümmandan ağır illərə
Mən necə dözmüşəm, necə, bilmirəm!..

Vay o zamandan ki, ünsiyyət tarın
Dinə həsrət dolu tərənə təki.
Sənə ürəyində gəl deyən yarın
Dilində get deyə biganə təki.

Yox! Tale qoymasın pozula yazı,
Tufanlar apara ömrün duzunu.
Bütün varlığınla sevdiyin qızı
İtirib gəzəsən illər uzunu...



Hər hansı döyüşdə büdrəyən insan
Torpağa yıxılır, yalnız torpağa.
Bilir ki, özünə gəldiyi zaman
Torpaq qaldıracaq onu ayağa.

Gərək sədaqətsiz insanlarda da
Torpaq sədaqəti olaydı, gülüm!
Sədaqət həsrətli zamanlarda da
Torpağın yaşına dolaydı, gülüm!

Mən sənin sevgini daşıyıram ki...
– Qayğısızsan! – deyə darıma məni.
Mən sənin özündə yaşayıram ki,
Özündən kənarda arama məni.

Bəzən aralıqda itir ünsiyyət,
Yox olur insanın gözündə, gülüm!
Sənin axtardığın canlı səadət
Sənin özündədir, özündə, gülüm!

Bəli! Yalnız səndə yaşayıram mən,
Sənsən baxtım, sevgim, arxam, umudum.
Deyirsən sən məni unut! Onda sən
Zəhmət çək de, de görüm, necə unudum?

Yox! Yox! Özünü də unudan insan,
Sevdiyi gözəli unuda bilmir.
Təlatümlü çayı qurudan insan
Səssiz göz yaşını quruda bilmir.

Demə ki, göz yaşı yaman acizdir,
O buxara dönər köz alovunda.
Göz yaşı yandıqca yanan dənizdir,
Dağı da əridir öz alovunda.

Biz toya gedəndə qalxıb ayağa
Dostlar ikimizi başa çəkərdi.
Bir sağlıq deyən də düşüb qabağa
Adını adımla qoşa çəkərdi.

Dinib-danışdıqca mənim yanımda,
Ən gözəl nəğməmə bənzəyərdin sən.
Füsunkar olsaydı neçə xanım da,
Toyu öz hüsnünlə bəzəyərdin sən.

Həsrətin yolunu çəpərləmişəm,
Yenə sevgin öpür yanaqlarımdan.
Adını mən elə əzbərləmişəm
Qopara bilməzsən dodaqlarımdan.

Yaşı da, hüsnü də ulu dünyada
Ömrün hər bir anı nigaranlıqdır.
Bəli! Keşməkeşlə dolu dünyada
İnamla yaşamaq qəhrəmanlıqdır.

Sənin qəhqəhəyə dönən gülüşün
Hələ gözlərimdə axın kimidir.
Sənin uzaqdan da uzaq görüşün
Mənə yaxından da yaxın kimidir.

Sevgi qoşa olar! Saxla yadında,
Baş-başa qoymasan, odun da yanmaz.
Mən yanmaq istərəm sənin odunda,
Kim canlı Günəşin odunda yanmaz?

Demə bərabərlik xoşdur! Bağlarda
Yarpaq da yarpaqdan üstün olmasın!
Duman arxasında qalan dağlarda
Çıraq da çıraqdan üstün olmasın!



Qoyma xatirəyə çevirəm səni,
Nadir şəkil olsan, boya mənimdir.
Desən ki, yenə də sevirəm səni,
Elə bilərəm ki, dünya mənimdir.

Bəli! Alovlanan şimşək sayağı
Hələ yanmasan da iqbalımda sən,
Təmizdən də təmiz mələk sayağı
Gözəldən gözəlsən xəyalımda sən.

Demə ki, sinəmdən qopan hər sözüm
Nöqsansız, qüsursuz təzə imladır.
Yolunu çox çətin tapan hər sözüm
Qayadan süzülən büllur damladır.

Qoy büllur damlalar hopsun duyğuna,
Məgər su yanğını soyuda bilməz?
Yox! Yox! Mən bələdəm isti qayğına,
Günəşi bir kimsə unuda bilməz.

İnsanın insana qayğısı nədir?
Vicdandan yoğrulmuş ən böyük şəfqət!
Ürəyin mehriban duyğusu nədir?
Ülfət, səmimiyyət, məhəbbət, hörmət!

İnsan yaşlaşanda, vağam çiçək tək
İtirir hüsnünün şuxluğunu da.
Duyur ürəyində qızıl şimşək tək
Yanıb-sönən odun yoxluğunu da.

Sənin gözlərinin bəbəklərini
Qara alovlardan biçibdir gecə.
Yox! Biryolluq yığıb ətəklərini
Sənin gözlərinə köçübdür gecə.

Səni can köynəyim sanıram, gülüm,
Qırçını sənindir, ütüsü mənim!
Sevginin odunda yanıram, gülüm,
İşığı sənindir, istisi mənim.

Yollarımız nədir? Vahid bir ünvan!
Yox! Yox! Ayrılmışdır iqbalımız da.
Uşaqlara dönüb vüsalla hicran
Gizlənpaç oynayır xəyalımızda...

Bu onu, o bunu sürətlə qovur,
Ancaq tuta bilmir biri-birini.
Fürsətsə atını möhlətlə qovur,
Tez-tez dəyişdirir sabiq yerini.

Vüsalla hicranın oyunu dəhşət,
Daha nə baxırıq, nə vuruluruq.
Oyun oynayanlar yorulmur... Fəqət
Tamaşa etməkdən biz yoruluruq.

Ümid! O olmasa, tale küləyi
Divin də dizini qatlaya bilər.
Müsibət görməyən insan ürəyi
Təkcə təsəvvürdən partlaya bilər.

Ümid də şirindir səhər yuxum tək,
O əvvəl butadır, sonra çiçəkdir.
Ümid göyərməsə, seçmə toxum tək
Necə qalır qalsın, kimə gərəkdir?

– Uğur! – deyə-deyə ağlayan kəsi
Ümidlə yaşadır ürək dünyada.
Ömrünü ümidə bağlayan kəsi
Ümid unutmasın gərək dünyada.



Dolaşıq zamanda düz ola-ola
Ümidlə aldanmaq bir fəlakətdir.
Ümidlə həyatdan kam ala-ala
Son mənzilə çatmaq min səadətdir!

Hicran qara üzü ağ olsun deyə,
Qara saçımızda tel-tel ağarır.
Eh, vüsalın canı sağ olsun deyə
Qarşıda ağ günlər gül-gül ağarır.

Alovun içindən çıxıb gələrəm,
Təki hərarətlə sən çağır məni.
Yalçın qayaları yıxıb gələrəm,
Təki cəsarətlə sən çağır məni.

Ağzımda quruyan dilə baxmaram,
Ürəyimdə əsən telə baxmaram,
Qarşımda kükrəyən selə baxmaram,
Təki qüdsiyyətlə sən çağır məni.

Bir çay sahilində ocaq asmaram,
Sevdiyim rübaba qulaq asmaram,
Günəşli zirvədən bayraq asmaram,
Təki ülviyyətlə sən çağır məni.

İnsan necə doyar, necə gözəldən,
Saçı, şəvə saçı gecə gözəldən,
Bir söz də yazmaram neçə gözəldən,
Təki məhəbbətlə sən çağır məni.

Yolunda şeir əkib biçərəm, inan,
Su yoxsa, buludu içərəm, inan,
Bütün uğurlardan keçərəm, inan,
Təki səadətlə sən çağır məni.

Mən tanrım sanmışam söz sənətimi,
Görüb milyon-milyon göz sənətimi,
Sənə bağışlaram öz sənətimi,
Təki ləyaqətlə sən çağır məni.

Sinəmdə arzular bitirəndə mən,
Döyüş alovunda yandım gənc yaşda.
Sonra səni tamam itirəndə mən,
Gözümdən çıxmadı bir damla yaş da.

Mənim əvəzimdə varaqlar üstdə
Misralar ağladı, kövrək misralar.
Bəli! Nəğmələşən dodaqlar üstdə
Göz yaşıyla çimdi çiçək misralar.

İndi mat qalmasın gözümə baxan,
– Ağlama! Deməsin mənə hər nadan.
Yox! Mən ağlamıram! Üzümə axan
Başımdakı qarın suyudur, inan!

***Beşinci nəğmə.***

Kim biganə olar öz sənətinə,
Şöhrətdən danışma yenə, sevgilim!
Mən özüm şöhrətəm söz sənətinə,
Şöhrət nə gərəkdir mənə, sevgilim!

Yanğılı kamana sən diqqətlə bax,
Sanki gözdən düşmüş iri ilədir.
O bircə ilədə sən ümmana ax,
Gör o nə haraydır, o nə nalədir?



Kamanın səsilə mənim səsimin
Qohumluğu vardır, küləklər kimi.
Mənim həm zilimin, həm də pəsimin
Yanğısı alışır şimşəklər kimi.

Ümman ürəyimdə haçan, harada
Dalğa-dalğa keçir həyəcanlarım,
Gözümdə qarışır ağ da, qara da,
Yüz ölçüb, bir biçir həyəcanlarım.

Güllü köynəyini geyir sahillər,
Başını su üstə əyir sahillər,
– Gəlin həyəcanlar! – deyir sahillər,
Tək bir sahil seçir həyəcanlarım.

Yox! O sahil deyil, öz iradəmdir,
Ömür, məslək, sevgi, söz iradəmdir,
Həmişə düz yollu düz iradəmdir,
Düzlüyə and içir həyəcanlarım.

Əvvəl qara qara, ağ da ağ olur,
Sonra dərə dərə, dağ da dağ olur,
Bəli! Meşə meşə, bağ da bağ olur,
Həqiqəti ölçür həyəcanlarım...

Gəldi gedərsə də çılğın qonaq tək,
Sinəmdə iz salır şıltaq uşaq tək...
Haçan susuyursa təşnə dodaq tək,
İlhamımı içir həyəcanlarım...

Ədalət müzəffər bayrağa dönür,
Qəzəbim səngimiş ocağa dönür,
Ürəyim boşalmış yaylağa dönür,
Karvan-karvan köçür həyəcanlarım...

Kim bilmir səadət qönçəsi kimi
Ulduz parlamadı yaxamda mənim.
Öz sənətim oldu neçəsi kimi
Zinətim də mənim, arxam da mənim.

Dedim – Mən də dağam! – qalxdıqca qalxdım,
Bir nəsil söykəndi məhrəm arxama.
Dedim – Mən də çayam! Axdıqca axdım,
Günəş özü qondu büllur dalğama.

Şair millətinin könlünün odu,
Şair Vətəninin iti gözüdür.
Şairin ən fəxri, ən böyük adı
Elə əzəmətli şair sözüdür.

Aşkarda görünüb bir dost donunda,
Xəlvətdə paxıllar yolumu qazdı.
Tanrımsa dinmədi... Bəlkə onun da
İkiüzlülərlə arası sazdı.

Könlüm öyünsə də cəsarətilə,
Xəyanət dövranın küləyi oldu.
Yaxşı ki, qələmim dəyanətilə
Sənət sarayımın dirəyi oldu.

Hər yerdə, hər zaman həqiqət gəzən
Hakimi andırır xəyallı şair.
Əfsus, açılmayan baxtını bəzən
Məhkumluqla açır zavallı şair.

Şair var, taleyin tufanlarıyla
Döyüşə-döyüşə qalxır zirvəyə.
Şair var, yaltaqlıq imkanlarıyla
Əyilə-əyilə qalxır zirvəyə.



Haçansa, hardasa təntənə qurmaq
Solğun istedadı dirçəldə bilməz.
"Böyük" adamlarla oturub-durmaq
Kiçik adamları yüksəldə bilməz.

Yalanı qaldırmaq fəlakətdirsə,
Endirmək ən böyük qəhrəmanlıqdır.
Vicdanı itirmək müsibətdirsə,
Axtarmaq ən uzun nigaranlıqdır.

Dünyada həm insan, həm də günah çox,
Həyatı dərindən duyasan gərək.
Günahı nə suyla, nə də qanla yox,
Büllur etirafla yuyasan gərək.

Arabir ürəyim elə yanır ki,
Az qalır gecəni işıqlandıra.
Ay batır... O isə hələ yanır ki,
Fikrimdən keçəni işıqlandıra.

Yoxsa surətlərim zülmətə düşüb
Sənət yollarında aza bilərlər.
Bir parıltı görcək heyrətə düşüb
Misi də qızıla yoza bilərlər.

Qəzəbim şimşəkdən çox odludur, çox,
Nə yerə, nə göyə sığıram daha.
Fəqət qəzəbimi yumruğuma yox,
Qurşun qələmimə yığıram daha.

Qıtlıqda bir çıxış yolu olsa da,
Borc insan gözünə kölgə salandır.
Təmtəraqlı sözlə dolu olsa da,
Borca-borc yazılan tərif yalandır.

Əsl tənqidçiyə yaraşmaz sığal,
O gərək tənqidi dəqiq eləsin.
“Qadir” müəllifdən çəkdiyi misal
“Halal” – tərifini təsdiq eləsin.

Yoxsa kim ucalar getsə göylə də,
Tənqidçi çömçəni bulayar ancaq.
Ya yaşıl çəməndə, ya boz tövlədə
Mal malı borca borc yalayar ancaq.

Şair! Özün inan doğma sözünə,
Özgənin tərifi bəlkə yalandır?
Yox! Öz güzgüsünü qoyub, özünə
Özgə güzgüsündə baxmaq yamandır!

Bir hikmət olsa da söz ütüsündə,
Varaqda yalanı sındıra bilməz.
Alov boğularsa öz tüstüsündə,
Heç zaman, heç yeri yandıra bilməz.

Xəyalla baş-başa qalmasan da sən,
Diqqətlə baş-başa qalasan gərək!
Hər şeydə vasvası olmasan da sən,
Sənətdə vasvası olasan gərək!

Məxmər kürsüdə də, daş zindanda da
Sənətkar sənətkar, qələm qələmdir!
Kirpiklərdə donan sərt tufanda da
Ürəyi günəşlə dolu aləmdir.

Demə ki, dünyada nədən şairin
Ulduzu gecdən gec doğulur bəzən.
Dərindən dərinə gedən şairin
Özü dərinlikdə boğulur bəzən.



İtkiyə yas tutur anamız torpaq,
İtki ayrılıqdır, itki həsrətdir.
Dahi bir şairi öldürüb ancaq
Üstündə ağlamaq böyük dəhşətdir.

Bir ağac üstündə çalışsa insan,
Yaşıl bir ulduza dönər hər yarpaq.
Münbit torpağa da qarışsa insan,
Gül ömrü təzədən cücərməz ancaq.

Qayanın döşündən axıb tökülən
Çeşmə təmizliklə əkiz deyilmi?
Ancaq dönə-dönə suya çəkilən
Daşlar çeşmələrdən təmiz deyilmi?

Demirəm dəyişib həvəsimizi
Çeşmə daşlarını andıraq biz də.
Yox! Oda döndərib nəfəsimizi
Vicdan günəşini yandıraq biz də!

Demirəm rəngbərəng çiçəklər kimi
Xoşbəxtlik dünyada növ-növ olmayır.
Fəqət parçalanmış ürəklər kimi
Xoşbəxtlik heç zaman bütöv olmayır.

Vəd yox, əsər istər sənət aclığı,
Ürək, yalqız ürək ilhamla dolar.
Xəyala sığmayan şöhrət aclığı
Çörək aclığından dəhşətli olar.

Kim istər sənətkar yanıb odlara
Sənətin göyündə ulduzlaşmasın?
Ancaq ki, az olsun fəxri adlar da
Çoxala-çoxala ucuzlaşmasın.

Çiçək arzulasa qışda ürəyi,
Yazda tamaşaya gəlsin oxucu.
Təbii çiçəklə süni çiçəyi
Ayırıb fərqini bilsin oxucu.

Taledən nə şöhrət, nə cəlal umdum,
Yox! Yox! Mənim arzum düşkün olmadı.
Taledən əbədi bir vüsal umdum,
Bir günlük görüş də mümkün olmadı.

Tale soyuq-soyuq baxdı ay qələm,
Mənim hərarətli duyğuma yenə.
Bəli! Nə səxavət gördüm, nə kərəm,
Dünyada sən qaldın qayğıma yenə.

Yaxşı ki, sevgilim bu ünsiyyətdə
Sənə qısqanmadı məni, ay qələm!
Yox! Bu məhəbbətdə, bu hərarətdə
O da məhrəm bildi səni, ay qələm!

Bəzən təranəli çeşmələr üstdə
Təranə-təranə dinən də sənsən!
Bəzən yaralanmış nəğmələr üstdə
Cərrah bıçağına dönən də sənsən!

İncilərlə dolu dənizlər təki
– Şeir yazım! – deyə çağlasa ürək,
Ata bir, ana bir əkizlər təki
Şeirlə hikmət də yaransın gərək!

Sən məndən öyrənib sonsuz dözümü
Sənətdə nə çaşdın, nə də ki azdın.
Mənim ürəyimdən gələn sözümü
Mürəkkəblə deyil, alovla yazdın!



Vətənin gül dolu torpaqlarından
Sən yaz rayihəli uğurla keçdin.
Ömür kitabımın varaqlarından
Sən xəcalətlə yox, qürurla keçdin.

### *Altıncı nəğmə.*

Dedim atəşindən doğdum, dilim, mən,
Günəş təzələndi təravətindən.
Uğrunda doğransam dilim-dilim mən,
Yenə də keçmərəm şeiriyyətindən.

Dəniz sahillərdən görünən təki,
Mənim içərim də dilimdə olub.
Kitab cilidlərə bürünən təki
Mənim ürəyim də əlimdə olub.

Bəli! Mən açmışam öz ürəyimi,
Səhifə-səhifə cahan oxuyub.
O marşa döndərib hər diləyimi,
Şahların şahına meydan oxuyub.

Desələr ki, varam, baxanlar duyar,
Susanda özümdə olmayıram mən.
Desələr ki, yoxam, kim doğru sayar
Hər dinən sözümdə olmayıram mən.

Arzular karvandır, mən isə sarban,
Gecələr ay mənə məşəl olsaydı!
Ömrümü bəxtiyar sanardım, inan,
Bütün arzularım əməl olsaydı!

Yox! Ulduzlar göydə tamam yansa da,
Yarısı solğundur, yarısı parlaq.
Arzular uğrunda adam yansa da,
Hər arzu günəşə dönməyir ancaq.

Ürəyim sinəmdə dilə gəlir ki,
Unutma! Yaxşılıq xoşlayır dünya!
Mənə elə gəlir, elə gəlir ki,
Doğma Vətənimdən başlayır dünya!

Vətən bahadirdir, Vətən igiddir,
Köksünə yazılar başından ötən.
Özü deməsə də aləm şahiddir,
Arxasız əsgərdir keçmişsiz Vətən.

Məsləki, Vətəni əziz ocaq tək
Mən ki, qoşa sevdim... Bu məlum haldı.
Bəs niyə məsləkim yaşıl yarpaq tək
Məni Vətənimdən uzağa saldı?

Ulduzlar taledir şeiriyyət dolu,
Böyüyü-kiçiyi kəhkəşandadır.
Yaxşı ki, mənim də hərarət dolu
Yeniyetməliyim Savalandadır.

Bəli! Zaman vardı durub keşikdə
Savalan süzəndə doğma elləri,
Yemlik rayihəli "Yelli gədik"də
Sinəmi döyərdi bahar yelləri.

Ömrü xərcləmişəm... Sanma ki, ancaq,
Özünün keyfinə xərcləmişəm mən.
Yox! Hüsnü gülüstan, həsrəti bayraq
Vətənin nəfinə xərcləmişəm mən.



Nəfəsi ətirli bahara düşsəm,
Təpədən-dırnağa gülə dönərəm.
Yandığım ocaqdan kənara düşsəm,
Köz nədir? Soyumuş külə dönərəm.

Füzuli nə susar, nə baş əyərdi,
Yanardı həsrətli gözlərində yaş.
Şikayətlə dolu səslə deyərdi
Fələklər başıma daş yağdırır, daş.

Bəli! O hicrana, o zülmə qənim
Daşın yağmasını dəhşət sanardı.
Görsəydi başıma od yağıb mənim,
Özünü unudub, mənə yanardı.

Bu ulu tarixdə ən böyük həsrət
Mənim həsrətimdir, mənim həsrətim.
Üzümə narazı baxmasın heyrət,
Özümlə yaşıddır həsrət xiffətim.

Ağır illər yüklü insan fil deyil,
Uşağa dönmüşəm müdrik yaşımda.
Saçımda ağaran sanki tel deyil,
Anamın südüdür donmuş başımda.

Mənə deməyin ki, sən odsan əgər,
Gözünü qurudar ağlayan həsrət.
Yox! Yox! Oddan artıq yandırmır məgər
Mənim ürəyimi dağlayan həsrət?

Bəli! Yaman şeydir Vətən həsrəti,
Soyuq məzarı da yandırıb-yaxar.
Sanki küsmüş neydir Vətən həsrəti,
Dünyanın üzünə gileylə baxar.

Bulud qabarmamış ağ balınc kimi,
Keçdim neçə-neçə zülmət içindən.
Dedim ki, ovxarlı bir qılınc kimi
Sıyrılıb çıxaram həsrət içindən.

Əfsus! Öz qınımı kəsdimsə də mən,
Həsrətin içindən çıxa bilmədim.
Bir yazın üstündə əsdimsə də mən,
Bir gülün üzünə baxa bilmədim.

Təbriz min havanın bir valı olsa,
Yanğılı nəğməsi mənim şeirimdir.
Təbriz min naxışlı bir xalı olsa,
Heyrətli ilməsi mənim şeirimdir.

### *Yeddinci nəğmə.*

Qalın olmasa da üst-başım, Vətən,
Qürurla dolandım soyuqlarda mən.
Qırov bağlasa da göz-qaşım, Vətən,
Girib isinmədim qoltuqlarda mən.

Dünyada yarımçıq həqiqət olmur,
Həqiqət özü də bütövlük sevir.
Dünyada yarımçıq səadət olmur,
Səadət özü də bütövlük sevir.

Məni ildən-ilə atdıqca həsrət,
Hayıma nə görüş gəlir, nə inam.
Məni bu nəşəli dünyada fəqət
Əziyyət çəkməyə doğubdur anam.



– Biz fövqük! Deməsin dağlar nahaqdan,
Dağı da qabardır görüş diləyi.
Diqqətlə baxanda, hələ uzaqdan
Zəhmlə töyşüdür sakit ürəyi.

Həsrət acgözlüklə sorur insanı,
– Daha doydum! – demir əjdaha kimi.
Zorla yaşamaq da yorur insanı,
Gümanı qalmayır sabaha kimi.

Nə olsun həsrətin görünmür sonu,
Hüsnün sakinləşib öz ürəyimdə.
Mən daim görürəm... İstəsən onu
Sən də xəyalınla süz ürəyimdə.

Həm yası görmüşəm, həm də ki, toyu,
Sanma ki, nədənsə xəbərim yoxdur.
Ancaq bilmirəm ki, dünyanın suyu,
Yoxsa ki, insanın göz yaşı çoxdur.

Deyirəm istedad mərd olsun! Ancaq
Gözə soxulmasın sırtıqlar təki.
Deyirəm iradə cəld olsun! Ancaq
Əldən sürüşməsin balıqlar təki.

Ürəyim dəryadır... Sirrlər adalar,
Kim deyir adalar qabara bilmir.
Dalğa-dalğa gələn namərd sədalar
Bircə adanı da qopara bilmir.

Səhərlər üfüqdən günəş qalxanda,
Bir dəstə buludda alışıb ancaq.
Axşamlar dilimdən atəş axanda
Neçə-neçə şeirə qarışıb ancaq.

Deyirəm bir uzun dastan başlayım,
Ürək o ürəkdir, baş o baş deyil.
Deyirəm bir qalın roman başlayım,
Arzu o arzudur, yaş o yaş deyil.

Deyirəm unudub peşimanlığı
Gedən qaranquşlar qatarla gəlsin.
Deyirəm hər kəsin öz cavanlığı
Payızla keçsə də, baharla gəlsin!

Yaşlaşmış insanın həyat Günəşi
Hardasa batsa da, doğsun təzədən.
Bəlkə bir ürəyin yanan atəşi
Min ömrün qışına yağsın təzədən.

Kim şəfqətlə seçir ağı qaradan,
Deyirlər nə yaxşı, vicdansız deyil.
Ancaq könlümüzdə şəfqət yaradan
Həssaslıq özü də ziyansız deyil.

Bəli! İti gözlü həssaslığımız
Sanki ovsunuyla yatırır bizi.
Dənizə baş vuran qəvvaslığımız
Dərində yox, üzdə batırır bizi.

Mətinlik qatmasaq həssaslığa biz,
O qaya olsa da kövrələ bilər.
Müdriklik verməsək qəvvaslığa biz,
O yetim uşağa çevrilə bilər.

Zəhmətkeş atalar dünyaya baxıb
Dedi daşdan çıxan çörək halaldır,
Mənim çörəyimsə dəmirdən çıxıb,
Görəsən o nədir? Yaxşı sualdır!



Gecələr yazıma uğurlar deyən
Ulduzlar yoruldu, mən yorulmadım.
Təlatümə gəlib sahili döyən
Dalğalar duruldu, mən durulmadım.

...Rəssamlar nə qədər lövhə çəkirlər,
Nağıldan maraqlı, günəşdən parlaq.
Şairlər nə yazsa, quru fikirlər
Hissin yağışıyla göyərir ancaq.

Bağbanın nəfəsi toxunmayırsa,
De, necə açılsın gül yarpaq-yarpaq?
Nəğmə əzəmətlə oxunmayırsa,
De, necə dolaşsın söz dodaq-dodaq?

Qələm daş olsaydı, başını o da
Bəlkə dik tutardı zirvə sayağı.
Ancaq qələm oldu o doğma yurdda,
Yazdıqca başını saldı aşağı.

Yaman dərddir hörmət möhtaclar kimi
Təmənnayla dolu qılıqdan çıxa.
İnsan – Şöhrət! – deyə ağaclar kimi
Çırpına-çırpına qabıqdan çıxa.

Yox! Amansız deyil ana təbiət,
Ağaclar vaxtında çıxır qabıqdan.
Yalnız əzəməti itən ləyaqət
Neçə səddən keçir, neçə qılıqdan.

Bəli! Öz xalqının ağır günündə
Döyüş alovunda bişənlər də var.
Rahatca əyləşib ocaq önündə
Odu qabağına eşənlər də var.

Mənsə ocağımdan od istəyənə
Günəş verdim! Dedim inan uğura!
Məndən bir yanıqlı ud istəyənə
Bir orkestr verdim! Çalıb çağıra...

İstəmirəm sabah ülviyyətilə
Dünyaya tanıtsın abidəm məni.
İstəyirəm bu gün qətiyyətilə
Timsala döndərsin iradəm məni.

### *Səkkizinci nəğmə.*

Dahilər dünyaya gəlirlər ancaq
Dünyadan getmirlər qonaqlar kimi.
Yox! Daim qalırlar ölümdən uzaq
Yüksələn həyata dayaqlar kimi.

Mənsə nə dahiyəm, nə də hökmdar,
Axı hanı şanım, hanı şöhrətim?
Bir ilhamım vardır! O da intizar.
Mənim həm zəkamdır, həm də dövlətim.

Saç-saqqal ağardıb şən əyyamda mən,
Dedim yanaqları saraltmasın yaş.
Görkəmdə bənzədim, mən məqamda da
Dədəmiz Qorquda bənzəyəydim kaş!

– Vüsal! – deyə-deyə ağladım... Fəqət,
Göz yaşım qurtardı mehriban Vətən!
Mən dağa dönsəm də, əritdi qürbət,
Hicran qurtarmadı bilmirəm nədən.



İnsan, qadir insan müdrik olmasa,
Nə zərrəni görər, nə tükü, Vətən!
Səbri dərd yükündən böyük olmasa,
İnsan çəkə bilməz o yükü, Vətən!

Yaxşı ki, ömrümü qürbətə salan
Hicran zaman-zaman arıdıb məni.
Nə qədər neməti əlimdən alan
Taleyim səbrdən yarıdıb məni.

Yox! Yenə uyusa vüsal sükutda,
Suların ağlasın mənim yerimə.
Başının üstünü alan bulud da
Göz yaşına dönüb hopsun şeirimə.

Bəlkə nadir güldür vüsalın özü,
O gülü göz yaşı suvarsın gərək!
Sonra elə gülsün o gülün gözü
Ömrə sevinc olsun, taleyə bəzək!

Yox! Daşın üstdə də yaş qabarmasın,
Vüsal da göyərsin onsuz həyatda!
Hicran, uzun hicran baş aparmasın,
Hər şeyin sonu var sonsuz həyatda.

Vüsalın gəlişi bir məmləkətdə
Ən böyük, ən gözəl bayrama dönər.
Bəli! Həm məqsəddə, həm məhəbbətdə
Möhkəmdən də möhkəm inama dönər.

İnsanlar gəlir də, gedir də, fəqət
Həmişəbaharlı şəkillər qalır.
Duruşlarda solan mehriban ülfət,
Gözlərdə sozaran qəndillər qalır...

Evimdə nə cəlal, nə dəfinə var,
İlhamdan yoğrulmuş min təranə var,
Adi şəkillərdən bir xəzinə var,
Yolunun üstündə mənzillər qalır...

Şəklinə baxıram tanışların da,
Sənət görməsəm də naxışlarında,
Həyata dikilən baxışlarında
Uğurlar yaşayır, nisgillər qalır.

Şeirdir, tablodur, rübabdır dünya,
Yalnız hünərsizə əzabdır dünya.
Sanki daş sinəli kitabdır dünya,
İmzalar dalında nəsillər qalır.

O nəhəng kitabı hər nəsil yazır,
Ancaq nə saxtakar, nə xəcil yazır.
Kimi çox, kimisə bir fəsil yazır,
Hələ yazılmamış fəsillər qalır.

Gecəni gündüzə qatsa da insan,
Dalğalı dənizdə yatsa da insan,
Sahildən-sahilə çatsa da insan,
Öndə təzə-təzə sahillər qalır...

Yazdığım əsərlər ayağım altda
Qalanıb... Durmuşam zirvəsində mən.
Hələ yazmalıyam bayrağım altda
Sabahkı uğurlar həvəsində mən.

Şairin aldığı halal ilhamdır,
Almadığı nədir? Haram rüşvətdir.
Şair, təmiz şair elə adamdır
Yeri axirətdə yalnız cənnətdir. ***1989.***



## GÖRÜŞ ÖMRÜ

Uşaqlıqda istədim
Təzə-tər ilham olam.
Təbiətin özündən
Öyrənən rəssam olam.
Sonra da nəyim varsa,
Kətan üstə tökəm mən.
Həyat lövhələrini
Fırça ilə çəkəm mən.
Ancaq nədənsə fırça
Mənə olmadı qismət.
Həyat lövhələrini
Mən sözlə çəkdim fəqət.
Ona görə də mənə
Şair-rəssam dedilər.
Bəli! Yalqız ilhama
Qoşa ilham dedilər.
Yazıq yetimin haqda
Gör nə deyib atalar:
Yetimlə bir doğular
Müsibətlər, xatalar.
Yetimin kürəyini
Yayda da tufan döyər.
Ağzı aşa dəyəndə,
Başı da daşa dəyər.
Mənim bir söz yazmağa
Bir komam da olmadı.
Başım üstdə bulud da
Durub kölgə salmadı.

Bir yanda yox, hər yanda
Xumarlananda axşam,
Bir təmiz daş tapmadım
Mən də baş qoyub yatam.
Eh, günahsız daşlar da
Paklığını atmışdı.
Çalxanan məmləkətin
Çirkabına batmışdı.
Bəzən möhkəm, bəzənsə
Kövrək olsam da özüm,
Vüqara kövrəklik yox,
Dözüm gərəkdir! Dözüm!
Yoxsa o ya sürtülə,
Ya da yeyilə bilər.
Yoxsa o ya qırıla,
Ya da əyilə bilər.
Heybətli toppuzlara
Dönsə də ehtiyaclar,
Kamal dolu başlara
Ensə də ehtiyaclar,
Yenə də əyə bilməz
Qətiyyətli möhtacı.
Çırpıldıqca yerində
Bərkiyər tut ağacı.
İstedad bir qartaldır,
Zəhmət isə qanadı.
Uçuşuyla zirvəyə
Yüksəlməkdir muradı.
Dost! Yaz yeniyetmədir
Fəsillərin içində.
Mən də yeniyetməydim
Nəsillərin içində...



Kəndimizin hüsnünə
Gözlər dəyməsin deyə,
Günəşli taleyini
Tufan döyməsin deyə,
Ecazkar yaxasına
Heyran-heyran baxardım.
Göz muncuğu yerinə
Gözlərimi taxardım.
Doğrudan da dünyada
Qəşəngdən qəşəngdi o.
Savalanın boynundan
Asılmış çələngdi o.
Neçə yaz gecəsinin
Ətirli qucağında,
Gəzintiyə çıxardım
Gözəllik sorağında...
Bərəkətli yağışlar
Qıyıq-qıyıq yağanda,
Güllər ovuclarına
Mirvarilər yığanda,
Şimşək də buludları
Doğrayardı, keçərdi.
Qartallı qayalara
Büllurdan don biçərdi...
Gül dolu təpələrə
Qalxmaqdan yorulmazdım,
Qüdsiyyətləşən Aya
Baxmaqdan yorulmazdım.
Qayıdanda şəfqətlə
Nənəm deyərdi mənə:
“Yaz gecəsində munis
Görünsə də Ay sənə,

Nadir gözəlliyinə
Uzun uzadı baxma.
Yerində də möhkəm dur,
Ay işığında axma!
Yoxsa Ay baxışıyla
Özünə çəkər səni!
Üstəlik işığıyla
Döşünə tikər səni”.
Neçə-neçə doğmamı
Mən itirdiyim zaman,
Mehriban nənəmi də
Məndən ayırdı hicran...
Gözəl arzularımla
Yaman doldu ürəyim.
Hayıf, arzularıma
Zindan oldu ürəyim.
Bəli! Bircə arzum da
Qanadlana bilmədi.
Ancaq ürəyimdə də
Rahatlana bilmədi.
Harada əkiz gördüm
Sevindim uşaq kimi.
Buludlu gözlərim də
Duruldu bulaq kimi.
Əkiz gül görəndə də,
Əkiz daş görəndə də,
Əkiz ot görəndə də,
Əkiz quş görəndə də
Mən sevindim...
Dedim ki
Heç nə yalqız olmasın!
Dünya məni udsa da,
Yenə yalqız olmasın!



Deyirlər ki, kədər də
Sevinc ilə əkizdir.
İkisi də insana
Həm doğma, həm əzizdir.
Yox! Yox! Bu əkizliyə
Təəssüf edirəm mən.
Arabir saatlarla
Xəyala gedirəm mən.
Haradasa düşürəm
Suallar dənizinə.
Doğma da doğmasına,
Əziz də əzizinə
Heç əziyyət verərmi
Şıltaq körpələr təki?
Ürəyi sızıldadan
Soyuq qəlpələr təki?
Yox! Yox! Kədər sevinclə
Əkiz deyil... Yoldaşdır.
Olsa-olsa, dünyada
Yalnız ögey qardaşdır.
Mən özüm bir yaxşılıq
Görməsəm də dünyada,
Dedim yaxşılıqlarla
Bəşər çatsın murada!
Yaxşılıqlar payladım
Qayğı dolu gözümlə.
Sanki yaxşılıqlara
Qarışdım hər sözümlə...
Dedilər su səhəngi
Su yolunda sınar da,
Neçəsi o səhəngi
Daşıyanı qınar da.

Mənsə öz adətimi
Vicdanımda daşıdım.
Mən təmizdim! Vicdanım
Mənim təmiz yaşıdım.
Bəzən mənə özünü
Çəkən lovğa dedilər.
Bəzən coşğun dənizdən
Qopan dalğa dedilər.
Sırtıqlıq başqa şeydir,
Cəsurluq da başqa şey.
Lovğalıq başqa şeydir,
Məğrurluq da başqa şey.
Mən lovğa yox, məğrurdum,
Qapılar döyməyirdim.
Heç özüm özümə də
Başımı əyməyirdim.
Eh... Doğru deyiblər ki,
Həyat mübarizədir.
Xəyallarda doğulan
Büsat mübarizədir...
Haqsız yamanlar ilə
Mən də üz-üzə gəldim.
Həqiqətin üstündə
Dostla da sözə gəldim.
Yaxşı ki, yaxşılar var,
Dünya xali deyildir.
Kim deyər yaxşıların
Fikri ali deyildir?
Yaxşılar olmasaydı,
Yamanlar çoxalardı.
Bəli! Var ola-ola,
Dünyada yoxalardı



Hərarət ilə dolu
Əvəzsiz yaxşılıqlar.
Doğulmamış ölərdi
Nəfəssiz yaxşılıqlar.
Daha nə ürəkləri
İsidə bilərdilər,
Nə də ki, harayları
Eşidə bilərdilər.
Unutsam da zamanın
Minlərlə zillətini,
Unutmadım nənəmin
Ay haqda söhbətini.
Payız gecəsində də
Hansı təpəyə qalxdım,
Görüş təmənnasıyla
Aya baxdıqca-baxdım...
Bəli! O müqəddəsə
Bilə-bilə baxdım mən.
Gözlərimin yaşını
Silə-silə baxdım mən.
Baxmaqdan nə çəkindim,
Nə də qorxdum dünyada.
Yox! Özümü unutdum,
Sanki yoxdum dünyada.
Dedim çimdirsə də Ay
Məni nur yağışıyla,
Təki özünə çəksin
Məni lal baxışıyla.
Sonra ya Savalanın
Ətəyinə salsın o,
Ya da ana Təbrizin
Göbəyinə salsın o.

Vətən saraydır... Ancaq
İlkin pillə Vətəndir.
Ünsiyyət nədir? Ocaq!
Məhrəm şölə Vətəndir.

Yerdir təravətilə,
Göydür ülviyyətilə,
Bütün əzəmətilə
Vətən belə Vətəndir.

O növraq istər... Ancaq
Qəhətə çıxsa növraq,
Bir dağ olsa, bir bulaq,
Vətən elə Vətəndir.

Mənə çox şey qandıran,
Gəncliyimi andıran,
Dodağımı yandıran
Odlu nalə Vətəndir.

Nədir sinəmi döyən?
Ürəyim yanır deyən?
Dövrəmdə gözə dəyən
Tanış halə Vətəndir.

Təbim yaydır, sözüm ox,
Çox həsrət çəkmişəm, çox,
Gözümdən axan yaş yox,
Gilə-gilə Vətəndir.



Milləti nikbin hallı,
Savalanı ağ şallı,
Sinəsi qara xallı
Nəhəng lalə Vətəndir!

Uğrunda döyüşən də,
Dövranla əyişən də,
Məskəni dəyişən də
Ölə-ölə Vətəndir.

Ancaq məni özünə
Çəkə bilmədi Ay da,
İşığıyla döşünə
Tikə bilmədi Ay da.
Ləkəli bir aynaya
Döndü göyün üzündə,
Qürur yox, nisgil gördüm
Ayın sarı gözündə.
Sonra bilinsin deyə
Ayın da "bəlkə"ləri,
Üzünü tapdadılar,
Çoxaldı ləkələri.
Yazıq Ay özü boyda
Məhrəm ləkəyə döndü.
Yaxşı ki, xəcalətdən
Nə qaraldı, nə söndü.
Fəqət ecazkar gözəl
Süniləşdi gözümdə.
Bildim arzumu desəm
Süniləşər sözüm də.

Yeganə qüdsiyyətə
Kövrək inamım itdi.
Yaxşı ki, bu dəhşəti
Nənəm görmədi, getdi.
İndi əmim oğluyla
Telefonda danışanda,
Ürəyimin odundan
Dəstək də alışanda,
O mənə məhrəm-məhrəm:
"Qadan alım!" deyəndə,
"İlləri yenə sənsiz
Yola salım?" deyəndə,
Sanki bütün ağrılar
Canımdan çıxır mənim.
Yoluma bir nəfər yox,
Bir nəsil baxır mənim.
Hanı o dərzi əmim?
Ağırdan da ağırdı!
Həyatın böyük-böyük
Qayğıları yağırdı
Qaşları altda itən
Xırdaca gözlərindən.
Danışmaq istəyirəm
Burdaca gözlərindən:
O gözlər neçə-neçə
Cəfaya tablamışdı.
Zəmi də şumlamışdı,
İynə də saplamışdı.



Paltarlıq da biçmişdi,
Maşın da işlətmişdi.
Ülvi fikirlərisə
Başında işlətmişdi.
Gözləri ona görə
Elə xırdalanmışdı.
Bəli! Nuru azalan
Gilə xırdalanmışdı.
Ancaq ulduzlara da
Salam verərdi əmim.
İri gözlülərdən də
Yaxşı görərdi əmim.
Hələ yeniyetməydim,
Nöqsanım da olardı.
Nə gizlədim, arabir
Yalanım da olardı.
Ancaq bircəsini də
O vurmazdı üzümə.
Yox! Çalışardı gözü
Sataşmasın gözümə.
Vüqarla dolansa da
O, yaylaqda, aranda,
Namazının vaxtını
Keçirməzdi bir an da.
Canamaz arxasında
İnamla bükülərdi.
Ağzından niyyət dolu
Dualar tökülərdi.

O harasa gedəndə
Bizi də aparardı.
Mənim sınıq ürəyim
Qürurla qabarardı.
O kənddə neçə-neçə
Təntənəli məclisdə,
Zəngin süfrələri də
Ənənəli məclisdə,
Xeyirxah sənətindən
Danışanda ustad tək,
Yanına qısılardıq
Biz də qoşa qanad tək...
O diqqətlə baxmazdı
Gözəllərin üzünə.
Bir qəbahət sanardı
Üzlülüyü özünə.
Sanma o gözəlliyə
Baxmaqdan usanardı.
Yox! Nadir gözələ də
Baxmağa utanardı.
Onda kişi qeyrəti,
Qadın isməti vardı.
Bir ömrün neçə-neçə
Gözəl sifəti vardı.
O bir kəndə bəzəkdi,
Min evəsə dirəkdi...
Uşaqdan da kövrəkdi
Mənim zəhmli əmim.

Qarı da əritməzdi,
Otu da incitməzdi,
Atı da təntitməzdi
Mənim rəhmli əmim.



Özünü qurutmazdı,
Ülfəti soyutmazdı,
Heç kimi unutmazdı
Mənim fəhmli əmim.

İndi oğlu danışır
Telefon dəstəyində.
Duyuram həzin-həzin
Ağlayır ürəyində...
Gözlərində ağlamaq
Hər insanın işidir.
Ürəyində ağlamaq
Qəhrəmanın işidir!
O deyir, qardaş, biz ki,
İntizar çəkə-çəkə,
Görüşün boş yolunda
Ümidlər əkə-əkə,
İlləri dişimizə
Vurduq yumurta kimi.
Görüşsüz keçənləri
Qırdıq yumurta kimi.
Ömrümüzsə həsrətin
Axarına bənzədi.
Yox! Qırılmış yumurta
Qatarına bənzədi.
Bu dünyada yetim də
Bir dahi ola bilər.
Tale yetim qalanda,
Min arzu sola bilər.
Sən də yetim qaldınsa
Uşaqlıq illərində,
Bir nəslin şəfqətini
Topladın əllərində.

Qoymadın taleyin də
Yetim qala dünyada
Çalışdın, o qayğıyla
Yaşa dola dünyada...
İndi zəngin pətəksən,
Balın da, bəlan da sən.
İndi əngin pətəksən,
Mövcud da, talan da sən.

Zamanın yedəyində
Özünsən köməyin də.
Dərdləri ürəyində
Əkən də, yolan da sən.

Düşdünsə tufanlara,
Baxmadın həycanlara.
Nə oldun? Dövranlara
Kürsü də, salon da sən.

Sən həsrət şairisən,
Şeiriyyət mahirisən,
Gözəllik tacirisən,
Satan da, alan da sən.

Çayın o tayında sən,
Təkləndin sayında sən,
Əmin də, dayın da sən,
Bibin də, xalan da sən.

Nə naşı, nə yetənsən,
Nə azan, nə itənsən,
Özün boyda Vətənsən,
Küçə də, dalan da sən.



Bəli! Öz taleyinə
Özün yandın, özgə yox.
Dedin baxışlarına
İşıq düşsün, kölgə yox.
Amandır, hər xətərdən
Gözlə istedadını.
Calaqla təzə-təzə
Sözlə istedadını!
Onda istedadın da
Böyüyər sözün kimi.
Alnı açıq, üzü ağ
Yaşayar özün kimi.
Unutma, istedad da
Qanadlı at kimidir.
Tufana sinə gərən
İnadlı at kimidir.
Yaşarmış gözlərində
Qaynayanda alovu,
Sahibinin əlində
Olsun gərək cilovu.
Sanma gəncliyimizi
Təzə nobar edirik.
Yox! Daha ömrümüzün
Qürubuna gedirik.
Bu dünyada arabir
Kəpənək qanadlı yel,
Ancaq qəti yürüşdə
Bahadır inadlı yel,
O boyda dənizi də
Öpə-öpə oyadır.
Sahildən sahilədək
Ləpə-ləpə oyadır.

Bizim ürəyimizsə
Gündən-günə incəlir.
Görüşmək arzumuzsa
Nə yatır, nə dincəlir.
Bayram gülü bitməmiş
Hələ göz yaşı üstdə.
Sinəsi sərhəd dolu
Dünyanın başı üstdə,
Hərarətlə görüşür
Həsrət dolu neçə el.
Biz də görüşək, qardaş,
Ya mən gəlim, ya sən gəl!
Quş xəyalım sürətlə
Çırpınsa da havada,
Mən təmkinlə deyirəm
Əmim oğlu Cavada:
– Siyasət gah dərəni,
Gah yamacı andırır.
Yox! Torpaq üstdə bitən
Bir ağacı andırır.
Üstündəki budaqlar
Açıq-aşkar görünür.
Altındakı rişələr
Bürüncəyə bürünür.
Hər müşküldən çıxmağa
Yol gərəkdir insana.
Bəli! O həm inamdır,
Həm köməkdir insana.
Vay ondan, yolsuz adam
Göstərə sənə yolu.
Yay günündə başına
Ya qar yağa, ya dolu.



Yaxşı ki, bələdçisiz
Qoyanda məni zaman,
Vicdanım yol göstərdi
Mənə hər yerdə, hər an.
Cavad! Vicdan insanın
İkinci allahıdır.
O, insanın dünəni,
Bu günü, sabahıdır.
Vicdanın allaha da
Bir qədər bənzəri var.
O da görünmür... Ancaq,
Bir iti nəzəri var.
İnsanın bir əməli
Yazılsa günah kimi,
Vicdan da qənim olar
İnsana allah kimi.
Yenə ara qarışıb,
Məzhəb itibdir, Cavad!
Sanki sonsuz dünyanın
Sonu yetibdir, Cavad!
Bəli! Sınıq daşın da
Altında günah yatır.
Allahını dananlar
Vicdanını da atır.
Bir ölkəni, bir xalqı
Özgələr parçalayır.
Bütövləşmiş günəşi
Kölgələr parçalayır.
Cavad! Özü içində
Bölünməyən bir xalqı,
Özgələr bölə bilməz
Heç zaman, vicdan haqqı!

Nəysə... Şair də sözlə
Düşməni döyməlidir.
Zərbə endirildimi,
Kiməsə dəyməlidir.
Cavad! Sən bilirsənmi
Qorxu deyilən nədir?
Ayaqlarda qandaldır,
Qollarda isə zəncir.
Bəli! O qoymaz insan
Niyyətinə yetişə,
Başdan-ayağa halal
Qismətinə yetişə.
Qorxu dolu dünyada
Nə deməkdir iradə?
Neçə-neçə döyüşdə
Cəsarətə abidə!
Vay ondan ki, qorxunun
Qılıncı itiləşə.
Qorxunun qarşısında
Cəsarət mütiləşə.
İradə cəsarəti
Dözümündə daşıyır.
Cəsarət ölür... Ancaq
İradəsə yaşayır.
Bir zaman tərəddüdlə
Bir yollandıq döyüşə.
O düşündü, daşındı,
Mən başladım yürüşə.
Odlu güllə yağanda
Buz nəfəsli torpağa,
Mən daldan tərəddüdü
İtələdim qabağa.



Bir qatar odlu güllə
Açıldı, nə açıldı.
Hamısı tərəddüdün
Sinəsinə saçıldı...
O yıxıldı... Mən üstdən
Keçib getdim irəli.
Öz qəti hökmüm oldu
Uğurumun təməli.
Döyüşlərdə yoluma
Nələr çıxmadı, nələr?
Gözlədim ki, mənim də
Bir gün dincliyim gələr.
Gəlmədi... Gözlərimdə
Qaldı muradım mənim.
Bəli! Döyüşdə keçdi
Bütün həyatım mənim.
Kim deyir qəhrəmanlıq
Yalnız qalib olmaqdır?
Neçə-neçə zirvəyə
Tamam sahib olmaqdır?
Yox! Yox! Bütün həyatı
Döyüşdə keçirmək də,
Keşməkeşlərlə dolu
Yürüşdə keçirmək də,
Yorulmaz qəhrəmanlıq
Sayılır bu dünyada!
Şöhrəti diyar-diyar
Yayılır bu dünyada!..
Mərdlər qara günlərlə
Səngərlərdə döyüşür.
Bəli! Qara günləri
Ağ günlərlə dəyişir.

Döyüşdə öləndə də
Qara deyil, ağ geyir.
Döyüş paltarlarını
Neçə-neçə sağ geyir.
Qardaş! Şübhəli zəfər
Nə şöhrətdir, nə şandır.
Yox! Gözlərdən asılan
Bir parçacıq dumandır...
Ancaq kim qurban gedir
Məsləkinin uğrunda,
Taleyi heykəlləşir
Vətəninin bağrında...
Bəli! Şübhəli zəfər
Yaman qeybətli olur.
Şərəfli məğlubiyyət
Daha hörmətli olur...
Yorulmadım döyüşdə
Güllələrlə görüşdə.
Sanma qəti yürüşdə
Tamam məğlubam, qardaş!

Yox! Yox! Gedib tuşuna,
Sinə gərdim qurşuna...
Bir yenilməz qoşuna
Mən də mənsubam, qardaş!

"Sən dönüb sarı simə,
Məktub yazmırsan" demə!
Mən həm zilə, həm bəmə
Yaxın məhbubam, qardaş!



Gözüm xatirə dolu,
Sözüm xatirə dolu,
Özüm xatirə dolu
Canlı məktubam, qardaş!

Ömrüm keçdi şimalda,
Gözüm qaldı vüsalda...
Gəzsəm də hər mahalda,
Dedim Cənubam, qardaş!

Bəli! Ulu sənətdə,
Karvan yolu sənətdə,
Naxış dolu sənətdə
Nadir üslubam, qardaş!

Dərdim oldu bir çətən,
Məşrub iç! – dedi yetən...
Dedim şən olsa Vətən,
Özüm məşrubam, qardaş!

Mən ki, oddum-atəşdim,
Bir ağlar yox, güləşdim,
Dünən doğan Günəşdim,
Sabah qürubam, qardaş!
Gecənin qaranlığı
Elə gecəliyidir.
Qönçənin bakirliyi
Elə qönçəliyidir.
Ayrılığın şakəri
Elə yandırmağıdır.
Düşüncənin ləzzəti
Elə andırmağıdır.

Sütüldüm... Başım üstdə
Qaralanda gecələr,
Sinəmdə qızarardı
Arzulaşan qönçələr...
Təxminən bilsəydim də
Yaxşı nədir, yaman nə?
Bilməzdim anlayışda
Vüsal nədir? Hicran nə?
Buz suyundan içərdim
Neçə-neçə kəhrizin.
Havası gül ətirli
Ərdəbilin, Təbrizin
Tanış küçələrini
Bir-birinə vurardım.
Nə bir an yorulardım,
Nə də bir an durardım.
İndi isə yadımda
Qalmayıb bir küçə də,
Nəğmə dolu gündüz də,
Nağıl dolu gecə də.
Dözüm varmı dünyada
Məndə olan dözüm tək?
Yaman zəhmətkeş olub
Ürəyim də özüm tək...
O sevgi də daşıyıb,
O ilham da daşıyıb,
O təmkin də daşıyıb,
O inam da daşıyıb,
O arzu da daşıyıb,
O nisgil də daşıyıb,
O ünvan da daşıyıb,
O şəkil də daşıyıb...



Bəli! O şux dəmət də,
Süst əklil də daşıyıb.
Sanma günəşlə dolu
Bir mənzildə daşıyıb.
Yox! Yox! O qarşılaşıb
Neçə-neçə tufanla.
O, mənzildən mənzilə
Pərvazlanıb zamanla...
Eh, sən hardan biləsən
Nisgil dolu yanğımı!
Neçə-neçə ocaqdan
Daha ulu yanğımı
Söndürməkçin bulaq yox,
Ümman gərəkdir, ümman!
Yoxsa köhnə ömrünü
Təzələməzdi hicran.
Əbədilik olmasa
Görüş dünyada əgər,
Ürəklərdə yenidən
Alova dönməz məgər
Hicranın qətrə-qətrə
Qor çiləyən gözləri?
Yox! Yarımçıq olmayır
Görüşün də sözləri.
Mən çəkdiyim həsrətdən
Daha betəri olmaz!
Bu qədər gözlənilən
Görüş ötəri olmaz!
Günəş nə qədər qalxsa,
Görə bilməz cəngəllik.
Uğur haraylasa da
Mürgüləyər tənbəllik...

Mən şeiri gündüzlər də,
Gecələr də yazıram.
Körpə arzularımı
Qönçələrdə yazıram.
Düşünürəm haçansa
Bəlkə yarpaqlandılar,
Bəlkə ətirləndilər,
Bəlkə pardaxlandılar.
Düşünürəm yazmasam
Duyğularım sönərlər.
Yazısız ağ varaqlar
Kəfənimə dönərlər.
Mənə çoxları dedi
Sən gənclikdə gözəldin.
Özün başdan-ayağa
Həm şeir, həm qəzəldin.
Dedim o gözəlliyim
İndi yoxsa, nə dərdim.
Mən öz gözəlliyimi
Şeirlərimə verdim.
Sanki qədim sənətdə
Söz Leyli, mən Məcnundum.
Bir təzə söz tapanda
Mən özümdən məmnundum.
İndi bir sərkərdəyəm,
Qələbə niyyətimdir.
Ordum öz əsərlərim,
Cəbhəm söz sənətimdir.



Şair öz Vətənində
Daha qamətli olur.
Bəli! Daha cürətli,
Daha qüdrətli olur.
Şair öz Vətənində
Daha qismətli olur.
Bəli! Daha dəmətli,
Daha xələtli olur.
Şair öz Vətənində
Daha ülfətli olur.
Bəli! Daha himmətli,
Daha siqlətli olur.
Şair öz Vətənində
Daha qiymətli olur.
Bəli! Daha hörmətli,
Daha şöhrətli olur.
Məsum insan dünyaya
Gözlərində yaş gəlir.
O dünyaya qərib yox,
Elə vətəndaş gəlir.
Sonralarsa bölünmüş
Dünyada qəribləşir.
Qürbət ötkəmləşdikcə,
Qərib də nəcibləşir.
Cavad! Təzə qardaşdan
Köhnə dost irəlidir.
Axı mötəbər dostluq
Uğurun təməlidir.
Birinə dedilər ki,
Qardaşın necədir? De!
Ünsiyyətdə kobuddur,
Yoxsa ki, incədir, de!

Utanma, rəftarından
Ətraflı söhbət elə.
O dedi qardaşımla
Dost olmamışam hələ.
Mənim dostlarım isə
Soyuq vaxta düşəndə,
Odu öz qabağına
Eşdi şaxta düşəndə.
Bu işdə fərqlənsə də
Dostlarım bir-birindən,
Laqeydlikdə birləşib
Duymadı ki, dərindən,
Zirvəyə qar yağsa da,
Zirvə elə zirvədir!
Ancaq zirvə özü də
Gərək bilə, zirvədir!
Kim bilmir dünyada, kim,
Yaz bir güllə yaz deyil.
Mənim heyranım çoxsa,
Paxılım da az deyil.
Sanma paxıllığını
Gizli saxlayar paxıl.
Əksinə, bilə-bilə
İzli saxlayar paxıl.
Yox! Yox! Paxıllıq özü
Kin dolu əzab kimi,
İlhamla yox, həsədlə
Yazılmış kitab kimi
Paxılın simasında
Aşikar varaqlanar.
Ürəyində bitsə də,
Gözündə yarpaqlanar.



Kim deyir şairlərə
Yalnız təb gərəkdir, təb.
İndiki şairlərə
Təb yox, dəb gərəkdir, dəb.
Biri dəbə düşdümü,
Baxtı yaman gətirir.
Bir harın ayağına
Neçə qurban gətirir.
O əllərdə döndükcə
Yeldən şişən bayrağa,
Dalınca dəstə-dəstə
Naşı düşür sorağa.
Torpağın üstündəki
Neçə-neçə bölükdə,
Sönük də var, parlaq da,
Kiçik də var, böyük də.
Vay ondan sönük parlaq,
Parlaq sönük görünə.
Vay ondan böyük kiçik,
Kiçik böyük görünə.
Həyatda yumruq boyda
Qurbağanın gözləri,
Andırar təpələşən
Yaşıl-yaşıl gözləri.
Üstəlik özlərinə
Cürət vermək istərlər.
Pırtlayıb gözlərə də
Sanki girmək istərlər.

Qaya boyda filinsə
Gözləri nədir? Muncuq!
Yansa da, xortumuna
Düşməz bir zərrə işıq.
Dünyada biri lovğa,
Biri təvazökardır.
İşə bax! Xırda lovğa,
İri təvazökardır.
Ürək nədir? İnsanın
Həyatının saatı!
Həm kədərinin, həm də
Büsatının saatı!
Bəli! Nə qədər saat
İşləsə də dünyada,
O saatla işləyir
İstiqballı dünya da...
Vay o gündən o saat
Nə işləyə, nə dinə,
Sinədə özü boyda
Qara nöqtəyə dönə...
Onda nə kədər, nə də
Büsat məclis quracaq.
Yox! Qanadlı arzu da
Öz yerində duracaq...
Kaş ki, bütün arzular
Çin olsun deyə müdam,
O saat məmnun-məmnun
İşləsin səhər-axşam.



Mən hələ də Vətəndə
Min arzuyla yaşayan,
Xalqının taleyini
Taleyində daşıyan
Alovlu gəncliyimin
Dalınca gələcəyəm.
Gecə də baş atmayıb
Balınca, gələcəyəm.
Kimisə gözləməyən
Vaxta etibar yoxdur.
Qəfil gələn əcələ
Hələ minnətdar yoxdur.
Bir zaman öyünərdi
Boyuyla uca dünya.
İndi bombalar altda
Az qalır uça dünya.
Gələrəm! Beş günlük yox,
Həmişəlik gələrəm.
Ürəyimi Vətənin
Şəfqətinə bələrəm...
Həyat nədir? Dünyada
Mötəbər ünsiyyətdir!
Söz verib, söz unutmaq
Ən böyük qəbahətdir!
Sanma daha dünyada
Sükutlaşmış xəyalam.
Yox! Zirvədə qıy vuran
Məşhurlaşmış qartalam!

Bir qanadım keçmişdir,
Bir qanadım gələcək.
İlk xatirəm keçmişdir,
Son muradım gələcək...
Alnımdakı cizgilər
Qırışlar deyil, inan!
Bir gülşəndir! Gülləri
Həm nadir, həm də əlvan!
O həssasdan da həssas,
İncədən də incədir.
Orda elə güllər var
Həm pardax, həm qönçədir...

***1990.***



## AYRILMIŞ SAHİLLƏR

*Əmim qızı Həvvaya.*

Ömründə nə ayrılıq,
Nə həsrət duymayanlar,
Uçuq Xudafərinə
Bir daş da qoymayanlar,
İki yüz ilə yaxın
Ayrılıq, – həsrət çəkən,
Araza hər baxanda
İçində xiffət çəkən,
Bir xalqdan əsirgədi
Seyrana çıxmağı da,
Sahillərdə dayanıb
Sakitcə baxmağı da.

Gizli-gizli baxışdı
Bu sahillə o sahil.
Səssiz-səsssiz danışdı
Bu sahillə o sahil.

Qanlılar da barışdı,
Toy bayrama qarışdı,
Dərd çəkməkdə yarışdı
Bu sahillə o sahil.

Yox! Yox! Sular axışdı,
Sanki gümüş naxışdı...
Araz altda danışdı
Bu sahillə o sahil.

Çox da Araz köntövdür,
Su qılınc, daş bülövdür...
Araz altda bütövdür
Bu sahillə o sahil.

Gecələr tək qalırdı,
Aydan işıq alırdı,
Qızıl körpü salırdı
Bu sahillə o sahil...

Su hicran çiləyirdi,
Yox! Sanki mələyirdi.
Bir vüsal diləyirdi
Bu sahillə o sahil.

Dünyanın havasının
Dəyişən zamanında,
Min etiraz kükrədi
Hər Vətən meydanında...
Bəli! Həsrət tufanı
Nə yatdı, nə dağıldı,
Yanğılı ürəklərdə
Dalğa-dalğa yığıldı.
Tarixin mat qaldığı
O qeyri-adi tufan,
Bir görüş harayıyla
Coşub qabaran zaman,
Qırdı sərhədlərdəki
Pas atmış məftilləri.
Qərarsız qovuşdurdu
Ayrılmış sahilləri...



Yox! Sanmayın müşkülü
Kükrəyən tufan açdı.
Tanrı aça bilməyən
Sərhəddi insan açdı...
Sahillərdən baxanlar
Nə gördülər Arazda?
Çayda körpü yerinə
Qanad açan ayazda,
Ağ köynəkli dalğalar
Daha inad eləyib,
Bəli! Hicrana qarşı
Qəti cihad eləyib
Şahə qalxır... Su suyla
Qabaqlaşır, görüşür.
Nə isə deyə-deyə
Qucaqlaşır, görüşür.
Dedilər sahillərdə
Dəhşət törətmiş hicran.
Bu dalğalar qədər də
Vüsal görməmiş insan.
Sərhəd dirəklərini
Yandırdı odlu gənclər.
Arzusunu dünyaya
Qandırdı odlu gənclər.
Üzməyi bacaranlar
Heç baxmadı ayaza.
Elə üst paltarıyla
Atıldı buz Araza.

Həsrətlər su içində
Qucaqlaşdı, öpüşdü.
Yox! Alışa-alışa
Ocaqlaşdı, öpüşdü.
Araz da o ocağın
İstisiylə qızındı.
Sanki o məhrəm isti
Qışın deyil, yazındı.
Göz yaşları üzləri
Sakit yandırdı, yaxdı.
Böyük Arazın üstdə
Kiçik Arazlar axdı.
Üzməyi bacarmayan
Neçə-neçə adam da,
İki yüz il yol gələn
Belə qəti məqamda
Elə üst paltarıyla
Özünü çaya atdı.
Hayıf, sıx dalğaların
Dərin qoynunda batdı.
Su üstdə papaqları
Qabaqlaşdı, görüşdü,
Yaş axıda-axıda
Qucaqlaşdı, görüşdü...

...Bir gün masamın üstdə
Telefonum dilləndi.
Gözlərim intizarla
Aparata zilləndi.



Mən dəstəyi qaldırıb
– Bəli! – Dedim hörmətlə.
Bu zaman qulağımda
Bir səs dindi riqqətlə.
– Əmican! Mənəm. Həsən.
Səltənətin nəvəsi...
Nəfəsimə qarışdı
Danışanın nəfəsi...
Gözlərimdə canlandı
Günəş dolu Masallı.
Əmim qızı Səltənət,
Bir məleykə misallı!
Dedim: – Həsən, necəsən?
Atan, anan necədir?
Ətirli balaların
Güldür, yoxsa qönçədir?
O utandı... Dəyişdi
Söhbəti də bir anda.
Utanmağa qoymadı
Hörməti də bir anda.
Dedi təşnə insanlar
Sərhəddi dağıdanda,
Qol-boyun ola-ola
Göz yaşı axıdanda,
Mən də sizin füsunkar
Kəndinizə getmişdim.
Mehriban qohumların
Arasında itmişdim.
Bəli! Sənin adını
Kim eşitdi, sevindi.
Sanki o boyda kənd də
Bir ümiddi, sevincdi...

Qocalar iftixarla
Danışırdılar səndən.
Təzə kitablarını
İstəyirdilər məndən.
Sanki bir kənd üzüyə,
Mən isə qaşa döndüm.
Əfsus ki, neçə-neçə
Gözlərdə yaşa döndüm.
Bəli! Mən danışdıqca
Ən əziz mehman kimi,
Sanki məhəbbət yağdı
Gözlərdən leysan kimi...
Sanma bütün dərdləri
Günahsız ürək çəkir.
Həm də kömək diləmir,
Səhər-axşam tək çəkir.
Yox! Gözlər də baxdıqca
Məşəqqətli illərə,
Mərdliklə sinə gərir
Alovlanan sellərə.
Axı sakit gözlərdə
Tufan qoparmasa su,
Dərdləri ürəklərdən
Yuyub aparmasa su,
Dərdlər, qanadsız dərdlər
Dağılmaz quşlar kimi.
Divarlarda qalanan
Nizamlı daşlar kimi.
Ürəkdə səhər-axşam
Dərdlər üst-üstə gələr.
Qaya boyda ürək də
Birdən partlaya bilər.



Yaşa dolmuş bir qadın
Boynumu qucaqladı.
Mehriban əllərilə
Saçımı daraqladı.
Üzümə baxa-baxa
Hönkür-hönkür ağladı.
Sandım ki, gözlərində
Qoşa bulaq çağladı...
Göz yaşı da füsunkar
Üzə yaraşıq axır.
Sanki məsum gözlərdən
Yaş deyil, işıq axır.
O büllur göz yaşında
Yuyub öz sözlərini,
Sonra ağ dəsmalıyla
Qurutdu gözlərini.
Dedi şair Əlinin
Əmisi qızıyam mən.
Bir telini itirmiş
Savalan sazıyam mən.
Yenə həsrət sarı gül
Açdı yanaqlarında,
Sənin bayatıların
Dindi dodaqlarında...

Bulaq gözü dövlətdir,
Ocaq közü dövlətdir,
Ehtiyac içində də
Şair sözü dövlətdir!

Niyə kök salmadın sən?
Kəndində qalmadın sən?
Təşnəyə bircə fincan
Sərin su olmadın sən?

Nə ümidin talansın,
Nə gözlərin sulansın!
Səni bizdən ayıran,
Qapı-qapı dolansın!

Yaz da sazaqsız olmur,
Bağ da alaqsız olmur.
Səmtinə inandığın
Yol da sınaqsız olmur.

Ov qıtsa, səyyad nədir?
Kam yoxsa, murad nədir?
Səsimi eşitsəydin
Bilərdin fəryad nədir?

İgidlər şəhid olub,
Millətlər şahid olub,
Həyanı olmayanın
Həyanı ümid olub.

Dodağını büzmə sən,
Ağa qara düzmə sən.
Göydən Ay da üzülsə,
Ümidini üzmə sən.



Min fikrə düşmə hələ,
Gündür də, keçir belə...
Bu arxa su gəlmişdi,
Ümid var, bir də gələ.

Külək ki, qanad çalar,
Çiçək toz altda qalar.
Kirpiklərini qırpma,
Gözümə kölgə salar.

Nə olaydı quraqda,
Sən duraydın qıraqda.
Yenə mən dolduraydım
Səhəngini bulaqda.

...Yollar soyuq dumanın
İçindən sıyrılanda,
Biz qohumlarla dolu
Meydanda ayrılanda,
Mən sakitcə ağladım,
Osa hönkürdü yenə.
Sözləri seçə-seçə
Riqqətlə dedi mənə:
Gözlərdən öpməzlər ki,
Ayrılıq sala bilər.
Tamam boşalan gözlər
Yenidən dola bilər.
Bizsə gör nə zamandır
Ayrılmışıq Əliylə.
Danışa bilməmişik
Arzumuzun diliylə.

Mən indi deməliyəm
Ürəyimdən keçəni.
Günəş görməsə su da
Soluxdurar qönçəni.
Sən mənim də yerimə
Həsrəti yenə-yenə,
Əlinin gözlərindən
Öpərsən dönə-dönə...

Gözlər daha nə dolsun,
Nə də nigaran qalsın!
Araya ayrılıq yox,
Görüş körpüsü salsın!

Mən də doğma kəndimlə
Belə görüşüm deyə,
Yaxın qohumlarımla
Bir-bir öpüşüm deyə,
Həsən qayğıyla mənə
Uzun ömür dilədi.
Sonra da sağollaşıb
Yanğıma su çilədi.
Həsənin söhbətində
Bir təsəlli duydum mən.
Dəstəyi asta-asta
Öz yerinə qoydum mən.
Ancaq qartal xəyalım
Dönmədi öz yerinə.
Yox! Yox! Uçduqca uçdu,
O dərindən dərinə.



Bəlkə keçən günləri
Yığıb qanadlarına,
Qatsın bir sənətkarın
Əlvan muradlarına.
Sevgilim gözlərimdə
Yaşlar görməsin deyə,
Mənə şikayət dolu
Təskin verməsin deyə,
Ürəyimdə ağladım
Hıçqıra-hıçqıra mən,
Keçmişi harayladım
Qışqıra-qışqıra mən.
Kim dünəni unutsa,
Sabah unudar onu.
Dalğalı ümman olsa,
Tarix qurudar onu.
Gözlərimdə keçmişə
Açıldı bir pəncərə.
Nadir lövhəyə döndü
Neçə-neçə mənzərə...
Təzad dolu dünyada
Hər şeyin öz rəngi var.
Ot rəngi, sünbül rəngi,
Qar rəngi, köz rəngi var.
Bəs tamarzı həsrətin
Rəngi necədir? Sarı!
Bəli! O açılmayan
Körpə qönçədir, sarı!
Nə zamandan ki, Ay da
Günəşə həsrət qalıb,
Ayın gözlərinə də
Həsrət sarılıq salıb.

Ona görə fərəhlə
Keçən məclislərdə də,
Odlu mey, dadlı şərbət
İçən məclislərdə də,
Haçan simlərlə dolu
Tarı döşə alırlar,
Həsrətin nəğməsini
Sarı simdə çalırlar.
Mən də öz gəncliyimi
Yadıma sala-sala,
Nəğməmi sarı simin
Özündə çala-çala,
Yollandım Savalanın
Ətəyindəki kəndə.
Mən tarixlərdə getdim,
Tarixlər isə məndə...
Dünyanın yollarında
Azmaq nöqsan deyildir.
İnsan bir şəxsiyyətdir,
Neçə ünvan deyildir.
Vay o gündən dünyada
Şəxsiyyət ola-ola,
Təpədən-dırnağadək
Məharət ola-ola,
İçindəki dolaşıq
Yollarda aza insan.
Sonrasa yamanı da
Yaxşıya yoza insan.



Mən sıyrılmış qılıncdım,
Öz qınıma girirdim.
Öz canımdan ayrılıb
Öz canıma girirdim.
Savalanın küləyi
Dəydi yanaqlarıma.
Həvvanın doğma səsi
Gəldi qulaqlarıma!

Sən təmaslı quşdan da
Mehribansan əmoğlu!
Sən günəşli qışdan da
Nigaransan əmoğlu!

Sən düşsən də həsrətə,
Boyun əymə möhnətə.
Sən Vətəndən sənətə
Ərmağansan əmoğlu!

Vətən qalxdı ayağa,
Səni çəkdi sınağa.
Sən təpədən-dırnağa
İmtahansan əmoğlu!

Nəğmə dedin gur səslə,
Evlənmədin heç kəslə.
Sən bildin ki, bir nəslə
Pasibansan əmoğlu!

Sən silahla Nehzətdə
Ev də qurdun, dövlət də...
İndi sən də sənətdə
Səttarxansan əmoğlu!

Poeman həyəcanlı,
Povestin burulğanlı,
Sən neçə qəhrəmanlı
Qəhrəmansan əmoğlu!

Sonra Həvva bacım, sən
Göründün gözlərimə.
Yox! Yox! Başdan-ayağa
Büründün gözlərimə.
Kim bilir, bəlkə də sən
Məni tənha sanıbsan.
Sonra da təlatümlü
Taleyimə yanıbsan.
Ancaq mənsə özümü
Bir mübariz sanıram.
Axı bir məmləkətin
Taleyinə yanıram.
Üstümə şimşəyiylə
Hücum çəksə də tufan,
Arxamda mərd dayanıb
Əlli milyonluq insan!
Atam yox idi, atan
Ataydı mənə, bacım!
O nənəmin adını
Qoymuşdu sənə, bacım!



Mən də doğmalarıma
Hörmət duyğularıyla,
Tənha yetimliyimin
Təşnə yanğılarıyla,
Sənə həm əmi qızı,
Həm də nənə deyərdim.
Neçə dəfə desəm də,
Yenə, yenə deyərdim.
Haçan sizə gələrdim
Sevinərdin, gülərdin.
Mehriban gözlərindən
Sanki şəfəq ələrdin.
Aclığımı biləndə
Özünü itirərdin.
Yeməli nə olsaydı,
Süfrəmə gətirərdin.
Mənim susuzluğumu
Dodağımdan duyardın.
Armudu stəkanda
Qarşıma çay qoyardın.
Mən içdikcə ləzzəti
Damağımda qalardı.
Odu boşalan sinəm
Rayihəylə dolardı.
Eh, neçə dayı, bibi,
Xalaqızı da vardı.
İnsafən, hamısının
Bütöv ağzı da vardı.

Heç kimə demədiyim
Sirri sənə deyərdim.
Gizli saxlamağını
Dönə-dönə deyərdim.
Bir əlini ağzına
Qoyub lal olardın sən.
Sanki sirri ömürlük
Zindana salardın sən.
Qərib nənəm qocalıb
Sığınmışdı otağa.
Suyumuz qurtaranda
Mən gedərdim bulağa.
Səhəngimi görəndə
Sən yaman utanardın.
Məni şimşək baxışlı
Qızlara qısqanardın.
Sanki coşğun ürəkdin,
Qürurla döyünərdin.
Sən mənim pulumla yox,
Şeirimlə öyünərdin.
Səhəngimi növbəsiz
Doldurardın hörmətlə.
Mən də qürrələnərdim
Bu mehriban ülfətlə.
Savalanın dalında
Gün batan çağlarda sən,
Nəğmələr oxuyardın
Qızlarla bağlarda sən...
Kimi, ilk sevgisindən
Danışardı aramla.
Kimi də, için-için
Alışardı aramla.



Sanki səhər doğardı
Sahillərdə təzədən.
Sanki dilə gələrdi
Nisgillər də təzədən.
Neştəri çayı isə
Laqeyd-laqeyd axardı.
Yox! Sizə ümid dolu
Təbəssümlə baxardı...
Mənim çiyinlərim də
Təklənməmişdi hələ.
Vətənin dərdlərilə
Yüklənməmişdi hələ.
Həyatın ləzzətini
Təzə-təzə duyardım.
Sənin rəfiqələrin
Qızlara göz qoyardım.
Birdən hər yanağımda
Bir nar qızarardı, nar...
Sanardım ki, kənardan
Mənə də baxanlar var.
Dərhal dönüb kənara
Baxardım dönə-dönə.
Görərdim yanılmışam,
Kimsə baxmayır mənə.
Axşamın bürküsündə
Yaylaq da təngiyəndə,
Bir əsimlik külək də
Hardasa ləngiyəndə,
Daim qarlı Savalan
Nəfəsi dondurardı.
Çiyni ağ yapıncılı
Çobanı andırardı.

Sanki, dünəndi sənin
Əzəmətli toyun da.
Sanki, bacım, bir qədər
Uzanmışdı boyun da.
Qara zurnanın səsi
İliklərə hopurdu.
Sanki büllur ulduzlar
Bircə-bircə qopurdu.
Sənin kirpiklərinə
Düzülürdü qatarla.
Sən ağlayırdın... Ancaq
Həm sevinc, həm qübarla!
Axı, ata evini
Tərk edirdin əbədi.
Arxada qalacaqdı
Həyatının məbədi.
Kəndin pəhləvanları
Şövq ilə güləşirdi.
Meydanda bir-birinin
Tərinə bələşirdi.
Çiyinlər bir-birinə
Dəyirdi daşlar kimi.
Dizlər möhkəm torpağı
Yarırdı xışlar kimi.
Bəy damda düşüncəli
Qaşlarını çatanda,
Sonra da var gücüylə
Sənə alma atanda,
Sən zərif əllərini
Dayaq verdin üzünə.
Bir xətər toxunmasın
Yaraşıqlı gözünə.



Bəysə alma atanda
Gözünü də döymədi,
Üç almadan biri də
Heç yerinə dəymədi.
Sən mahir sevgilinin
Sevgisinə inandın!
Axı sən nə quzuydun,
Nə quşdun, nə ceyrandın.
Yox! İnsandın həyatda,
Əsasdan əsas insan!
İncəlmiş duyğuları
Həssadan həssas insan!
Hökmüylə yaşasa da
Adətlər hər dövranda,
Sevənlər sevənləri
İncitməzlər bir an da.
Sən öz evinə köçdün,
Mənsə qürbətə, bacım!
Yox! İkimiz də düşdük
Uzun həsrətə, bacım!
Mən səni, sən də məni
Görə bilmədik daha.
Bir ağız dolusu da
Deyib-gülmədik daha.
Arazsa şahə qalxıb
Ürəyimizdən axdı...
Nə dilədik, o həmən
Diləyimizdən axdı.
Mən Təbrizdən qayıtmaq
İnamıyla çıxmışdım.
Ömrümün ən müqəddəs
Məramıyla çıxmışdım.

Dağlar yarsam da, şimşək
Zirvələri deşən tək,
Qürbətə düşdüm... Bir daş
Bir quyuya düşən tək.
Sizsiz keçən illərim
İndi axın-axındır.
Bütün dünya görür ki,
Yarım əsrə yaxındır
Mən xalqımın içində
"Siyasi mühacir"əm.
Bəli! Sakin deyiləm,
Hələ də müsafirəm.
Bilinmir taleyimi
Daha nələr gözləyir.
Dövran gözləri ağlar,
Yoxsa gülər gözləyir?
Yalnız ətdən, sümükdən,
Qandan yoğrulur insan?
Yox! Həm də keşməkeşlə
Əkiz doğulur insan!
Dünyanın neçə-neçə
Mahir müğənnisinin,
Qadir müğənnisinin,
Nadir müğənnisinin
Məlahətli səsini
Maraqla dinləyirəm.
Bəzən gümrahlaşıram,
Bəzən də inləyirəm.



Sənin adi səsini
Eşitməyə həsrətəm.
Hönkürən ürəyimi
Kiritməyə həsrətəm.
Sanma özünü satan
Sənət səadət olur.
Yox! Sənətə xəyanət
Ömrə xəyanət olur.
Haçan yağış, dolu, qar
Kürəyimi döyərdi,
Qərib nənəm halıma
Baxa-baxa deyərdi:
– "Sən arxasızsan... Ancaq
Arxa da gəzməyirsən.
Döş-döşə çarpışmağa
Dalğa da gəzməyirsən.
Yox! Gəzirsən, bəs niyə
Buludlara baxırsan?
Yerdən göyə çəkilmiş
Sükutlara baxırsan?
Sən gözləmə dağ boyda
Buludun köməyini.
Təpələşmiş torpağa
Söykə öz kürəyini.
Bəli! Rəvayətə yox,
Həqiqətə arxalan!
Lilli çayda çimincə,
Duru arxda yaxalan!"

Ülviyyət əyiləndə
Dəyanət yaşayarmı?
Qüdsiyyət çirklənəndə
Həqiqət yaşayarmı?
Mənim məmləkətimdə
Məzarlar da soyludur.
Oğlanlar çinar boylu,
Qızlarsa sərv boyludur.
Doğma Azərbaycanın
İgid oğullarının,
Azad Vətən uğrunda
Şəhid oğullarının
Çoxu cəsur pəhləvan
Doğulub anasından.
Daim qürurla baxıb
Tarixin aynasından.
Doğrudur, mən anadan
Pəhləvan doğulmadım.
Ancaq kim deyər, bacım,
Hünərdən yoğrulmadım.
Vətəni səhər-axşam
Öz beynində daşıyan,
Yox! Yox! Tamam geyinib,
Öz əynində daşıyan,
Pəhləvanlar içində
Pəhləvan deyilmidir?
Qəhrəmanlar yanında
Qəhrəman deyilmidir?



Eh, böyüyə-böyüyə
Xəyalda itən də var.
İtə-itə böyüyüb
Xəyalda bitən də var...
Bacım! Görüş həsrəti
Uzandıqca uzandı.
O tayda qohumlarım
Milyonları qazandı.
Mən isə öz sevdamda
Daim ziyana düşdüm.
Bir qələm, bir dəftərlə
Gedib hayana düşdüm?
Məramımın uğrunda
Döyüşdüm əsgər kimi.
Ömrümün günlərini
Xərclədim gövhər kimi.
Amma yaman xərclədim,
Həm yolda, həm cığırda.
Söz sərvətim olsa da,
Müflisləşdim axırda.
Ömrünü ləkələrlə
“Bəzəyəndə” neçə kəs,
Varlı dünyada mənim
Qazancım nə oldu bəs?
Yalnız təmiz adımdan
Diləyimcə yarımaq!
Hüsnünü ləkələrdən
Sayıqlıqla qorumaq!

Ləkələr həm rəng, həm də
Pisliyə əndazədir.
İçində təmiz qalmaq
Adi yox, möcüzədir!
Mənim həssas gözlərim
Oxusa da, yazsa da,
Arabir yazdığını
Təəssüflə pozsa da,
Kirpikləri içində
Hələ yaş bitirməyib.
Zamanla çarpışmada
Hüsnünü itirməyib.
Qara saçım dönsə də
Bircə çəngə ağ telə,
Gözlərim saxlayıbdır
Qaralığını hələ!
Gənclik işığını da
Qoruyub zaman-zaman.
Harda olsa da sizi
Axtarıb ünvan-ünvan.
Tehrana zəng vururam
Nə qədər muradla mən.
Telefonla danışıram
Qardaşın Cavadla mən.
Nigaran soruşuram
Həvva bacım necədir?
Yenəmi özü kövrək,
Ünsiyyəti incədir?
O deyir, külfətiylə
Kənddə yaşayır Həvva.
Sarı simli tarında
Dəyişməmiş bir nəva.



İndi o da nənədir,
Neçə nəvəsi vardır.
Hələ nəvə toyu da
Görmək həvəsi vardır.
Bacım! Heyran qaldım mən
Səndəki sədaqətə.
Nə qədər qonşuların
Aldanıb əzəmətə,
Dəbdəbəli Tehrana
Axıblar sellər kimi.
Öz doğma evlərini
Yıxıblar sellər kimi.
Tehran Azərbaycanı
Onsuz da çoxdan yeyir.
Nə vecinə, həm vardan,
Həm də ki, yoxdan yeyir.
Bizim ulu nənəmiz,
Sənin adaşın Həvva,
Cənnətin mərkəzində
Möhkəm salsa da yuva,
Tamahı ucbatından
Cənnətdən qovulmadı?
Gülləri ləçək-ləçək
Quruyub ovulmadı?
Sən qoymadın tamah da
Həsrət salsın araya.
Kəndimin bir daşını
Dəyişmədin saraya!

Çiçəklər şəbnəmilə
Təravətli görünür.
Çarələr məlhəmilə
Kəramətli görünür.

Zirvələr buluduyla,
Dərələr sükutuyla,
İnsanlar umuduyla
Əzəmətli görünür.

Dalğalar axarıyla,
Qayalar vüqarıyla,
Dodaqlar qərarıyla
Qətiyyətli görünür.

Sən də Çanaxbulağa
Həyandın Savalan tək.
Savalan ətəyində
Dayandın Savalan tək...
Ayrılıq var, bir həftə,
Ayrılıq var, bir aydır.
Sırtıq ayrılıq da var,
Bir neçə ömrə taydır...
Az qalır ayrılığım
İki yüz illik ola.
Alovlu ürəyimin
Yerində küllük ola...
Gözlərimin önündə
Neçə millət birləşir.
Ürəyimdəsə yara
Yara üstdə yerləşir.



Kim deyir görüş haqda
Niyyətlər açılmadı.
Söhbətlər açılsa da,
Sərhədlər açılmadı.
Eh, indi qərarlar da
Artır göbələk kimi.
Yalnız bir gün yaşayır
Gücsüz kəpənək kimi.
Dizim üstə əyilib
Torpağımı öpdüm mən.
Toxum arzularımı
Bu dünyaya səpdim mən.
Hayıf ki, bir arzum da
Göyərmədi dünyada.
Üstəlik bir arzuya
Döndü şirin röya da.
Bəli! Yata bilmədim
Öz rahat yatağımda.
Arzularım sübhədək
Çırpındı dodağımda.
Sonra geri qayıdıb
Öz içimdə göyərdi.
Həm də kələ-kötür yox,
Bir biçimdə göyərdi.
Kim içimə baxarsa
Həssas göz baxışıyla,
Bir arzular meşəsi
Görər öz baxışıyla.

Son arzum nədir? Xalqım
Yaşa həsrətsiz dola!
Ən böyük bayramı da
Elə birliyi ola!
Ümidə arxalanır
İnsan dara düşəndə.
Bəli! Ümidlə yanır
Od da qara düşəndə.
Ancaq həmişəyaşıl
Ümidin nə faydası?
Bəhərə çevrilməkdir
Ümidin də qaydası.
Mənim bulaq ümidim
O kənddə puçurlanıb.
Hələ yarpaqlanmamış
Neçə yol oğurlanıb.
Ancaq yenə doğmaca
Ünvanına qayıdıb.
Döyüşən ümidlərin
Meydanına qayıdıb.
İndi də itirməyib
İlkin təpərini o.
O kənddə verəsidir
Axır bəhərini o.
Haçansa tanıdığı
Qapıları döyəcək,
Gəlin əzizlər, gəlin
Qucaqlaşaq! – deyəcək.

***1990.***



## KİTABIN İÇİNDƏKİLƏR


Əli Tudə . . . . . 5
Təbriz həsrəti . . . . . 9

***Təbriz həsrəti***

Təbriz yadıma düşdü . . . . . 12
Təbrizin dərbəndləri . . . . . 17
Təbriz gecələrində . . . . . 19
Təbriz yolu . . . . . 22
İki düşüncə . . . . . 23
Təbriz nisgili . . . . . 24
Düşdüm . . . . . 25
Təbriz suyu . . . . . 26
Əziz sovqat . . . . . 28
Qaragilə . . . . . 30
Yuxular . . . . . 31
Evimdə bir xalça var... . . . . . 34

***Azadlıq arzusu***

Təzə sərhəd . . . . . 38
Gecikmiş qismət . . . . . 38
Dilim . . . . . 40
Nə yaxşı ki... . . . . . 42
Mənim qollarım . . . . . 44
Güc . . . . . 45
Kimindir Vətən? . . . . . 46

Mənəm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48
Məşhur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 49
Bu yaşda . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 50
Göyərtmək istərəm . . . . . . . . . . . . . . . . . . . . . . 51

***Söz dəmətləri***

Əbədi sığınacaq . . . . . . . . . . . . . . . . . . . . . . . . 54
Bu dünya . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 55
Gedir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 56
Həyat haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . 57
Qürbət bayatıları . . . . . . . . . . . . . . . . . . . . . . . 59
Bayatılar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 61
Ey söz! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 63
Qələm heykəli . . . . . . . . . . . . . . . . . . . . . . . . . 64
Ağ rəng . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 66
Gecikəndə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 67
Neyləsin? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 69
Ürəkdir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 70
Xatirələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 72
Yanmaq da var, yanmaq da... . . . . . . . . . . . . . . . . . 74
“Yanıq Kərəmi” . . . . . . . . . . . . . . . . . . . . . . . . 75
“Yetim segah”ım . . . . . . . . . . . . . . . . . . . . . . . . 76
Şəxsiyyət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 77

***Qərib axşamlar***

Qərib axşamlar . . . . . . . . . . . . . . . . . . . . . . . . 80
Mənim müdrik nənəm . . . . . . . . . . . . . . . . . . . . . . 81
Nənəmin nağılı . . . . . . . . . . . . . . . . . . . . . . . . 83
Nənəm nə deyərdi . . . . . . . . . . . . . . . . . . . . . . . 87
Ağbirçək məsləhəti . . . . . . . . . . . . . . . . . . . . . . 89



Alma payı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 91
Ocaq başında . . . . . . . . . . . . . . . . . . . . . . . . . 92
O istərdi... . . . . . . . . . . . . . . . . . . . . . . . . . 94
Haray . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 96
Miras . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 98
Nənəm də yanılarmış . . . . . . . . . . . . . . . . . . . . . 100
Mənim darülfünunum . . . . . . . . . . . . . . . . . . . . . . 102
Qəriblik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 107
Qərib . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 108
Qəribin qəbri . . . . . . . . . . . . . . . . . . . . . . . . . 109

***Dördlüklər*** . . . . . . . . . . . . . . . . . . . . . . . 112
***Adsız dördlüklər*** . . . . . . . . . . . . . . . . . . . . 137
***Təzadlı duyğular*** . . . . . . . . . . . . . . . . . . . . 159
***Səkkizliklər*** . . . . . . . . . . . . . . . . . . . . . . 186

***POEMALAR***

Şair həyatının nəğmələri . . . . . . . . . . . . . . . . . . 225
Görüş ömrü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 271
Ayrılmış sahillər . . . . . . . . . . . . . . . . . . . . . . 301

**Redaktor** *Natiq Cavadzadə*
**Rəssam** *Nazim Rzaquliyev*
**Korrektor** *Fidan Ramazanova*
**Kompüter yığımı** *Yaqut Rəhimova*
**Kompüter işləri** *Sevda Allahverdiyeva*

**ƏLİ TUDƏ**

TƏBRİZ YOLU

X cild

Kitab Natiq Əli Tudə oğlu Cavadzadənin
şəxsi vəsaiti ilə çap olunub.

Çapa imzalanmışdır 17.08.2017. Kağız formatı $60x90^1/_{16}$.
Fiziki çap vərəqi 21,0. Şərti çap vərəqi 21,0. Qarnituru Times.
Sifariş 2295. Tiraj 500.

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
Az 1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.
Tel.: (99412) 5380010. Faks: (99412) 5380014.
E-mail:azerb_nesch@mail.ru